*Bədəlov Ərşad Loğman oğlu)*

RUHA OVSUN YERIMƏZ
*(şeirlər)*

| | |
|---|---|
| *Bilgisayar tərtibçisi:* | Esmira Məmmədqızı |
| *Texniki redaktor:* | Tahirə Həbliyeva |
| *Korrektor:* | Ədalət Əsədov |
| *Dizayner:* | Emil |

Çapa imzalanmışdır: 22.02.2005
Kağız formatı: 70x90 1/32
H/n həcmi: 9,8 ç.v.
Sifariş: 51, Sayı: 500

***Qiyməti müqavilə ilədir.***

*Kitabın üz qabığında «İndi yalnız yuxularda bizi isindirən doğma yuvamız – evimiz» (Qubadlı rayonu, Dəmirçilər kəndi)*

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində
hazır diapozitivlərdən istifadə olunmaqla
ofset üsulu ilə çap edilmişdir.

*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 498-68-25; faks: 498-08-14*

Hacı Ərşad Hacı Bədəlli

# Ruha ovsun yerimǝz

şeirlər

«Adiloğlu» nəşriyyatı
BAKI — 2005

Az.
B 55

***Bu kitabı çox erkən dünyasını dəyişmiş qardaşım Gürşadın ruhuna ithaf edirəm.***

B 55 Hacı Ərşad Hacı Bədəlli.
Ruha ovsun yeriməz *(şeirlər).*
Bakı, "Adiloğlu", 2005, 314 səh.

«Ruha ovsun yeriməz» şair Hacı Ərşad Hacı Bədəllinin «Dərdin də öz baharı var» və «Aç sinəmi, gör dağımı» adlı şeir kitablarından sonra oxucularla üçüncü görüşüdür. Haqq dərgahına gedən əbədiyyət yoluna bağlılıq, Vətənə və millətə sonsuz sevgilər bu kitaba daxil olan şeirlərin leytmotivini təşkil edir.

B $\frac{4719121970}{121\text{-}2005}$ sifarişlə

© Ə.Bədəlov

## KÖNLÜ HAQQA BAĞLI ADAMIN ŞEİRLƏRİ

Hacı Ərşad Hacı Bədəllinin şeirləri məndə heç gözləmədiyim qəribə hisslər, duyğular oyatdı. Onları sizinlə bölüşmək istəyirəm.

…Xalq arasında «Allah adamı» ifadəsi var. Bu ifadə mahiyyətcə «Hökumət adamı», «Dövlət adamı» ifadələrinin əksidir.

Hökumət, dövlət adamı hökumətə, dövlətə açıq və ya gizli işləyir, bununla dolanıb yaşayır. Çörəyi satdığından çıxır. Xalq belələrini heç sevmir və nifrətini «hökumət adamı» ifadəsində ən qısa, dolğun şəkildə ifadə edir. Allah adamı isə Allahla dərdini bölüşən, dünya malında gözü olmayan, insana yaşamaq haqqı gətirəndir. Əslində yer üzündə olan bütün adamlar Allahın adamıdır. Amma xalq Allah adamı ifadəsini mində bir, on mində bir Adama deyir.

Bu anlamda Hacı Ərşad kişi Allah adamıdır. Getdiyi həcc, tapındığı təriqət, əməlləri, ürəyi, ruhu onu əbədiyyən Allah adamı etmişdir.

Bu məsələnin bir tərəfi. İkinci tərəf «Dədə Qorqud»da deyilən «Haqq-taala onun könlünə ilham etmişdir» kəlamıdır. Dünyadakı insanlar eyni deyil. Hamı incəliyi, zərifliyi duymaq və ifadə etmək gücündə deyil.

Yalnız seçkin, haqq tərəfindən seçilən insanlar adi danışıqdan, normal, adi həyatdan uzaqlaşmaq, sözü-sözə qoşmaq, sözlə insanları heyran etmək, gücləndirmək, dəyişmək, inandırmaq səviyyəsində ola bilir. Hacı Ərşad müəllim könlünə haqqın ilham verdiyi insandır.

Allah adamı və ilham sahibi olmaq xoşbəxtliklə bədbəxtliyə birgə sahib olmaqdır. Amma bu xoşbəxtlik və bədbəxtlik adi adamların xoşbəxtliyi və bədbəxtliyi deyildir.

Mənim qarşımda Hacı Ərşadın «Dərdin də öz baharı var», «Aç sinəmi, gör dağımı» kitabları və çap olunacaq yeni kitabının yarpaqları var. Əl ilə yazılmış bu yarpaqlar məni payıza döndükcə saralmağa başlayan yaşıl-sarı rənglərin qəribə bir təmasını yaşadan sentyabr ayını xatırladır.

Yay bitmiş. Kəndə gələnlər çıxıb şəhərə getmiş. Gələnlərlə dəyişən, yeni biçim hüsn qazanmış, kənd yenə öz hüznünə, dərdinə qayıtmışdır. Müvəqqəti olanlar getmiş, əbədi olanlar qalmışdır. Bağa-bağata, çölə, dağa sığmayan uşaqlar bir binaya sığmağa məcbur olmuş, dərs başlamışdı. Azadlıq bitmişdir.

Hər şeyin zaman dövriyyəsinə gömüldüyü bu dünyada keçəriliyi əbədi etməyi bacaran insanlardan biri də Hacı Ərşad müəllimdir. Boşalan, tərk edilən dünyada dağlar da, kənd də mahiyyətcə eynidir. Tənhalaşma, yalqızlaşma nə sırf məkanla, nə də sırf zamanla bağlıdır. Tənhalıq əbədi olanları qazanmaq üçün gedilən, qət edilən sonsuz bir yoldur.

Mən Qubadlının Başarat, Alyanlı kəndlərində olmuşam. Təəssüf ki, Dəmirçilər kəndində olmamışam. Ancaq Qubadlı mənim üçün ilk növbədə qaçaqlardır, qaçaq ocağı, Qaçaq Nəbidir. Bu qaçaqlar kimdən qaçıb, nə istəyib? – sualı uşaqlıqdan başımda dolanan və hələ də cavabını tapmadığım suallardandır. Əlbəttə, mən məsələnin elmi-tarixi tərəfini az-çox bilirəm. Qaçaqları Cəbrayılda bir «Sən öl gələcəyik» andına görə Novruz bayramında evlərinə buraxan Kefli Bəşir də mənim babamın dost-doğma qardaşıdır. O zaman Qori Müəllimlər Seminariyasını bitirib. Çox dərdli olub, çox içib və Kefli İsgəndər kimi ona da Kefli Bəşir deyiblər.

Mən qaçaqların – Türkiyədə əfə deyilən insanların həyat fəlsəfəsini anlamıram. Onlara güllə atanların, həbs edib Sibirə göndərənlərin tökdüyü göz yaşını anlamıram…

Görünür, dövlət şərtləri ilə düşmən olub, qan, gen şərtləri ilə doğma olanların faciəsi hələ də açılmayıb.

Qılıncımız öz qınını kəsibsə və indii də kəsirsə, Hacı Ərşad müəllimin sözləri ağlayacaq, sızlayacaq və aram tapmayacaq.

Qubadlı mənim üçün Ramiz Rövşənin atası mərhum Məhəmmədəli kişi deməkdir. O kişi Qubadlıdan və qubadlılardan danışanda elə bil o dağların gücü ona qayıdırdı, gözlərinə işıq, üzünə nur gəlirdi. Məhəmmədəli kişi öz yaxın qohumu Pərcahan xala ilə evlənmişdi.80 yaşında da Pərcahan xalanı 20 yaşdakı çılğınlıqla sevən Məhəmmədəli kişinin məhəbbəti Qubadlıya, o dağlara, daşlara, sulara, ağaclara olan məhəbbətin özü idi. Yerliçiliyi Azərbaycana xəstəlik kimi gətirənlər yerin gözəlliyini, Vətənin bir parçasının munisliyini siyasət alverxanasına çevirdilər. «Vətən doğulduğun yerdən başlayır» prinsipini «Bizdən olmayanlar bizə düşməndir» prinsipinə çevirənlər Vətənə dağ çəkdilər.

Qubadlı mənim üçün dağ gövdəli Süleyman Rəhimov deməkdir, «Şamo», «Saçlı», «Ağbulaq dağlarında» deməkdir. Allah rəhmət eləsin, qəbri nurla dolsun!

Qubadlı mənim üçün bu dünyadan nakam gedən, əqidə dostum böyük şair Eldar Baxış deməkdir.

Qubadlı -- dostlarım Vahid Pərvizoğlu, Zahid Şahsuvarlı, Mehdi Mükərrəmoğlu, universitet müəllimi Abbas müəllim, Sabir müəllim deməkdir.

Qubadlı – Alyanlı Cümşüd deməkdir. İndi də onun tunc kimi sifətini, qara bığlarını, heç gülməyən çöhrəsini xatırlayıram.

Qubadlının bir adı da şeirdi, sənətdir. Mən Doğu Anadoluda olanda Hacı Qasım Çələbi babanın ocağını, Sirik, Dağ Maşanlı, Xələfli, Başarat, Alyanlı… obalarının sənətlə, inancla bağlı tərəflərini daha dərindən anladım və Yasəvi yurdundan, uzaq Türküstandan, Anadoludan, Xorasandan gələn köçləri, bu köçlərdəki həyatı, insanlığı, sənəti, təriqəti daha dərindən anladım.

Biz özümüz qədər dərinik, qədimik.
Biz mədəniyyətimiz qədər böyüyük.

Özünü süni şəkildə qədimlərə bağlayanlar, kimlərləsə ölçənlər yalnış yoldadır. Bu yolun miskinliyini ermənilər bütün dünyaya göstərdilər.

Sən demə, Qubadlı həm də mənim üçün Hacı Ərşad Hacı Bədəlli demək olacaqmış…

Hacı Ərşadın şeirləri məndə bu qədimlik hissini, inanc və təriqət duyğuşunu bir daha oyatdı. Bir daha Mir Məhəmməd Ağaya sevgi qarışıq yanğısını yaşadım. O şeirləri oxuduqca elə hey durbinlə Cənuba–Savalan dağlarına baxan, baxmaqdan doymayan mərhum Əli Çələbini xatırladım. Hər il ziyarətə gedib ayaqyalın dolaşıb, qəbir daşlarını bir-bir öpdüyüm Çələbi ocağını, Hacı Qaraman pirini xatırladım..

Duyğulu-duyğulu ürək sözlərimi yazdım və bir daha dərk etdim ki, dünyada heç kəs Hacı Ərşad müəllimə itirdiklərini qaytarmayacaq.

İtən Vətən qayıdacaq. Ona inanıram.

İtən övlad, şəhid–Nadir qayıtmayacaq.

Allah verdi, Allah da aldı. Vətən üçün qurban getdi. Nadirin ruhu qarşısında diz çökürük və Vətən üçün dua edirik.

Allah Vətənimizi qurtarsın. Allah Vətənimizi içəridəki iç düşməndən, dişarıdakı dış düşmənimizdən qurtarsın.

Tanrı türkü qorusun.

Tanrı insanı qorusun!...

Mən Hacı Ərşadın şerlərində Vətən duası eşitdim, hər kəsin övladına sağlıq-salamatlıq arzusu eşitdim, hər kəsin ocağına toy-bayram diləyi eşitdim.

Allah adamı, könlünə haqq–taala ilham etmiş insan başqa nə cür ola bilər ki?!

Onun dostları: Alim Qasımova, Paşa Qəlbinura, Mehdi Mükərrəmoğluna, Arif Siracoğluna (Allah rəhmət eləsin!) ithaf etdiyi şeirlər, cızdığı poetik mənzərələr, səmimiyyətdən yoğrulmuş kövrək duyğular yağışın, küləyin, suların səsi kimidir. Nə iddia var, nə hökm, nə istək var, nə təmənna.

Bu şeirlərin–sarı-yaşıl yarpaqların müəllifi hər cür sevgiyə, hörmətə, ehtirama layiqdir.

Sözün qutlu olsun, şair qardaşım!


Kamil Vəli Nərimanoğlu,
*filologiya elmləri doktoru, professor.*

11 avqust 2003-cü il.
BAKI.

## ÜZÜ HAQQ DƏRGAHINA



Saldın məni öz yoluna,
Haqqa gedən düz yoluna.
Virdim Allah, Allah demək –
Bağlanmışam söz yoluna.

HƏZRƏTI AXIR ZAMAN
PEYĞƏMBƏRIMIZ ƏLA,
ALI MƏHƏMMƏDƏ (S.Ə.S.) ITHAF

I

İldırım Göylərin qəzəbi, kini,
İnsanın Çiçəyə biganə günü.

II

Kainat sığışar bircə damcıya,
Böyüyər, canlanar, dönər sancıya.
Sancıdan doğular, «inqə» qışqırar,
Özünü dərk edər, idrak fışqırar.
Əzmində gəzdirər İman hünəri,
Çağırar Rəbbinə azmış bəşəri.
Bütün yaranmışın fövqündə durar,
Mələk duyumunda, şövqündə durar.
İşığı, Rəbbini sevən yar, aşiq,
Həm işığa, həm Rəbbinə yaraşıq.

MÖVLANA MIR HƏMZƏ ƏFƏNDI SEYYID NIGAARININ VƏFATI VƏ VƏSIYYƏTI

1303-cü il Qurban bayramında vali Hacı Həsən paşa ilə təbrik mərasimində (zamanın yaxınlaşması münasibətilə) vəfatından, cənazəsinin Amasiyaya göndərilməsi və orada dəfn olunmuş oğlu Siracəddin Əfəndi ilə bir qəbiristanda yatmaq istəyini bildirmiş və bu lütfü əsirgəməmələrini Paşadan rica etmiş. Vali paşa bu vəsiyyəti eşidərkən: «–Əfəndim, Allah ömrünüzü uzun etsin. İnşallah, daha bir çox illər yaşayasınız. Allah göstərməsin, haqdan belə bir əmr gəlsə, burada sizin şərəfli işlərinizə layiq bir türbə ucaldarıq, burada qalarsınız»–demiş. Həzrəti Pir cavabında: «–Hər halda yaxın bir vaxtda ömrüm sona yetəcək. Mənim cənazəmi Amasiyaya göndərmək lütfünü Sizdən diləyirəm. Bu xidmətiniz, inşallah, Allah dərgahında qəbul olar». Bu sözlərin qarşısında alicənab vali: «–Əfəndim! Təkrar edirəm. Allah Sizi saxlasın. Sizin saf xidmətinizə etimadım dərin olduğu üçün açıq deyirəm: belə bir hal üz versə, havaların belə isti vaxtı Amasiyaya da 10-12 günlük yol getmək zəruriyyəti qarşısında nəşiniz əziyyət çəkmiş olar. Valinin verdiyi cavabın mənasını anlayan Nigari Həzrətləri: «–Səksən ildir, bu vücud Allah demişdir. Ondan başqasını zikr etməmişdir. Ondan qeyrisini görməmişdir. Səkkiz gün içində bu vücud qokuyacaqsa, qoy qokusun», demiş. Bu cavabdan utanan Vali paşa elə demək istəmədiyi haqda üzr istəmiş. Mir Həmzə Seyyid Nigari Həzrətləri 1303-cü ilin Məhərrəm ayının 13-də, bazar ertəsi günü (29 Eylul) ikindiyə yaxın vəfat etmiş, Məhərrəm ayının 17-si günü vəsiyyəti gərəyi ilə at arabasıyla Xarputdan Amasiyaya yola salınmış, gecəli-gündüzlü» yol qət edilərək mübarək nəşi 7 gündə Amasiyaya çatdırılmışdı. Dəfn edilməzdən əvvəl hökumətə çatan xəbərə yanğın komandası idarəsindən bir nəfər, bələdiyyədən bir nəfər doktor gələrək heyət hüzurunda tabutun qapağı açılmış, qoruyucu heç bir özəl önləm alınmamasına rəğmən Həzrəti Pirin mübarək vücudunda bir pozulma və qoxu olmadığını görmüşlər, hətta ətrafı xoş bir nisbət–Məhəmmədiyyə qoxusunun bürüdüyünü müşahidə etmişlər, «Rəhmətullahi Əleyh»–deyərək heyrət etmişlər.

RƏBBIN SƏNI BU QƏDƏRMISEVIRMIŞ!

*Mürşidimiz Mir Həmzə Əfəndi Seyyid Nigariyə.*

Ucalıbdı ürəklərdə heykəlin,
İmdad yeri – diləklərdə heykəlin,
Dağ arxadı kürəklərdə heykəlin –
Gül ruhunu könüllərə sovurmuş,

Rəbbin  Səni bu qədərmi sevirmiş!!!

 Hər nə varsa, Rəbbin Sənə veribdi,
Cənnət edib gül bağçana giribdi –
Mürşüdlüyün zirvəsində görübdü,
Gül ruhunu könüllərə sovurmuş,
Rəbbin  Səni bu qədərmi sevirmiş!!!

Vəhdətlənib çiçək açdı dərdlərin,
Haqqa çatan ümid saçdı dərdlərin,
Müridlərə örnək oldu virdlərin –
Gül ruhunu könüllərə sovurmuş,
Rəbbin  Səni bu qədərmi sevirmiş!!!

Dərgahında qüslə çəkdi nəşini,
Uzun yolda gülə bükdü nəşini –
Yayın günü buraxmadı peşini,
Tabutunu gülüstana çevirmiş,
Rəbbin  Səni bu qədərmi sevirmiş!

## “HAQQ SƏNDƏDİR”

*Şeyx Mir Sədi Ağaya*

 Bir Nur idin, haqdan endin,
Cismə döndün, bətnə sindın.
Qayən qüdsi – geri döndün –
“HAQQ  səndədir”–“HAQQ  səndədir!”

Bütün cahan dördlər[1] üstə
Yaradandır – hər nə istə.
Haqq məqamda, pak həvəsdə –
«Ənəlhəqq» – Sən, «Ənəlhəqq» – Sən!

 Açıb meydan, tutub sükan,
Oldun haqqa Yusifi – kan.
Zamansızsan, həm laməkan–
«Ənəlhəqq» – Sən, «Ənəlhəqq» –Sən!

Ol Rəbbinə bir qul oldun,
Ayəsinə bülbül oldun –
Buraq[2] oldun, Düldül[3] oldun –
«Ənəlhəqq» – Sən, «Ənəlhəqq» – Sən!

## SƏNDƏN

*İyirminci əsrin birinci yarısının sonlarında islamın*
 *Nəqşibəndi təriqətinin son ulu övliyalarından biri,*
*repressiyalar dövrü olmazın məhrumiyyətlər və*
*məşəqqətlərə məruz qalmış Şeyx Mir Sədi Ağa*
*müridləri üçün himn*

---

[1] Şəriət,Təriqət, Həqiqət Mərifət;
, Su, Od, Hava, Torpaq
[2] Həzrəti Məhəmmədi (s.ə.s) meraca aparan at şəkilli işıq
[3] Həzrəti Əlini (r.a.) gəzdirən Nur-qanad (at-formasında)

Təbibimsən, bimarınam,
Umar könlüm şəfa Səndən.
Haqq yolunun təşnəsiyəm,
Dözüm məndən, cəfa Səndən.

Hüsnün adlı gülüstan var,
Ruhum orda tutar qərar,
Vəcdə gələr, qanadlanar,
Nəzər Səndən, səfa məndən.

Qulaq səsdə, dil soraqda,
Cismim fani, qəlbim haqda,
Xoş günümdə, bəd ayaqda,
Sınaq Səndən, vəfa məndən.

Çox dərdim var, çox ahım var,
Hələ çox-çox günahım var,
Ümidim var, pənahım var, -
Xilas Səndən, toba məndən.

Biz gedən yol çox uludur,
Ali Məhəmməd yoludur,
Nəqşibəndilər qoludur –
Zəhmət məndən, rəva Səndən.

Haqq yolunda haqq Mir Sədi,
Bizə həyan çıx, Mir Sədi,
Bizə müdam Şıx Mir Sədi,
Qismət haqdan, dua Səndən.

*Günah ili, tövbə ayı.*

SONSUZ SEVGILƏRIMIN ƏBƏDI ÜNVANI
MIR MƏHƏMMƏD AĞA NURUN
MÜBARƏK RUHUNA ISMARLADIĞIM
ŞEİRLƏR SILSILƏSINDƏN

EYLƏR

Kandan gəldim məkana
Yol qəhrini çəkana –
Halal-hümmət, ərkana,
Mövlam məni yad eylər.

Nə küştüdü, nə cəngi –
«Olum-ölüm» ahəngi
Məhçulluqda tiringi
Kimi kimə ad eylər.

Yanar, haqdan sönməsə,
Nur taxtından enməsə…
Qalan yoldan dönməsə,
Gedən nədən dad eylər.

Dərvişə bax, lal baxır,
Doymur – haqqa qul baxır.
Qulluğundan gül qoxur,
«Ya hu» deyib od eylər.

## MEYDANINA HƏSƏD ÇƏKƏN

*(Bəzi üzdəniraq «dostlar», vəzifə məxluqları*
*Mir Məhəmməd Ağa Nurgilə gəlməzdən əvvəl*
*bir nəfər göndərirdilər ki, baxıb görsün*
*kimlər var, kimlər yox)*

Meydanına həsəd çəkən,
Gizli gələn, pəsəd çəkən,
Üzə gülüb nəhs sədd çəkən
Yaramazlar gözdən düşüb.

Sən onları tanıyırdın,
Barmağında sanıyırdın,
Üzlərinə qınayırdın –
Kim deyər ki, bizdən düşüb.

Gündə bir rəng alandılar,
Hər məcraya dolandılar,
Münafiq də qalandılar –
Yalan-palan sözdən düşüb.

Haqq yerini tutacaqdı,
Hamı gorda yatacaqdı
Qiyamətə çatacaqdı
Asıldığı gəzdə*n düşüb.

## BAX, MƏNI TUT

Şərə meydan nəfsi öldür,
Çıxdaş elə, əfsi**, öldür,
Olsa belə ovsun, öldür –
Hiddət elə, bax, məni tut.

Sanma zəhmət itəsidi:
Dualarım bitəsidi…
Rəbbim dada yetəsidi –
Minnət elə, bax, məni tut.

Çox ləng gəldim, haqqa çatdım, –
Göydə gəzdim, yerdə tutdum,
Zülmət yardım, nura batdım –
Heyrət elə, bax, məni tut.

Tanrı hökmü suçundayam, –
Gödək ömrün köçündəyəm,
Övliyalar içindəyəm –
İbrət elə, bax, məni tut.

---

*Ağacın, zirvənin, qayanın haçası;

**Əfsimək -- Düyünü, buğdanı xırdaqdan, tozdan təmizləmək üçün sinidə atıb-tutaraq sovurmaq

**UNUTDU**

Meydanımız meydan idi,
Şeyxin verən paydan idi –
Sənin yolun, qaydan idi
Pərən kəslər tez unutdu.

Kankan olub, sən kan açdın,
Haqqa yaxın məkan açdın,
Öndə getdin, əpkan açdın –
Girən kəslər tez unutdu.

Yırtıq gördü heybəsini,
Umdu dola torbasını…
Günahını, tövbəsini –
Kürən kəslər tez unutdu.

Nur görürük gülüşündə,
Haqq sədası gəlişində…
Şəfa tapıb ölüşündə –
Duran* kəslər tez unutdu.

----------------------

*Ümidsiz xəstə yatağın-
dan duran, qalxan

***

Varlıq özü bir Günəş,
Həyat verməz hər atəş,
Maya, cövhər, canlı nəş,
Torpaq özü doğurdu.

Anan çəkdi acını,
Ağrı yoldu saçını,
Yerə qoydu sancını,
Baban nurla yoğurdu.

DÜNYA

Səndən gəldi cövrü – cəfa,
Bir an gülməz qəhri səfa,
Üzü qara-sidqi vəfa,
Oyan, oyan, yatan dünya!!!

Sitəm çəkir, yanır ürək,
Öz eşqini danır ürək,
Yüz yerindən sınır ürək –
Dostu yada satan dünya!!!

Nə gəlirsə, yoxdan gəlir,
Dostdan gəlir, haqdan gəlir…
Təzə deyil, çoxdan gəlir –
Mərdi namərd tutan dünya!!!

Hər bəxşişi zəhər dadır,
Hər gülüşü qəhər dadır.
Nəri yıxır, ər aldadır –
Şər qoynunda yatan dünya!!!

ÜRƏYIM CADAR-CADAR

Buludam, –
Qov məni, qov,
Niyyətinlə
toplanım
topa-topa!
Yağışam –
Yağar olum,
tökülüm
torpağa
hopa-hopa.
Toxum olum,
cücərim,
dartınım Günəşə
çata-çata.
Gül olum, gül,
güllənim
çəməndə
buta-buta.
Yar olum, yar,
toplayım,
dəstələyim
gülləri
topar-topar.
Al deyim, al,
Uzadım, yarıma…
Ürəyim,
cadar-cadar.

**ƏHLINƏ**

Bir gül dərdim vəhdət bağından,
Soraq çatdı heyrət əhlinə.
Nalə qopdu həsrət dağından,
Möhnət sindi qeyrət əhlinə.

Dərviş kimi çöllərə düşdüm,
Ağır yüklü illərə düşdüm.
Şəhid oldum, dillərə düşdüm,
Şah Hüseynəm beyət əhlinə.

Əla, ali Məhəmməd – adım,
Atam oldu şeyxim, ustadım.
Haqqa bağlı nəsli – əcdadım
Bir örnəyəm bisət əhlinə.

GOR DÜNYAMA YARAŞIQ

Yeniyetmə qarısan,

Həsrətimin barısan,
Gen dünyamla yarısan,
Dar dünyama yaraşıq.

Kürəyində əl oldum,
Lal qəlbinə dil oldum,
Müti oldum, qul oldum,
Zor dünyama yaraşıq.

Hər arzudan durusan,
Ac tamahdan qorunsan,
Zikrimin göz nurusan,
Kor dünyama yaraşıq.

İmanımsan, dinimsən,
Haqqa bağlı yönümsən.
Pıçıltımsan, ünümsən,
Kar dünyama yaraşıq.

Hədər getməz zəhmətim –
Haqqa çatmaq möhnətim,
Diləklərdə rəhmətim –
Gor dünyama yarışı

**MƏNDƏ**

Canıdildən aşıq oldum,
Vüsal məndə, güman məndə.
Haqqa necə muştaqam ki,
İxlas məndə, iman məndə!!!

Fironlar* qərq eləməz,
Hər inanan dərk eləməz.
Yerdi, göydü – fərq eləməz –
Məkan məndə, zaman məndə.

Hər yan zülmət – qəlbi kora,
Müşkül yoxdu əhli-kara,
Yolum açıq, getsəm hara,
Haqdan rüsxət, aman məndə.

Mübhəm gələn dərdim – Allah,
Fikrim, zikrim, virdim Allah,
Yatdım, durdum, gördüm Allah –
Batin, aşkar – hər an məndə.

-----------------------------------

*Musa peyğəmbərlə Fironun Nil
çayını dayandırmaq barədə şərtinə işarədir.

KİM???

*Hər zaman haqq söyləyən dillə mayalanmışam,*
*Məni yoxdan xəlq edən Xaliqə inanmışam,*
*Özümü pay qoymuşam, qəlblərə paylanmışam,*
*Bircə bunun xətrinə toxunmayın şəstimə.*

Səfa! Mərva! – Qaynar tiyan,
Çılpaq körpə – Haqqı duyan,

Dabanından su qaynayan,
Haqqa qurban deyilən kim?
(İsmayıl peyğəmbər).

Arpa-arpa kim uzandı,
Qılınc tutdu, tac qazandı,
Şeir oldu böyük andı,
Hikkəsinə əyilən kim?
(Şah İsmayıl Xətai).

Dərd bələkli çağa olan,
Dərdə kölə, ağa olan,
Dərd hünərli dağa bulan,
Duyulan kim, oyulan kim?
(Füzuli).

…Haqq söyləyən dil – mayası,
Haqqa müştaq, Haqq qayəsi,
Haqqın vəhyi – Haqq ayəsi –
Bu məqamda öyülən kim?
(Mir Məhəmməd Ağa Nur).

## SIĞINDIM, UYUDUM ALLAH XOFUNDA

Haqq qanadı kölgəsən,
Başım üstə bəlkə Sən,
Dünyam yanar ləngisən,
Qovuşmağa çiyəm, çiy…

Dərdə sinə gərdim, əhli-kar oldum,
Sidq ilə qəm yedim, mən qəmxar oldum.
Vird edib yar dedim, haqqa yar oldum, –
Sığındım, uyudum Allah xofunda.

Nagahan hökm verən qüvvəyə şükür,
İmanın gücüdür, – dərgaha çəkir –
Niyyətin bəhrini yollara tökür,
Sığındım, uyudum Allah xofunda.

Bir çiçək üşüdü içimdə bu gün,
Bir mələk ağladı suçumda bu gün,
Bir ümid doğuldu heçimdə bu gün –
Sığındım, uyudum Allah xofunda.

## DILƏNÇIYƏM, DƏRVIŞƏM

Dilənçiyəm, dərvişəm, –
Nurlu Sona girmişəm,
Nurda bir səs görmüşəm –
Məni haqqa çağırır.

Mən özümdən qaçıram,
Hara gəldi uçuram.
Nurda səsi qucuram –
İçimdədi-çığırır.

Gülüstana girmişəm,
Ruhu gülə sarmışam,
Necə büsat qurmuşam –
Ağ libasda-ağarır.

Çərxə sinə gərirəm,
Fərşi ərşə sərirəm,
Ərşdən ulduz dərirəm,
Yerdə min kor bağırır.

Eyş-işrətə kormuşam,
Dörd məqama[1] varmışam,
Allaha qul-yarmışam –
Ruhu nurla yoğurur.

## DILINƏ QURBAN GEDƏNIN

Basılmaz aslandı elində Miri!!!
Mir Məhəmməd Ağa Nur.

Dilinə qurban gedənin
Bəxti çarmıxa çəkilib.
Varlanıb tüğyan edənin
Goruna lənət tökülüb.

Damağına dad düşənin
Keçər, nəfsi daşdan keçər.
Doğma yurddan yad düşənin
Toy-büsatı yasdan keçər.

Yalınqatdır qərib insan,
Hünəri sabun köpüyü.
Heç bir işi olmaz asan,
Daşdan çıxar hər qəpiyi.

Ömrü, günü səksəkəli,
Yuxuları qaz yuxusu.
Naümid möhnət çəkəli,
Hər söz başı bir «axı»sı.

Kim nə desə haqlar onu,
İstər yalan, doğru olsun.
Dözümlüdür, saxlar onu –
Canüzən yüz ağrı olsun.

Qorxu hər vaxt pusqu çəkib
Arxasınca izlər onu.
Bəxti qarğış, bədva[2] töküb
Yuxuda da gözlər onu.

[1] Dörd məqam: şəriət, təriqət, məfifət, həqiqət.
[2] Bəddua

MIR MƏHƏMMƏD AĞA NUR OĞLU
MIR SƏDI BƏY ƏFƏNDIYƏ

1.ÖPÜŞDÜRƏR

Hər müşkülüm Sənə agah,
Hər nicatım gələr nagah[1].
Sən yaraşan məqam, dərgah
Mələkləri öpüşdürər.

İl var, keçər qəhər kimi, –
Acı, zəqqum, zəhər kimi,
Gün var, gələr bahar kimi-
Diləkləri öpüşdürər.

Yel var, çılğın hədə yeli,
Səmum yeli, qada yeli.
Yel var, sevgi, vədə yeli
Çiçəkləri öpüşdürər.

Xoş səhərsən, üzün gülər,
Təcəllasan, nazın gülər,
«İznə dəvət» sözün gülər –
Ürəkləri öpüşdürər.

2.GƏRƏK

Zərrə idim, vücud oldum,
Haqqa girdim, mövcud oldum,
Adəm oldum – təcrid oldum,
Nəfsi məndən alan gərək.

İlk əzəli qüdrət qalır,
Ol! – Olana heyrət qalır, –
Yaradana minnət qalır,
Bu minnətə dolan gərək.

Deməm: Öldüm, bitdi hər şey,
Gələn gəldi, getdi hər şey,
Məkanına yetdi hər şey,
O məkanda qalan gərək.

Axtar, qazan diri ikən,
Halallığı görür ikən,
Haqq məqama irir ikən –
İman, ixlas bulan gərək.

Əməllərin xoşa gələ,
Yiyə duran nəzər sala,
Tanrı özü rəva qıla,
Meyli səndə olan gərək.

---

[1] Qəflətən, gözlənilmədən.

3.BƏLKƏLƏRDƏN

Qızındım göz oduna,
Sığındım söz oduna,
Büründüm naz oduna –
Qarsıldım bəlkələrdən.

Vəhdətə könül verdim,
Müti ovsuna girdim,
Yuxumu aşkar gördüm,
Sarsıldım bəlkələrdən.

Gah şirinsən, gah acı, –
Qara qula şah tacı.
Hər şübhə – dar ağacı,
Asıldım bəlkələrdən.

4.ZIKRƏ MEYDAN AÇANIMIZ

Sənin ziyan – haqq ziyası,
Haqq cövhəri, haqq mayası,
İlk sevginin nur həyası –
Buta alıb içənimiz,
Zikrə meydan açanımız.

Sən – Tanrının qüdrət payı,
Qəlbi açıq – heyrət payı,
Haqqa varid niyyət payı –
Kəbə deyib uçanımız,
Zikrə meydan açanımız.

Uçan qat-qat Göylər ilə,
Duruş tutan yeylər ilə.
Nə işin var veyllərlə –
Keçilməzi keçənimiz,
Zikrə meydan açanımız.

Biz də aşiq meydanına,
Haqq möhürlü ərkanına,
Fərşdən ərşə məkanına –
Seçməlini seçənimiz,
Zikrə bustan açanımız.

CANIM – GÖZÜM, SEYYIDI- TÜRK
MIR SƏDININ RUS DILINDƏ YAZDIĞI
ŞERLƏRIN TƏRCÜMƏSI

**№1**

YERI

Yeri,
taleyin
daşlı, tikanlı
nahamar yollarıyla yeri,
Ustadın həsrətiylə
yüklənmiş

yanğı çəkib
qovrulan
ürəyinlə yeri,
Ağır sitəmlərdən
həzz alıb
xoş ovqat çəkən
diləyinlə yeri,
Göz qırpa-qırpa
yollarına ziya verən
zikrin təşnə yanğısına
canını yaxa-yaxa yeri,
Nur içində
üzən ustadının
Gəl! Gəl! – çağırtısına
Baxa-baxa yeri!…
Bir an
dayansan,
sanki
yox olar olan,
Bir an
dayansan,
Aldanmış olarsan –
Görünər gözünə.
Budur,
açılmış qarşında
axırıncı məqam –
Həqiqət!
Haqqı fəth edən –
Məhəbbət.

№2

Mənim qəlbim –
Mələklər qurmaq istədiyi,
Tanrı özü qoruduğu,
hamı üçün açıq,
alınmaz qala –
Cənnət...
Harda ki yoxdu
əbədi
qəzəb, kin, hiddət –
Kimdən kiməsə
Minnət!
Gözləyirəm səni
qəlbimin,
ruhum dolaşan
doğma guşəsində
gizli, xəlvət.
Harda ki
səni görməyi
mələklər də xoşlayır,
O yerdə ki
sənin dünyan
qurtarır,
Mənim dünyam
başlayır…

№ 3

Ürəyim boğulur
Sitəmli bənizində,
Başım üstündə
dua oxuyur
günahkar mələk
matəm dənizində…
Zaman – Çovğun
Yerlə
Göy
arasında
ruhumla vuruşur –
Nifrətlə
Məhəbbət
bir-birilə
yarışır…

№ 4

Ürəyim –
Dalğalar
Sahilə tullamış
balıqqulağı,
Tapdayır, keçir
çılpaq
çimərlik qızları…
Yaxılır
bəd ovqatla
ruhuma
beçə balı qarışmış
həyasız,
ədalı yerişlərin
işvələri, nazları.

№ 5

Allahın
bəxşişi, hədiyyəsi
mənə –
Səbrimin genişliyi,
rahatlığı
Məhəbbətin
böyüklüyü,
Qəlbimin
coşqusu,
narahatlığı.

№ 6

İmanla
ixlaslı mömin
görə bilir
Allah nuruynan
Allahın qulu,
Ulu
Məhəmmədi –
Bəşərə
peyğəmbər olanı-

Əbədi!!!

№ 7

Ey Şeytan,
rədd ol
qəlbimin
gecə-gündüz
zəhmətindən–
İmana can atanların
ibadətindən.
Necə ki
qovuldun
Rəbbimin rəhmətindən!
Oyatma yorğunluqdan
Rahatlıq tapıb
Uyuyan
Yatan ruhumu, –
Diksindirmə
Haqq məqama
çatan ruhumu...
Hardasan,
mənim
üstümcə dolaşan
uğur mələyim?! –
Çat dadıma,
təntənəli
qələbə nəğməsi oxusun
şeytanlıq üzərində
hər arzum, diləyim!!!
AMİN!!!

№8

Ürəyimdə
anbaan
dərin yaralar açır
cavabsız məhəbbət –
Danılmaz bir həqiqət…
Ömürdən ötdükcə,
iztirablı günlərim,
İçimdə
yandırıb yaxır
özümü –
Ətrini
bənövşədən almış,
qızıl qana boyanmış
haraylarım, ünlərim.
Ey sevgi, məhəbbət
mələyim,
Kəsilib kələyim-
bu, nədi?!
Mənim
sabaha saçılan
dan şəfəqlərim
hicran gecəsindən
qopan,
ağın
maviyə çalan
gümüşü tüstüsünə qarışıb

sürünür
sənsizliyin
ümidsizliyi boyunca–
Əbədi…

№ 9

Karvan-karvan mələklər,
Ürəyimdən yol eylər.
Rəbbim öz rəhmətini
Möminlərə bal eylər.

Şər qüvvələr anası, -
Qan gölünün sonası,
Taxtı-taca qonası
Şeytanlara əl eylər.

Rədd olsun murdar ruhlar,
Paxıl həsədlər, ahlar,
Qisasçı şərgüruhlar –
İmansıza gəl eylər.

Nifrət, qəzəb dolaşar,
Gözlərimdə alışar,
Qaynayar, aşıb daşar,
Yanğı çəkib dil eylər.

**№ 10**

Qış düşübdü, qara bax,
Ağappaqdı çöl, bayır.
Yol üstündə tara bax,
Qəlbimdə qurd ulayır.

Vıyıldayır küləklər,
Qara fikir çulğayır.
Qan içində diləklər,
Ruhum yaman ağlayır…

…Vəhşi ayğır kişnəyir,
Kəmənd keçib boynuna.
İlxıbaşı tövşüyür,
Qanı vurub beyninə.

Ayğır yaman çəkişir –
İki ürək öpüşür.
Qoşa hünər sərgisi,
Azadlığın sevgisi…

№ 11
**1.**

Ruhlar çaxnaşmada –
Məqamları dolaşmada.
Birindən yıxılıb,
Birində çaşmada.
Canları ürpəşir –
Gəlmədi mürdəşir.

**2.**

«Göy üzü damar-damar,
Göydən yerə nur damar».
Çisər çiskin yağışlar,
Yarpaq düşər, xışıldar.
Çılpaqlaşar ağaclar,
Yalqızlaşar qocalar.
Sual olur hər nida,
Bu dünyaya əlvida.

№ 12

Vaxt ötür,
        zaman keçir.
İnsan yetişir,
dünyadan köçür…
"Ey An!
Dayan!
Həzz almaq istəyirəm mən
Səninlə
ömür xoşbəxtliyindən."

XARABA YURDLARIN YOXMU SAHIBI?



Qubadlı rayonu Aşağı Mollu kəndi

Qərib ağlar yuxusunda,
Gecələrin çoxusunda.
Əli Allah yaxasında,
Vətən,Vətən,Vətən–deyər!

OCAQ DAŞI

Xəyal məni çəkdi geri,
Yada düşdü yaylaq yeri:
Seyrə daldım həndəvəri –

İlk gördüyüm bucaq daşı –
Doğma, simsar ocaq daşı…

Soyuqluğu oda döndü,
Lal gileyi yada döndü,
O qalmışdı, o da döndü –
Bir zamanın sıcaq daşı,
Mehri sönmüş ocaq daşı!..

Ata, ana xatiratı, –
O illərin xoş ovqatı,
Çal-çağırlı toy-büsatı –
Bulöv daşı, bıçaq daşı –
Yanı qara ocaq daşı.

## VAXTIMI

Oxşamaz, nazlamaz bahar, yaz məni,
Kəpənək vaxtımı, çiçək vaxtımı?
Ordu cərgəsinə çağır, yaz məni,
Sərf edim qisasa kömək vaxtımı.

Şəhidlər çağırdı, susdu cavanlar –
Papağı barlarda asdı cavanlar…
Atılıb düşdünüz, bəsdi, cavanlar,
Dəf, zurna, balaban, tütək vaxtımı?

Yiyəsiz, kimsəsiz qəbirlər küskün,
Kəsilmiş haraylar, səmirlər küskün,
Buxovlu, qandallı səbirlər küskün –
Sərtliyə səsləyir kövrək vaxtımı…

Xaraba yurdların yoxmu sahibi?
Yardımla, pay-püşlə toxmu sahibi?
Qudurmuş zalımın çoxmu sahibi? –
Nə qədər sürünək, yedək vaxtımı?

Şəhidlər qınayır, çağırır, durun!
Qanıynan torpağı yoğurur, durun!
Tərpənin, gözləyir xoş uğur, durun!-
Göstərim dünyaya gərək vaxtımı.

## ATAM!

Şəhidlik vergi – Allah rüsxəti,
Torpağa sevgi – Şərəf qisməti,
Həyatı dərki – Ömür vüsəti –
Hər yetən, hər kəs bacarmaz, atam!

Qayğıkeş olar – yeganə olar,
Təkcə özünə biganə olar.
Haqsızlıq görsə, həngamə olar –
Hər yetən, hər kəs bacarmaz, atam!

Eşqindən keçər, yarından keçər,
Ömründən keçər, varından keçər,
Mərmilər qazan gorundan keçər –
Hər yetən, hər kəs bacarmaz, atam!

Torpaq anadır, torpaq bacıdır,
Kişi olanlara qeyrət tacıdır,
Hünərin təpər ehtiyacıdır –
Hər yetən, hər kəs bacarmaz, atam!

Yurd verənləri dastan elədik,
Yurda toy tutduq, yasdan elədik,
Nə etdik, vallah, qəsdən elədik –
Hər yetən, hər kəs bacarmaz, atam!

Necə yaraşdı şəhidlik bizə!
Xəyanət sizə, şahidlik bizə –
Havadır, sudur vahidlik bizə –
Hər yetən, hər kəs bacarmaz, atam!

## DƏRDƏ CALANDIQ

Sənin yurdun itsin, yurdu dağıdan,
Mərdi parçalayan, mərdi dağıdan!
İndi hardan alaq dərdi dağıdan –
O qədər söykəndik, dərdə calandıq.

Ömürlük məhbusun əfv ümidi var,
Cəllad zərbəsində səhv ümidi var,
Yüzündə ölənin nəf ümidi var –
Olmayan ümiddə «ya baxt» dolandıq.

Qum çiçəkləmədi, gəldi yaz qəhər,
Sabah qurtarmadı sabaha qədər,
Vətənim qəhr oldu, şəhidlər hədər –
Sözün bazarında sözlə talandıq.

Elə hey ələndik söz ələyində,
Yağlıca vədlərin «döz» ələyində,
Zahirdə ütüldük köz ələyində,
Batində alışdıq, oda qalandıq.
Sənin yurdun itsin, yurdu dağıdan,
Mərdi parçalayan, mərdi dağıdan!
İndi hardan alaq dərdi dağıdan –
O qədər söykəndik, dərdə calandıq.

## HƏLƏ

Nə yaman qocaldıq, getdik,

Ucuzca ucaldıq, getdik.
Kim deyər, öc aldıq getdik,
Əsir Vətən, əsir hələ.

Tula gəzir qurd yerində,
Qalammadıq mərd yerində,
Ormanlaşan yurd yerində
İtmiş yollar susur hələ.

Deyəmmədik sözümüzü,
Qatladılar dizimizi.
İcimizdə özümüzü
Nifrət, qəzəb kəsir hələ.

Qara qüvvə  çətir kimi-
Başım üstə bitir kimi,
Nər igidlər yetim kimi,
Şux boynunu qısır hələ.

Dəfn etməyin ölsəm məni,
Qəbul etməz torpaq təni.
Hər üz görmüş las erməni
……………, qısır hələ.

## YANDI

Canı can saxladımı,
Qanı qan haqladımı;
Danı ban oxladımı?-
Tülunun qaşı yandı.

Hiss məni  sözə çəkdi,
Səs məni izə çəkdi,
Sis məni düzə çəkdi,
Dağların başı yandı.

Ayrı düşən elindən,
Ahı düşməz dilindən,
Oynadım dərd əlindən,
Anlamaz, naşı yandı.

Dərdimə imdad elə –
Gəl başıma od ələ.
Vətən keçdi yad ələ
Torpağı, daşı yandı.

## ƏLI  ALLAH  YAXASINDA

Qərib ağlar yuxusunda,
Gecələrin çoxusunda.
Əli Allah yaxasında,

Vətən, Vətən, Vətən – deyər

Arzuları – savab, caiz,
Təpərsizdir – hürkək, aciz.

Vətən-Kəbə, çox-çox ucuz
İtən, itən, itən-deyər.

Hər nidası – sual, sirli,
Xoş məqamı – xəyal, sirli,
Hər bir günü – məlal, sirli.
Ötən, ötən,ötən – deyər.

Sıralarda axırıncı,
Növbə gözlər acı-acı,
Qəribliyi baş qaxıncı –
Yetən, yetən, yetən – deyər.

## SƏHƏRIM

Gecəm keçib, yuxum qaçıb,
Yenə xəyal hara uçub?
Yollarıma zülmət çöküb –
Gəl, səhərim, gəl, səhərim!

Bəxt ulduzum uçur hara –
Kəhkəşanı yara-yara?
Toranlığı çəkib dara,
Gəl, səhərim, gül, səhərim!

Yurdum viran, gorgah əsir,
Göydən yerə kədər çisir.
Ömür xəcil, qeyrət susur,
Gəl, səhərim, bil, səhərim!

Kim çəkib ki, biz çəkəni!?
Ürək saxlar göz çəkəni,
Kim daşıyıb söz çəkəni,
Əyilməzmi bel, səhərim?!

Vətən virdim, dilim qabar,
Ürək çapıq, cadar-cadar.
Kərəmsizlik cana hopar –
Bəyan etməz dil, səhərim!

## GƏLSIN

Özüm getdim, özüm gəldim,
Oldu qara üzüm, gəldim.
Üzə vurma, quzum, gəldim
Bir də getsəm, ölüm gəlsin.

Nə tapmışam, nə itirdim,
Nə oxudum, nə bitirdim.
Suçlu oldum, söz götürdüm –
Yaman gödək dilim, gəlsin.

Qəlbə güvə – dost kələyi,
Qana düşsün kor fələyi.
Boş qaytarmam bir diləyi,
Əl tutmağa əlim gəlsin.

Çökdü bizdən bac alanlar –
Dar günündə güc alanlar.
Vətən əsir, öc alanlar –
Doğulacaq elim gəlsin.

## ZƏFƏRƏ APARAN NƏĞMƏ

Bu dəhşətdən bayılt məni,
Yox! Yox! Canım, ayılt məni,
Qazilərə tay et məni
Vətən bu gün qurban istər.

Umu, küsü! Yana qoyaq,
Rəqibi də qardaş sayaq,
Günahları qanla yuyaq –
Vətən bu gün qurban istər.

Torpaq yaxaq üzümüzə
Taqət verək dizimizə,
Qalib gələk özümüzə –
Vətən bu gün qurban istər.

Sənin! Mənim! Lənət buna,
Qılıncını salma qına
Şəhid olan ata, ana! –
Vətən bu gün qurban istər.

Bəsdi, uyduq gül-çiçəyə,
Gözləri xumar göyçəyə,
Gedək çıxaq biz Göyçəyə –
Vətən bu gün qurban istər.

Zəngəzurda ocaq çataq,
Zəfəri zəfərə qataq,
İrəvanda qərar tutaq –
Vətən bu gün qurban istər.

Qarabağım mərkəz olsun,
Dəlidağda dur, gəz olsun,

Yer üzünə görkəz olsun,
Vətən bu gün qurban istər.

Arxa-arxa qoşalaşaq,
Zəfər günü biz daşlaşaq,
Tarix  yazaq, tarixləşək –
Vətən bu gün qurban istər.

İKI RƏDIFLI BIR ŞEİR

Sərhədlərə çəpər olun,
Qeyrət olun, təpər olun,
Güllələrə sipər olun –
Silah tutun, şagirdlərim!

Neçə şəhid örnəyimiz,
Neçə qanlı, göynəyimiz,
Vətən üçün – hər nəyimiz! –
Silah tutun, şagirdlərim!

Qələm, kitab – bu gün silah,
Təzə gəlin, düyün – silah,
Cəngin, nərən, ünün-silah –
Silah tutun, şagirdlərim!!!

Əla, yaxşı, ya pis oxu,
Fərqi yoxdu, bilmə qorxu,
Bu günlərin deviz, nırxı –
Silah tutun, şagirdlərim!!!

***

Düşmən bizi qısnayanda
Çal, çap, vur, tut, kəs deyəndə,
Vətən qurban istəyəndə
Əlaçılar harda qaldı!?

Vətən oğlu! Vətən gərək!-
İmdadlara yetən gərək!
Əldə silah ötən gərək –
Xülyaçılar harda qaldı!???
Nəf paylanıb, nəf alanda,
Kef paylanıb, kef alanda,
Vəzifələr müf olanda –
Əlyarçılar[1] harda qaldı!?

* * *

Vətənin
namusuna təcavüz,
qeyrətinə
silinməz ləkədir,
Milli mərəkədir –

[1] -Milli Qəhrəman Əliyar Əliyevin döyüşçüləri

Xocalı, Şuşa, Kəlbəcər!!!
Yer üzündən
axırıncı erməni
cəhənnəmə vasil
olana qədər.

## DÜŞƏR

Bu nağıla, həkata bax,
Bu namaza, rükata bax,
Ağ tükə bax, «çək, at»a bax –
Gün düşəndə, birdən düşər.

Xeyir-şərdən qalan dostlar, –
Bədgümana dolan dostlar,
Dost nəfini çalan dostlar!
Gen düşəndə birdən düşər.

Qürbət elin çuxasına –
Qar ələnər yaxasına
Qəriblərin yuxusuna,
Ün düşəndə, birdən düşər.

Yuvasızlar yatar harda? –
Ruhu darda, təni gorda…
Qara saça gendə, darda
Dən düşəndə birdən düşər…

## DƏMIRÇILƏR TÜRKÜSÜ

Şiş qayanın sərt üzüyəm,
Mərd atanın mərd üzüyəm,
Ana yurdun dərd üzüyəm –
Ağla məni yaylasında,
Ağa çayı[1] laylasında

«Cinli qəyə»[2] cin qovanım,
«Yumru təpə» tin qovanım, –
Qənşərimiz – gün qovanım,
Saxla məni yaylasında,
Ağa çayı laylasında.

«Qiblə dibi» qiblə yönüm,
«Kosa dağ»dan xofsuz enim, –
O yerlərə bir də dönüm,
Haxla məni yaylasında,

---

[1] Doğma kəndimiz Dəmirçilərin ayaqları altından axan çay.
[2] Dırnaq içindəkilər doğma kəndimizdə yer adlarıdır.

Ağa çayı laylasında.

Canım, gözüm «Mağal yeri» –
Bulaq başı, sığal yeri,
Gözaltılar, yığval yeri.
Yoxla məni yaylasında,
Ağa çayı laylasında.

Ruhu çəkdin dara, bulud,
Su çilədin hara, bulud? –
Çökən qəbir, gora, bulud!
Ahla bizi haylasın da,
Holavarı, laylasında.

## QÜRBƏT YUXUSU

Tutaşdım özüm-özümlə,
Dada çatan olmadı ki!
Alışdım, yandım oduma,
Ocaq çatan olmadı ki!

Dolandım hamıdan gizli,
Lal-dinməzcə, sözlü-sözlü,
Hər gecəmi dirigözlü
Açdım, yatan olmadı ki!

Gün-gündən düşdüm gözümdən,
Əl üzdüm tabdan, dözümdən,
Qaçdıqca özüm-özümdən,
Qaçdım, tutan olmadı ki!

Doğma yurdun yaylasını,
Elimin düyün, yasını,
Anaların laylasını
Umdum, qatan olmadı ki!

## OLDUQ

Neçə viran yuva gördük,
Hara qaçdıq, hara girdik.
Dözülməzə sinə gərdik,
Dildə-dişdə karsız olduq.

Haqq carçısı – əyri, oğru,
Məhkum olan məsum, doğru.
Ürək duydu, çəkdi ağrı –
Dözə-dözə arsız olduq.

Üfüqlərdən görsənərdik –
Doğma yurda biz dönərdik –
Qəbirləşdik,– həsrət şərik,
Torpaq sevər, gorsuz olduq.

Təpər! Qeyrət! Verdik yelə,
Cılızlaşdıq ildən-ilə.
Nələr olar sabah hələ –
Yurdsuz qaldıq, barsız olduq.

## BIZIM ELDƏ QAMIŞ DINMIR

Qiyamətə qalan dərdim,
Sirri gizli olan dərdim,
Qamışlara dolan dərdim, –
Bizim eldə qamış dinmir.

«Sus» – dərdimi suya dedim,
Suya qonaq Aya dedim.
Dil-dil ötən haya dedim –
Bizim eldə qamış dinmir.

Ömür qışda, dərdim çılpaq,
Açdım, tökdüm, sərdim çılpaq.
Sazaqlara verdim çılpaq –
Bizim eldə qamış dinmir.

Dərdi ver, qanan saxlasın,
İçindən sınan saxlasın,
Dərdsizə yanan saxlasın –
Bizim eldə qamış dinmir.

## YOXMU MƏNIM ÖZGƏ DƏRDIM?!

Yoxmu mənim özgə dərdim,
Çəkəm gizli öz içimdə?!
Vətən dərdi! Səni dərdim
Hər bir dərdin var heçində.

Bir dərdim də heç deyilmiş,
Həsrətindən bel əyilmiş,
Lənətlənib min söyülmüş,
Qeyrətimin kor suçunda.

Ələmişəm dərdlərimi,
Sınamışam mərdlərimi,
Sındırmışam sərtlərimi,
Elin məcbur kör-köçündə.

## GÖRƏM

Üzüldüm tərif içində,
Bir toplu hərif içində,
Qınayan arif içində –
Görmədim, görəm özümü.

Qan qusan fikirlər cumdu,
İtkilər eynimə damdı,
Şəhidliyi Vətən umdu,
Vermədim, görəm özümü.

Oğlum verdi öz borcunu –
Bir əbədi iz borcunu,
Mənə qoydu söz borcunu,
Dərmədim, görəm özümü.

Tanrı yetirə xoş paya,
Dönəm sərkərdə, paşaya…
Əlimdə bayraq Şuşaya –
Girmədim, görəm özümü.

## ALLAHIM

Sınmışam içimdən, mədəd, Allahım,
Arzudan, seçimdən, mədəd, Allahım,
Dünyadan, köçümdən, mədəd, Allahım –
Möhlət ver, Allahım, səbir – Allahım!!!

Küfrümə qınaqdı, yoxsa bu, nədi,
Məhşərə sınaqdı, yoxsa bu, nədi,
Dərgaha qan axdı, yoxsa bu, nədi? –
Möhlət ver, Allahım, səbir – Allahım!!!

Nə dərddi, danışıb dinə bilmirəm,
Kimsəyə sığınıb sinə bilmirəm,
Özümə qayıdıb dönə bilmirəm,
Möhlət ver, Allahım, səbir – Allahım!!!

Acizlik, qorxaqlıq nələr törədir,
İblisə yenilib, gülər törədir,
Ölümü son əlac bilər, törədir,
Möhlət ver, Allahım, səbir – Allahım!!!

Çatmadı canında bir damcı qeyrət –
Ömürlük oğluna bir acı heyrət,
Olmasın Tanrıya giley, nə qeybət –
Möhlət ver, Allahım, səbir – Allahım!!!

## QURUSUN

*İddialı ananın qız balasına*

Həsrət-həsrət baxan gözəl,
Məni oda yaxan gözəl,
Sudan quru çıxan gözəl,

Kəhrizin, quyun qurusun.

Yaralar qaysaq – içində,
Yaşa sən yasaq içində –
Ürək kir-pasax içində –
Yağışın, suyun qurusun.

Əlǝdin başıma qada,
Bildirdin qohuma, yada,

Qul oldun şöhrətə, ada –
Dastanın, boyun qurusun.

Arxalı day-day aradın,
Rütbə tutan toy aradın,
Tay-tuş seçib, soy aradın –
Rəmzi ad-soyun qurusun.

## ŞÜKÜR OLSUN, ULU TANRININ ƏZƏLI HÖKMÜNƏ!

Təzədən bütləşib,
təzədən yıxılarmış
Lat bütü
Üzza bütü,
Hübəl bütü.
Sezar kimi,
Hitler kimi
Stalin kimi,
Mao kimi,
Səddam kimi...

Qosqoca dağlar Dağının
          ağlayarmış anası,
Dağılarmış
          alınmayan qalası,
Qara geyərmiş
          bəmbəyaz sonası,
Hıçqırarmış
          için-için,
Yetim qalarmış
Fironun da balası.
Gözümüz önündə
Əriyir miflər,
yox olur –
ilğımlar kimi…

Çağa da olsa,
yeni bir aləm doğulur –
Körpə fidanlar kimi
boy verib, Günəşə dartınır,
Gəlir
        zərurət kimi,

qənimət kimi…
Gəlir
qanunauyğun,
bəlkə də hədər,
Kim bilir,
yaşayar
nə qədər.
Bəzən
min-min illər
olur –
olacaq tarix,
Bəzən
bir an
min illərdən
daha çox
qalır –
qalacaq tarix.
Demirəm
ürpənə-ürpənə,
çəkinə-çəkinə…
Şükürlər olsun
ulu Tanrıya,
onun əzəli hökmünə!!!
Amin!!!

## AĞLAR

Zirvəsi qadalı dağlar,
Səngərli, odalı[1] dağlar,
Qürurlu, ədalı dağlar.
Qonaqçız, qaçaqsız ağlar.

Nifrət saçan göz xəcalət,
Baş aşağı, üz xəcalət,
Düşmən gəzən düz xəcalət,
İgidsiz, qoçaqsız ağlar.

Binələr alaçıqsızdı,
Tüstüsüzdü, ocaqsızdı,
Qərib könlüm sıcaqsızdı,
Mehri yox, qucaqsız ağlar.

Dar zindana deşik buldum,
Tabut gördüm, beşik bildim,
Evim uçdu, yurdsuz qaldım,
Kalafa oçaqsız ağlar.

## QAL OLMUŞUQ

"Xoşbəxt" olduq[2] bir al səhər,
Ömür sürdük güc bir təhər.
Dostlara biz zəqqum, zəhər,

[1] Təbii kahalar
[2] 28 aprel 1920- ji il səhəri

Düşmənlərə bal olmuşuq.

Müti qulaq asmadıqmı?
Boynumuzu qısmadıqmı?
Qızıl deyib susmadıqmı? –
Vərdiş edib lal olmuşuq.

Yurdum talan, oyuq-oyuq,
Didərginik, çölə uydyq –
Pay-püşk verən ələ uyduq –
Nəfsimizə qul olmuşuq.

Millət olduq, ancaq adsız,
Vətən dedik, qaldıq yurdsuz.
Sabahlara çox ümidsüz,
Biz qal oğlu qal olmuşuq.

YOX

Xəbər göndər, gedən gəlsin,-
Tərki-Vətən edən gəlsin.
Hara gəlsin, nədən gəlsin –
Vətənində urvatı yox.

Yurdda qaldı cürətimiz,
Yardım güddü «qeyrətimiz»,
Kəsdi bizi hiddətimiz –
Ömrün, günün babatı yox.

Dar gün oldu – ac qalan gün,
Yaddan çıxdı öc alan gün.
Tox qarına «ucalan» gün –
Şəkəri bol, nabatı yox.

Yedik, içdik bol-boluna,
«Qoyduq» ömrü öz yoluna,
«Yansalar» da el halına –
Yardımların ovqatı yox.

* * *

Gəlsin! –
Elə bir ölüm ki
Siqlətində
Vətən dura....
Şər dahisi,
Şər Allahı
Təpəgöz,
Qara divin
axırına
yetən dura.
Gəlsin
elə bir ölüm ki –
Gəlməlidi,
gəlsin,
ölümdü, hər nədi…
Gəlsin,

Bizi yaşatmaq üçün
əbədi…

TƏBƏSSÜM GƏRƏK

Dərya kimi təlatümlü
laqqırtı sevincini
neynirəm ki!
Qoy
niyə güldüyünü
bilməyənlərə –
hırıldayanlara qalsın,
Qoy
lığ – lehməli
çəltik ləkində
kecə altında qalmış
boğaz qurbağalar kimi
quruldayanlara qalsın.
Mənə
diz çöküb öpəcəyim,
əsir yurd torpağıma
            tökəcəyim
bir damcı göz yaşında
bərq vuracaq
bir çınqı təbəssüm gərək.
Allah möhlət versin,
ölməyib görək…

DƏRDIMƏ

Dərdim beynimi gəmirir,
Çönüb çiynimi gəmirir,
Yeyir, eynimi gəmirir,
Yaraşam barı dərdimə.

Bir gün qovuşsam yurduma,
Ölüm dayansa ardına,
Atın quşuna, qurduna –
Yetirin yarı dərdimə.

Vuruşam, qanım tökülə,
Adına şanım çəkilə,
Yurdumda qeyrət əkilə,
Əkilə, karı dərdimə.

Oyan, Vətən oğlu, oyan,
Dayan, cərgə-cərgə dayan,
Olmazsa canına qıyan,
Ağlayıb zarı dərdimə.

Vətənsiz kimsə var olmaz,
Özgə dərdlər elcar olmaz.
Ölsəm bu dərdlə, ar olmaz,
Neştər vur, yarı dərdimə.

DALINCA

Nə fatehəm, nə də qulam, –
Qalib olam, məzlum olam…
Qanad açam, qanad çalam,
Doğma yurda gor dalınca.

Çox tablaşdıq, bəsdi səbrə,
Bəsdi uyduq yüz təbirə.
Gedək babam yatan qəbrə,
Namus, qeyrət, ar dalınca.

Bükdü bizi qürbət dəmi,
Qibləmizə həsrət qəmi,
Yurd çeşməsi, yurd zəm – zəmi
O dağlara qar dalınca.

Gedək, qardaş, qaçaq gedək,
Bağlı qapı açaq gedək,
Olaq asi, qaçaq – gedək,
İmdad yeri Tur dalınca.

Bizə, vallah, tay da olmaz,
Ağıçımız – vay da olmaz,
Zülmət gecə – Ay da olmaz,
Hey gedənik kor dalınca.

YOL GEDƏN,
YOLUNA SAĞLIQ!



*Ruha ovsun yerimәz,*
*Gor zülmәti әrimәz…*
*Ağlatsan, әr kirimәz,*
*Güldürsәn, ney doğacaq…*

NEYLƏSIN

Lal dilimdən asılmışam –
Rəqibimə qısılmışam,
Öz əlimlə basılmışam,
Yığvalım, baxtım neyləsin?

Yolum şər, zülmət içində
Ürəyim illət suçunda-
Yır-yığışda, kör-köçündə,
Durumum, vaxtım neyləsin?

SƏHNƏYƏ DƏLI ÇIXMIŞIQ

Söz atından enmişik,
Cin atına minmişik,
Şir, pələngə dönmüşük-
Səhnəyə dəli çıxmışıq.

Vurub tutan «qoçağıq»,
Yarınmağa sıçağıq.
Gen açılan qucağıq-
Təlxəyə vəli çıxmışıq.

Hər nə desən, yapırıq,
Əldən pay-püşk qapırıq,
«Xoşbəxt» günlər tapırıq –
Yaman gülməli çıxmışıq.

Kimik, nəyik? Görürlər,
Yağlı vədlər verirlər,
Başa səbət hörürlər –
Hər sözə «bəli» çıxmışıq.

Manqurt olub getmişik,
Dəbdəbədə itmişik,
Sən demə, lap lütmüşük –
Lüt, üryan – nəli çıxmışıq.

«Sabah», «sabah»-dedilər, –
Doğma yurda gedilər.
Sabahları yedilər –
Biz yoxuq, ölü çıxmışıq.

Söz atından enmişik,
Cin atına minmişik,
Şir, pələngə dönmüşük –
Səhnəyə dəli çıxmışıq.

İBLISƏ QAN AĞLADIR

Bu adam göydən düşüb,
Zəqqumlu meydən düşüb,
Hıqqınıb heydən düşüb –

İblisə qan ağladır.

Göy çəkib, yerdən çıxıb,
Məkrli girdən çıxıb,
Şər oğlu şərdən çıxıb –
İblisə qan ağladır

Fitnə, feldən don biçir,
Dar anladır, gen biçir,
Nəslə, kökə tən biçir –
İblisə qan ağladır.

Doğru söz dilinə yad,
Doğması, elinə yad,
Əkənin belinə yad –
İblisə qan ağladır.

Qaraya ağ dedirdir,
Ölüyə sağ dedirdir,
Qatıra doğ dedirdir –
İblisə qan ağladır.

Adına ad doğulub,
Bədinə od doğulub,
Tanrıya yad doğulub –
İblisə qan ağladır.

Yerdən Göyəcən ünüm,
Hül getsəm, daşa dönüm…
Qənim, hamıya qənim –
İblisə qan ağladır.

## SINMƏDIN

Bu bağın dilbilməz quşumu oldun,
Yurdun qərib düşən daşımı oldun,
Bu qədər duyğusuz, naşımı oldun,
Yatıb bəmdə qaldın, zilə sinmədin??

Bir olub – minə tən, azı duymadın,
Qışın oğlan çağı yazı duymadın,
Əlinə yapışan közü duymadın, –
Dodağa sığınan ələ sinmədin.

Gözünü dörd açıb sayğı mələyi,
Mürgüsüz, çimirsiz qayğı mələyi
Yatıbmı, ölübmü duyğu mələyi,
Andıdım, anışdım, dilə sinmədin?

Bu eşqi dərk edib, saymağın ola,
Özünü bu eşqə qıymağın ola,

Başını bu yolda qoymağın ola,
Gün keçdi, ay ötdü, ilə sinmədin.

Nəfsin daşdan keçər, ay ahıl cocuq,
Talanan qəlb evin viranə, uçuq,
Sevgin, məhəbbətin yarım-yarımçıq –
Əyilib qoxladın, gülə sinmədin.

* * *

İki cahan varlığı gör,
Bir görəndə korluğu gör,
Kor çəkəsi korluğu gör –
Yazıq niyə? Allah alır.

Gözü iti – tox olanda,
Malı, mülkü çox olanda –
Ömrü bitir yox olanda,
Yazıq niyə? Allah alır.

Adil olur, aqil insan –
Yaşaması olmur asan.
Cahildə, canım, nə nöqsan –
Yazıq niyə? Allah alır.

MƏNI

Tut əlimi, gedirəm, tut,
Bir az ləngit, bir az ovut,
Alsa məni soyuq tabut –
Ağılarda nazla məni.

Şər, böhtanla içim yanar,
Heç olmayan suçum yanar,
Vaxtsız gedən köçüm yanar –
Bu köçümdən gözlə məni.

El içində adım bəlli,
Qəlb isidən odum bəlli,
Xain, paxıl yadım bəlli
Sınağında izlə məni.

Xeyir-şərdə öz yerim var,
Xalq nə çəkir, xəbərim var.
Haqq payından cövhərim var –
Bu cövhərlə süslə məni.

SIĞƏ KƏBINDƏN BAHAMI?!

Söz mülkünü söz taladı,
Bəd nəzərli göz taladı,
Dibdən girdi, üz taladı –
Üzü dibindən bahamı?..

Gecə, gündüz mehrə girdi,
Cindar oldu, sehrə girdi,
«Mirzə Səfər» – şerə girdi –
Şeri təbindən bahamı?

Ömrü, günü yolda bitdi,
Bilmədi, nə yola getdi,
Orda, burda siğə etdi,
Siğə kəbindən bahamı?

SULUQ – SULUQ

Dağlar aşdım, gen dərəsiz,
Ov tapmadım baş bərəsiz,
Düyün yondum küşdərəsiz –
Əlim qabar, suluq-suluq.

Küsüb getdin, qalmadı iz,
Barışmağa qoymadın üz.
Adın virdim – gecə, gündüz –
Dilim qabar, suluq-suluq.

Kor zülmətə büründükcə,
Ümidsizlik göründükcə,
Peşman günlər süründükcə,
İlim qabar, suluq-suluq.

…Namərdlərin tələsindən,
Qəriblərin naləsindən
İçim yandı, haləsindən
Çölüm qabar, suluq-suluq…

OLARSAN

Al qumaş geyib əyninə,
Aldanıb namərd küyünə,
Gedirsən kabab iyinə –
Verməzlər, umsuq olarsan.

Düşərsən çətinə, dara,
Bilməzsən gedəsən hara.
Qalıb axtara-axtara,
Tapmazsan, sümsük olarsan.

Əzabın heç verməz aram,
Çatmaram, keşiyində duram,
Yuxuna qatarsan haram,
Mürgünə dümsük olarsan.

Sən bal da olsan pətəkdə,
Urvatsız qalma ətəkdə,
Dözüb sürünmə yedəkdə,

Əllərdə kəmsik olarsan.

### SINANAN KƏS

Nağıl dedim, suç elədim,
Yerdən göyə köç elədim,
Yox almanı üç elədim,
Umsuq oldu inanan kəs.

Özüm də uydum yalana,
Bəzəkli, süslü olana –
Yolçunu atdan salana,
Olmadı bir qınanan kəs…

Dözümüm – sevgim boyudu,
Yarımın bu gün toyudu –
Dünyanın ölüm hayıdı,
Qiyamətlə sınanan kəs.

### GILEY

(Sənə – həssas olana)

Mən sənə dost idim, bir sirdaş idim,
Arxalı, güvəncli xoş dünyan oldum.
Mən sənə yar idim, ər qardaş idim,
Qayğıkeş, yanımcıl bir həyan oldum.

Bəlkə də, görüşdük fürsətli bir gün,
Hər kəsin günahı üzünə durar.
Haqqın qələbəsi – qismətli bir gün –
Namərdin əməli gözünə durar.

Bu dünya fanidi, gəldi-gedərdi,
Qalar üz qarası nəsilbənəsil…
Demə ki, yaxşılıq itər, hədərdi,
Tanınar el içrə əsil, bədəsil.

Haqqı itirənin haqqı itəcək,
Danılmaz sübutdur – Tanrıdan gəlib.
Şah da olsan, bir gün zülmün bitəcək,
Özünü tutacaq sonradan gəlib.

Sapıdıb qaçmağa imkanın olmaz,
Lənət yaxalayar gorda da olsan.
Sonu əfv olunan ərkanın olmaz,
İblisə tapındın – harda da olsan.

* * *

Canavar
        öz biləyini
çeynəyib tökər,
Zəncirli tələdən
        qurtarmaq üçün.
        İgid
        hünəri,

təpəri
bağrından çəkər,
Ayıqlıq,
sayıqlıq
artırmaq üçün…

## KÜSƏR SƏNDƏN

Dost bilib, bağına girdin,
Gül qoxlayıb, meyvə dərdin,
Həmdəm görüb, könül verdin –
Ehmal dolan, küsər səndən.

Paxıl çoxdu, qovan azdı,
Xata-bala sovan azdı.
Dərmanın az, davan azdı,
Əfəl balan küsər səndən.

Dilin dinclik bilməz bir an,
Zəvzədikcə qopar tufan.
Gündən-günə artar cəfan,
Qadan, balan küsər səndən.

Dad yarımçıq olan kəsdən,
Töküldükcə dolan kəsdən,
Nəfəsi də yalan kəsdən,
İnan, yalan küsər səndən.

## ƏLINDƏN

Suya batdın, quru qaldın,
Lilə girdin, duru qaldın,
Toparlandın, yarı qaldın –
Dad yarımçıq, dad, əlindən.

Əsirgəndi dərd əlacın,
Çəkən özün – çatmır gücün.
Dingədamaq qardaş, bacın –
Qayğı gördün yad əlindən.

Haqdan gəlsə, işin rəvan,
Öz-özünlə olmaz davan.
Kimdi səni səndən qovan,
Pilə aldın cod əlindən.

## HANI

Tıncıxır nəfəsin, qoca,
Düşmüsən yala, yamaca.
Təpərin hünərdən uca –
Təntidib çağıran hanı?

Bulanır bulağın nagah,
Sancırmı dalağın nagah?
Döyükür qulağın nagah
Gəl, deyib, bağıran hanı?

Xatadan sovun, ötürün,
Qocanı yara yetirin…
Küt gedir kökən, fətirin,
Xamırı yoğuran hanı?

Girincsən ömür yolunda,
Ahıllıq qeylü-qalında.
Bəsləndin beçə balında,
Qalmaqal doğuran hanı?…

Bu nə sirrdir, nə mübhəmdir,
Nə halətdir, necə dəmdir? –
Sevginə şəkkim, şübhəmdir,
Asilər! – çığıran hanı?

## MƏRDANƏLIK, MƏRDLIK NƏDI

İtik tapanın olsaydı,
Qismət qapanın olsaydı,

Hünər sarpanın olsaydı,
Bəs onda fədakar, qadir,
Mərdanəlik, mərdlik nədir?!

Yol, ərkan uludan qalıb,
Doğru söz «dəlidən» qalıb,
Əl tutmaq Əlidən qalıb,
Nadan, cahil xeyir güdür,
Bilməz səxa, mərdlik nədir.

Kəklik uçar, tara düşər,
Qızıl balıq tora düşər,
Yığan yeməz, gora düşər,
Xəsis bilməz hara gedir,
Mərdanəlik, mərdlik nədir?!

Çay gətirər qızıl alma,
Ya baxtadır nazil alma,
Haqdan qismət fazil olma,
Cəhd edənlər çarıq yırtar
Dünyagirlər nəfsi tutar.

Quyu qazan özü düşər,
Ya da oğlu, qızı düşər,
Biri ötsə, yüzü düşər,
Nə edər özünə edər,
Düz göstərər qismət-qədər.

İtik tapanın olsaydı,
Qismət qapanın olsaydı,
Hünər sarpanın olsaydı,
Bəs onda fədakar, qadir,
Mərdanəlik, mərdlik nədir?!!

## OLAR

Ovçu, ovun aralı,
Atdın, qaçdı yaralı.
Soraqlama haralı –
Qanı qadalı olar.

Düşmə qanın izinə,
Yollar hopar gözünə…
Huş gələndə özünə,
Anı qadalı olar.

Odlu «güllə» gərəkdə, –
Sovuşdurmaz fələk də,
Əzizlənər ürəkdə,
Canı qadalı olar.

## YOXUMDAN ETDIN MƏNI

Kölgənəmmi, yoxsa izin? –
Gözlərimə köçüb gözün.
Pıçıldadın həzin-həzin,
Çox yoxumdan etdin məni.

Uydurardım olmamışı, –
Gec açılıb solmamışı,
Şirin dərdə salmamışı, –
Yox yoxumdan etdin məni.

Nə imiş bilməzdim nalə,
Hamı gülür mən zailə,
Acıyır  hampa sailə –
Ax, yoxumdan etdin məni

Bilməm, nə olar gerisi,
Yandırır yönü bərisi.
Adəməm – buğda hərisi
Tox yoxumdan etdin məni

## ÖLDÜYÜM TÜTƏKDƏN DÜŞÜM

Çoban, saxla bayatını,
Öldüyüm tütəkdən düşüm.
Arzuların gül şəhdini
Yığdığım pətəkdən düşüm.

Haqsız yanan çıraqdayam,
Suçu gizli soraqdayam,
Nişangahda,– qoruqdayam,
Ölümlü tətikdən düşüm.

Yol gedirəm diləyində,

Üzü qara fələyin də.
Ələnirəm ələyində –
Çıxdaşdan, kötəkdən düşüm.

İçimdədi yanğım, odum,
Biganədi doğmam, yadım,
Çərləyibdi köhlən atım –
Yabıdan, yedəkdən düşüm.

Çoban, saxla bayatını,
Öldüyüm tütəkdən düşüm.
Matahların boyatını
Tökdüyüm ətəkdən düşüm.

## DOĞACAQ

Başımda yaz havası,
Yolumda qış davası,
Məni məndən qovası,
Zülmətə ay doğacaq.

Üfüqdə dan – qırmızı,
Sirli güman – qırmızı
Gorda zaman – qırmızı
Sükuta vay doğacaq.

Yersiz coşub gərilmə,
Ayaq altda sərilmə,
Ölmə, ölsən dirilmə,
Ömrünə toy doğacaq.

Ruha ovsun yeriməz,
Gor zülməti əriməz.
Ağlatsan, ər kiriməz,
Güldürsən, ney doğacaq.

Uyma imanı kəmə,
Haqsıza rəhmət demə…
Yol alsa cəhənnəmə,
Hər dürlü zay doğacaq.

## YANAR DAĞIQ, YANAR QALAQ

Tərs düyünəm, açılmaram,
Xırdalanıb, kiçilmərəm.
Günəş olsam, saçılmaram –
Meydan sürsün koryapalaq.

Bəxt aşığım alçı durmaz,
Anadiləm – ovçu vurmaz,
Yar atan daş qılçı qırmaz,
Dərd gətirər qalaq-qalaq.

Kirpiyinlə oxlanmışam,

Yüz sınaqla yoxlanmışam,
Tutiya tək saxlanmışam,
Qoşa gəzək, qutsal olaq.

Ucalıqdan enərəmmi?
Dindirməsən, dinərəmmi?
Söndürməsən, sönərəmmi? –
Yanar dağıq, yanar qalaq!?

## HƏR SÖZÜ SÖZDƏN SEÇIRƏM

Hər sözü sözdən seçirəm,
Hər sözüm ilac – içirəm,
Sözümdə ölüb, köçürəm,
Goruma gedib çatmıram.

Siz məni sözümdən asın,
Bəd baxsam, gözümdən asın,
Dözümü özümdən asın –
Sözümü ucuz tutmuram.

Çaşbaş qaldım, sözə sindim,
Sözlə susdum, sözlə dindim,
Sözdə qalxdım, sözdə endim –
Söz nəhrində ki batmıram!

«Ol»! – «Olan»dan yarandı söz,
Qiyamətə durandı söz,
«Allah», «Əkbər», «Quran»dı söz –
Söz qədrini unutmuram!

## NEYNIRSƏN

Yordu məni həsrətinin möhnəti,
Əldən düşüb, üzülmüşü neynirsən.
Kim istəyər, kim götürər minnəti,
Bəxti qara yazılmışı neynirsən.

Sonu peşman, əsli kilid yolları,
Gedər-gəlməz, paslı kilid yolları,
Sərt aşırım – sisli, kilid yolları –
Gədiklərdə iz olmuşu neynirsən.

Nəfsim toxdu, ustadıma bağlıdı,
Şübhəm yoxdu, ustadıma bağlıdı,
Zikrim çoxdu, ustadıma bağlıdı –
Asi gedən, azılmışı neynirsən.

## ARASINDA

Bu yuxunun varmı həddi,
Bu, qorxudu, yox sərhədi –
Hər nədi, ölümə bənddi,
Qaş ilə göz arasında.

Təkcə dərdmi yad eyləyən,
Oda tutub, od eyləyən,

Zəvzəkləyib bəd eyləyən –
Yalanla düz arasında.

Nə gördü, ağlına batdı,
Yaxşını yamana qatdı, –
Dodaq büzdü, qərar tutdu
Dil ilə söz arasında.

Yatdı uçurum başında,
Sıldırımlı dağ qaşında, –
Meyli qonmaz bir quşun da
Sərt qışla yaz arasında.

Qıyma dərdi naşı bilsin,
«Can-can» deyib, bic-bic gülsün,
Yar eşidib qeyzə gəlsin –
İşvəylə naz arasında.

## MƏNI

Ömür bayramına tay oldun hər gün,
Oxudun, oynadın, bay oldun hər gün.
Vuruldun özünə, zay oldun hər gün,
Təkəbbür təklədi, görmədin məni.

Çiçək olub bitdim yolunun üstə,
Səni gördüm, əsdim çılgın həvəsdə,
Biganə, gözucu baxıb ahəstə,
İyləyib, qoxlayıb dərmədin məni.

Sevgimi bilənlər heyrət eylədi,
Arxanca qımışıb qeybət eylədi,
Qınadı, adına töhmət eylədi,
Sənin ayağına vermədi məni.

Bu, ömür yoludu – düzdü, enişdi,
Dərədi, yamacdı, gah da yoxuşdu,
Allahın da səbri yaman genişdi,
Qalana, bürcünə hörmədi məni.

## YUXUNU YOZANA DANIŞ

Yuxunu yozana danış, –
Yazını pozana danış,
Gorunu qazana danış –
Uzaq mənzil yaxındımı
Heç rəhmətin yoxundumu?

Dəliyə ovsun yetirən,
Cod ipə, sapa yatıran –
Özünü sənə çatıran
Sinənə ox taxandımı,
İlk qarşına çıxandımı?

Batin dərdi suya dedin
Suda çimən Aya dedin, –
Şəfqətini qıya dedin,

Dərdin sözə baxandımı,
Suda çimib çıxandımı?

## AXTARIR

Bu adam kir içində, –
Kir-pasaq, qır içində.
Satılmış dürr içində –
Tablaşan tən axtarır.

Gözündə nur qalmayıb,
Nə əcəb, kor qalmayıb.
Deməyə şər qalmayıb,
Meydanı gen axtarır.

Süzülür sıyıq kimi,
Soxulur qıyıq kimi.
Cücəli toyuq kimi,
Yer eşir, dən axtarır.

İlanın ilan balası,
Atanın talan balası,
Ananın filan balası
Məkruhlu gün axtarır.

## ATAM ANAMDAN BARINIR

Hava bürkü, boğanaqlı,
Köhnə çəhrə, tağalaqlı,
Örkən hörür doğanaqlı –
Nənəm kələfə sarınır.

Çalxalanmır nehrə – tuluq,
Dadsız, duzsuz şorba ılıq,
Yorğun içir, xoşdu qılıq –
Babam nənəmə yarınır.

Bir çəməndir – gül-çiçəkli,
Dolaş, dolan, gəl – çiçəkli,
Qəlbi bahar, bol çiçəkli –
Atam anamdan barınır.

## QALIM

Bu dərd mənim alın yazım,
Çılpaq, barsız olan yazım.
Kimə deyim, hara yozum –
Yasa sinim, toyda gəzim.

Ney səsiyəm – duyğulu,
İlğımmışam – uyğulu,
Gor qazıram qayğılı –
Soyuq, bumbuz heydə gəzim.

Dağ kəlidir – xofsuz qaçır,
Döyüş gəzir, meydan açır,
Qartal uçur, zirvə qucur–
Qürur mehri qıyda gəzim.

## FƏLAKƏTMI, QIYAMƏTMI?

Gün keçsə üz qarasında,
Ətlə dırnaq arasında,
İşıq istər çarasında –
Ömrə bir gün qənimətmi?

İnsan gəlir bircə kərə,
Fanilikdə nəsə görə –
Ömrə günlər hörə-hörə –
Fəzilətmi, qəbahətmi?

Gör – götürdən çıxıb gəldim,
Qaynamadan axıb gəldim
Kör-götüyü yıxıb gəldim –
Xoş niyyətmi, həqarətmi?

Bu gününə zəhmət dilə
Sabahına möhlət dilə,
Keçmişinə rəhmət dilə –
Cəhalətmi, hidayətmi?

Açıb tökmə sirli boğça,
Ləlli boğça, zərli boğça
Bər-bəzəkli, dürlü boğça –
Fəlakətmi, qiyamətmi?

## DEMƏN NAŞÜKÜR

Hərə öz ağlınca edər fərziyyə,
Həsrət çiçək açar, çatmaz ərsəyə
Kimi qurban gedər bircə busəyə –
Busə dənizində çimən naşükür.

Aldadır insanı parlaq amacı,
Gecikmiş qismətlər kəmşirin, acı,
Bir çiçəyə möhtac dağın yamacı –
Çiçək ümmanında çəmən naşükür.

Ölübmü yiyəsi talan ellərin,
Düşmən tapdağında qalan ellərin…
Namusu, qeyrəti filan ellərin
Qana susayanı demən naşükür.

## QALMIŞIQ

Bu dünyada azı çoxa caladıq,
Azdı deyib, yoxdan yoxu taladıq.
Göz doymadı, acı toxa qaladıq –
Aparmağa əli boşda qalmışıq.

Niyə gəldik, nə gətirdik, bilmirik,
Nə axtardıq, nə itirdik, bilmirik.
Nə tapmışdıq, nə götürdük, bilmirik –
Dırmaşırıq, yolda, çaşda qalmışıq.

Dünya bizi yançağına sıxıbdı,
İlmələyib cağlarına taxıbdı,
Tullamağa mancanağa yıxıbdı –
Nə ağılda, nə də huşda qalmışıq.

Bu dünyanın hər üzünü görmüşük,
Gülən gözə göz yaşları vermişik,
Kəsə bilib, sıldırıma girmişik,
Şiş qayada, dimdik qaşda qalmışıq.

Tüləkləri yoluq bilmə, dürüst bax,
Hər rəftarı qılıq bilmə, dürüst bax,
Yaltaqlığı qulluq bilmə, dürüst bax,
Oxşar görüb tam çaş-başda qalmışıq.

## DÜNYA

Dünya! – Güzarından bica,
Dünya! – Yazarından uca,
Dünya! – Yozarından[1] qoca –
«Gəlimli, gedimli dünya».

Gerçəyi yalana oxşar,
Tökülən dolana oxşar,
Əbədi qalana oxşar –
Ölümlü, güdümlü dünya.

Gerçək yeyər, yalan qusar,
Özünü özündən asar,
Fatehi qudurdar, susar –
Zülümlü, udumlu dünya.
İstəyi ədaya möhtac,
Ülfəti qadaya möhtac,
Alimi gədaya möhtac –
Cahilli, nadanlı dünya.

Bir uşaqdır – müdrik, ahıl, –
Acı əməl, şirin nağıl,
Doğulduq, sevildik mağıl –
Cəhlimsiz qədəmli dünya.

## QALACAQ

Süzüldü gözündə, getdi,
Üzüldü özündə, getdi.
Töküldü, izində getdi –
Sabaha sözü qalacaq.

Sözdü – yozar hər kəs necə,
Şirin, acı içə-içə.

[1] Dədə Qorqud

Söz var, ötkün, gözəl yücə –
Çoxundan azı qalacaq

Sözü sözdən almadım ki!
Sözə borclu qalmadım ki??!
Xuduru söz olmadım ki!?. –
Birindən yüzü qalacaq.

Sözü çəkib sınağa, bax,
Meydan verib qınağa, bax,
Pörtən, yanan yanağa bax,
Ar hopsa, izi qalacaq.

## TƏK GƏLƏRƏM

Başına nur tökübsən, –
Sözü qüslə çəkibsən,
Söz zəmisi əkibsən –
Biçəndə tək gələrəm.

Gözlə yapdın təhdidi,
Hansı duyğu əhdidi.
Sözlərin gül şəhdidi –
İçəndə tək gələrəm.

Bəsdi məni qınadın,
Yerli-yersiz sınadın,
Sözdü qoşa qanadın –
Uçanda tək gələrəm.

Söz boyunca süründün,
Bir şəfəq tək göründün,
Zülmətlərə büründün –
Saçanda tək gələrəm.

Necə lətif, incəsən
Tək, bircəsən, məncə, sən.
Söz bağında qönçəsən –
Açanda tək gələrəm.

## OLA

*Aclığım bilinər, tox olan günü,*
*Varlığım parlayar, yox olan günü.*
Müəllif

Bir addım qalıbdı tutam əlindən,

Köçəm, can qurtaram həsrət elindən,
Xainin, bədxahın fitnə-felindən
Açıla başımız, can rahat ola.

Həzz alaq ömürdən, xoş günlər görək,
Görk, inam içində baş-başa verək,
Olaq dağ arxalı, dağlara dirək –
Müştərək yaşanan bir büsat ola.

Yarıdıq! – söyləyək hər keçən günə,
Beləcə başlayaq sabahı yenə,
Can desən, can çatar hər səsə, ünə,
Can əskik olmaz ki, can kasad ola.

**«.........»**

Üç almadan deyirik,
Yoxdan alıb yeyirik,
Özümüzü öyürük –
Biz ağ atlı oğlanıq…

…Barmaq kəsib, duz basdıq,
Alma yeyən div pusduq…
…Baş altında tük yastıq,
Çox səbatlı oğlanıq.

Yar tapırıq oxunan,
Küştü tutub çoxunnan…
Tilsim qırdıq ahınan,
Yel qanadlı oğlanıq.

Niyə? Harda? – soruşduq,
Divlər ilə vuruşduq –
Şahlar ilə yarışdıq –
Toy, büsatlı oğlanıq…

…Üç almadan deyirik,
Yoxdan alıb yeyirik,
Özümüzü öyürük –
Biz ağ atlı oğlanıq.

DÜNYA QAZANDIM

Yoxdan gəlib çıxdım yoxa,
Küştü tutub əlbəyaxa,
Ömür divin yıxa-yıxa,
Bir neçə dünya qazandım.

Biri haqqın çevrəsində,

Şəhidliyin dövrəsində,
İgidliyin zirvəsində –
Çox uca dünya qazandım.

Örnək oldu eşqim, sevgim,
Etiqadım, haqqı dərkim...
Övladlarım xalqa korküm –
Gör necə dünya qazandım.

İki həkim – iki gözüm,
Xidmət üçün xalqa sözüm.
Yeddisi də itməz  izim –
Qosqoca dünya qazandım.

Söyür paxıl, kor yarasa,
Zibil yeyən zır «krısa»[1]
Dəllək, keçəl, rəzil kosa –
Sərbeçə – dünya qazandım.

Yoxdan gəlib çıxdım yoxa,
Küştü tutub əlbəyaxa,
Ömür divin yıxa-yıxa
Bir neçə dünya qazandım.

## ÜŞÜDÜM, ÖRT ÜSTÜMÜ

Hayıma bir səs yetir,
Boğuldum, nəfəs yetir,
Ölməyə həvəs yetir
Özündə gör tüstümü.

Haqsıza bəd baxmışam,
Xalqa düşmən çıxmışam,
Sən demə, heç yoxmuşam –
Qəlbində yıx büstümü.

Ey dili qafil, dedim,
Vətənsiz, səfil dedim,
Özümə qəfil dedim –
Üşüdüm, ört üstümü.

## GÜL DILINDƏ DINDIRMIŞƏM

Qalaylama sözlərini,
Sürmələmə gözlərini,
Səndən üstün yüzlərini
Gül dilində dindirmişəm.

Xəlbir etdinələyimi,
Çıxdaşladın diləyimi...

[1] Siçovul

Çiçəklərə gileyimi
Kəpənəkdən göndərmişəm.

Yaxşı, pisi seçməyəni,
Az günahdan keçməyəni,
Cin atından düşməyəni
Söz mehrinə endirmişəm.

### HARDADI?

Düşüb yolun dümağına,
Gedən yolçu, son hardadı?
Hamı torpaq olan yerdə
Şöhrət harda, şan hardadı?!

Nə çağırdın lal dilində,
Nə apardın kal dilində,
Zəqqum, zəhər, bal – dilində,
Cövhər harda, can hardadı?!

Hamı getsə, gələn olmaz,
Muştuluğu bölən olmaz,
Səndən sonra ölən olmaz –
Zülmət harda, dan hardadı?!

Zülmətimsən, danımsanmı,
Cövhərimsən, şanımsanmı,
Əzəlimsən, sonumsanmı,
Yaddaş harda, qan hardadı?!

### ÖTKÜN

Ömür gerçək bir gümandı,
Tutarsızdı fəhmi, andı.
Bilinməz tərsi, avandı
Hər acısı şərdən ötkün.

Dədə olmaz Qorqud kimi,
Darlıq olmaz tabut kimi –
Xofu basar kabus kimi –
Qara əklil zərdən ötkün.

Alim, gəda – fərq eləməz,
Kəfən nura qərq eləməz,
Min illərlə tərk eləməz –
Savab əməl girdən ötkün.

### OLSUN

Yol gedirik sürü-sürü,
Sürünürük diri-diri.
Ölümmüdür duran yeri –

Aşkarım, ayanım olsun.

Bu yolların canı darda,
Bu yolların sonu harda?
Bu yolların danı orda –
Gündüzü bəyanım olsun.

Çağır məni, yoldan ötən,
Ömrü, günü yolda bitən,
Mətləbə, murada yetən –
Mənim də duyanım olsun.

Yorun məni, yolda qoyun,
Yorğun, qeylü-qalda qoyun,
Bənövşəli kolda qoyun –
Çiçəklər həyanım olsun…

## GƏRƏK

Ları xoruz banlamaz,
Yüz de, nadan anlamaz,
Aqil yersiz danlamaz,
Aqilə uyan gərək.

Gün batar, toran düşər,
Qar yağar, boran düşər.
Girəvə bir an düşər, –
Fürsəti duyan gərək.

Dəryada balıq axtar,
Torunda qalıq axtar,
Ha çalış, qılıq axtar –
Mehrini qıyan gərək.

## XƏBƏRIM YOX

İblisdi – od olubdu,
Qardaşdı – yad olubdu –
Yeziddi – kürd olubdu,
Qanından xəbərim yox.

Qılığı tamam boş dilək,
Nə dostdu, nə xoş dilək,
Şeytandı, sözdə mələk,
Donundan xəbərim yox.

Kinlidi dəvə kimi, –

Güzəmdə güvə kimi,
Basqıdı həvə kimi,
Sonundan xəbərim yox.

## GƏNCLIYIM YAMANCA DÜŞÜB YADIMA

Gəncliyim yamanca düşüb yadıma,
Təpədən dırnağa cəsarət idim.
Hər yerdə çatardı fürsət dadıma,
Zirvə qartalı tək fərasət idim.

Görmürdüm kimsəni özümdən qabaq,
Sayılıb seçilən bir cavan idim.
Sıyrılıb çıxardım sözümdən qabaq,
«Ağadan yuxarı» bir çoban idim.

Qanocağı idim, «vurölüm» idim,
Amma ki paxıllıq mənə yad idi.
Gücsüzü döyənə «dur, gəlim» idim,
Çeviklik hər yerdə qol-qanad idi.

Əlimi istidən soyuğa vurmaz,
Səllimi gəzərdim azad quş kimi.
Kimsə niyəsini anlamaz, sormaz,
Hamıya, hamıya sanki xoş kimi.

Anam, bacım idi gəlinlər, qızlar,
Olmuşdum qüdrətdən qeyrət heykəli.
Paxıllıq etsə də bir qisim azlar,
Çoxların qəlbində heyrət heykəli.

Vuruldum, yanğıdan cızdığım çıxdı,
Ütüldüm içimdə, xoşlandım yaman.
Kiməsə güldüyüm, yozduğum çıxdı,
Gözlərin oxuna tuşlandım yaman.

Yetim quzu kimi fağıra döndüm,
Görən baş bulayıb halıma yandı.
Sindim gül mehrinə, göylərdən endim,
Məni məndən alan zalıma yandım.

## BAŞIMA AND IÇDILƏR

Suda içim göynədi ,
Qüslüm ,suçum göynədi –
Kəmim, heçim göynədi,
Başıma and  içdilər.

Artdı nəfsim, niyyətim,
Alqış dedi heyətim,

Rəva bildi «qeyrətim»
Xoşuma and içdilər.

Doğma, yadı bir bildim,
Lağ elədim , çox güldüm ,
Yaddan çıxdı, kəf gəldim –
Huşuma and içdilər.

Qəlbidə qərar tutdum,
Şana, şöhrətə çatdım,
Hər yetənə daş atdım –
Daşıma and içdilər.

ÇIXAR

Qəriblərin yolu daşlı, –
Önü, sağı, solu daşlı,
Qeylü-qallı halı daşlı,
Goru, qəbri daşa çıxar.

Qərib gəzər qəlbi nəmli,
Olsa belə kefli,dəmli.
Müdam möhtac,ömrü kəmli,
Tarım səbri daşa çıxar

Qərib haqlar kim nə desə,
Həvəs olmaz bir söz kəsə,
Diksinər qəfləti səsə –
Hər təbiri daşa çıxar.

DAĞDAN ATAR

Bu insanın yolu uzun,
Boyu gödək, qolu uzun,
Nəfsi iti, əli uzun –
Niyyət bunu dağdan atar.

Gördüyünə mənim deyər,
Sevər, ömrüm, günüm deyər,
Səcdəgahım, dinim deyər –
«Heyrət» bunu dağdan atar.

Gücsüzlərdən güc istəyər,
Həddi aşar, bac istəyər,
Boş başına tac istəyər –
Hiddət bunu dağdan atar.

OYNAR

Göydə çalsan, yerdə oynar
Yerdə çalsan,nerdə oynar,

Nəyi çalsan, dərdə oynar,
Dərdə çalan necə oynar?

«Misri», «Cəngi»-mərd havası,
«Ayı qandı»-kürd havası,
«Dilqəmi»dir dərd havası
Gündüz çalan gecə oynar

Dəvət etsə hər kim səni,
Oyna,oynat,gör kimsəni,
Oynatsa da bir kimsəni,
Özü çalan bica oynar.

HƏYAT EŞQI  QAÇMADI KI!!!

Necə şirin yuxu tapdım,
Mehrə çəkən yaxı tapdım,
Səni, Səni,  axı tapdım –
Ruhum məndən uçmadı ki?!.

Pirlər yatan məkan gəzdim,
Haqqa çəkən ərkan gəzdim.
Uzun sicim, örkən gəzdim –
Doğanaqdan keçmədi ki !!!

Əcəl öndə pusqu çəkdi,
Qara qorxu basqı çəkdi –
Can şirindi, qısqı çəkdi.
Həyat eşqi qaçmadı ki!!!

NƏYƏ GƏLDIN BILMƏSƏN

Nəyə gəldin – bilməsən,
Niyə öldün – bilməsən,
Nəyi bildin – bilməsən –
Hardan insan olarsan?

Uçan quşla uçmasan,
Haqqa meydan açmasan,
Zülmət yarıb saçmasan –
Cəhalətdə qalarsan.

Nəyə lazım eyitim,
Deməsən, dada yetim…
Güldürməsən bir yetim,
Nə yığmısan – salarsan.

Haqq qapısı açıqdı –
İmarəti uçuqdu,
Yerdən göyə qıcıqdı –
Nəfsin ölsə – bularsan.

Nəhs istək, kimdən gəldi, –
Həvva, Adəmdən gəldi –
İmək, qədəmdən gəldi
Nurdan qanad alarsan.

## UÇURUMLAR DƏRINLƏŞƏR

«İndi» sözü tutub səni,
İndilərə qatıb səni.
Vüsalına çatıb sənin,
Dodağında şirinləşər.

Gəl səmimi danışaq biz,
Dinşəyək biz, anışaq biz,
Yaxın, isti yanaşaq biz –
Yoxsa ara sərinləşər.

Yadırğanıb əl təması,
Qəribsənib dil təması,
Xara uyub gül təması –
Uçurumlar dərinləşər.

Yol üstündə bəklənmirik
Qoşa durub, söykənmirik
Dərdlər ağır – çəkəmmirik –
Qəlbə yara dərin düşər.

Çoxmu çəkər bu soyuqluq,
Yermi qəhət – bir oyuqluq.
Yıxdı bizi kor ayıqlıq –
Ürək sızlar, qəmdə bişər,
Uçurumlar dərinləşər.

## HARDADIR

Payızın çisəkli, sazaqlı bir günündə
gördüm alma çiçəkləyib.

Gənclikdir ömrün çiçək mövsümü,
Barı, bəhəri sonbahardadı.
Gülüzlülərin göyçək mövsümü
Hüsnü sevilən nobahardadı…

Çiçəyi sevir – üzə bilməyən,
Tər yaxasına düzə bilməyən,
Göy ot üstündə gəzə bilməyən! –
Çəmən dünyası görən hardadı?!

Bu çiçək dəli – gec açılıbdı,
Bəxti üzünə gəc açılıbdı,
Olub gülməli – bic açılıbdı.
Bici, bədzatı dərən hardadı?!

Çən-çisək çöküb, yazı almayıb,
Dumana bürünüb, gözü almayıb,
Taleyi verilib, özü almayıb –

Bəxti, taleyi verən hardadı?!

Gecikən çiçək barmı tutacaq?!
Şaxta vuracaq, qarmı tutacaq?!
Sevilən, sevən yarmı tutacaq, –
Korgöz sınağa girən hardadı???

## QUYU TAPDIM, SIRRI DEYƏM

Quyu tapdım, sirri deyəm
Suya baxdım, boy, hardadı?
Susuz qamış bitməz axı,
Neyə baxdım, ney hardadı?

Deyib gülə yer üzündə –
Haqqı varmı kənizin də.
Üzdüm qəmlər dənizində,
Toya baxdım, toy hardadı?

Nənəm nəmini[1] aradı –
Cəhrə əmələ yarıdı,
Əlçim-əlçim yun daradı,
İyə baxdım, iy hardadı?

Nəsib oldum xoşbəxt günə
Bilmədim heç dərd nəmənə…
Gor qazdılar Yerdə mənə,
Göyə baxdım, Göy hardadı?

## HƏR SUDAN IÇMƏZ DƏLILƏR

Dəliyə yel ver – deyiblər,
Əlinə bel ver – deyiblər.
Oturma, durma dəliynən,
Nə sirr, nə dil ver deyiblər

Dəlilər heç naz anlamaz,
Zarafatı düz anlamaz.
Dəlilər qırmızı sevər,
Qara, yaşıl, boz anlamaz.

Suçunu seçməz dəlilər,
Günahdan keçməz dəlilər,
Ölsə də susuzluqdan,
Hər sudan içməz dəlilər.

## GECIKDIM

Can atdım sənə çatam,
İmana, dinə çatam,
Yetərli günə çatam, –
Gözlərində gecikdim.

---

[1] Keçmiş dam evlərində dörd künc
olardı. Həmin künclərə nəmi deyərdilər.

Ruhum qondu üzünə,
Çatdım güllü yazına,
Uydum «tutar» sözünə –
Sözlərində  gecikdim.

Öz-özünü süslədin,
Naz içində bəslədin,
Dağlarından səslədin,
Düzlərində gecikdim.

İşığına büründüm,
Zülmətində göründüm,
Kölgən olub süründüm,
İzlərində gecikdim.

## SAXLANIR

Uğurdan nəhsə düşdün,
Ovsunlu səsə düşdün –
Dadlı həvəsə düşdün,
Həvəs yolun bağlanır.

Qudurdunmu azında?-
Nə gördün şah qızında.
Şah qızının ağzında
Gürzə, ilan saxlanır.

Gəlməzdi heç eyninə
İşin düşər düyünə.
Gəldin kabab iyinə,
Gördün ürək dağlanır.

## QALMAZ,  ATAM!

Sözün məni tutan yerdə –
Söz bağrıma batan yerdə,
Xeyri şərə qatan yerdə
Bin-bərəkət olmaz, atam!

Ruhun gələr, lal səs elər,
Həm ağladar, həm bəhs elər.
Çor deyənə can desələr,
Nağıl-həkət olmaz, atam!

Düz hədəfdə saxlanan kəs,
Hər üzünə yoxlanan kəs,
Şər, böhtanla oxlanan kəs
Dağ da olsa, qalmaz, atam!

## MƏNIMDI

Çiçəkləri şaxta vurdu bilmədin,
Çiçəklərin şivəninə gəlmədin,
Çiçəklərin göz yaşını silmədin –
Çiçəklərin çiçək dərdi mənimdi.

Nəmli gözdən kədər uçdu, sevindim –
Gül üzündən sevinc saçdı, sevindim,
Pardaxlandı, qönçə açdı, sevindim,
Göyçəklərin göyçək dərdi mənimdi.

Göydə hər kəs ulduzunu tanıyır,
Seyrə dalır, öz bəxtini sınayır…
Çılpaq budaq yarpaqları qınayır –
Budaqların ləçək dərdi mənimdi.

## GÜLƏ -GÜLƏ

Dərdi çəkmə birnəfəsə,
Salınsan da dar qəfəsə,
Düşsən belə son həvəsə,
Bax ölümə gülə-gülə.

Gələn gedər – hökmü Xuda!
Kimin qalar gör arxada.
Olsan belə sən yuxuda,
Bax ölümə gülə-gülə.

Yaxşı övlad qeyrətindir,
Səndən qalan sərvətindir,
Özgə hər şey heyrətindir –
Bax ölümə gülə-gülə.

Ada qoşma şərik heç nə,
Bəsləmə şöhrətə təşnə,
Ömür fani – yüz nə, beş nə
Bax ölümə gülə-gülə.

Gedən gəlməz, bil,bir daha,
İnam saxla hər sabaha,
Ağlamaq – üsyan Allaha-
Bax ölümə gülə-gülə.

## ŞƏRINƏ DÜŞƏR BATI

Azımızdan al məni,
Duzumuzdan al məni,
Düzümüzdən al məni –
Düz bazarı kasaddı.

Azdı, yaza bilmirəm,

Sözdü, poza bilmirəm,
Bozdu, yoza bilmirəm –
Kim nə aldı, nə satdı

Qürbət bizi yıxıbdı,
Pencər kimi sıxıbdı,
Dərdə nişan taxıbdı –
Ürəyimiz pas atdı.

Şər Allahı, şər Batı[1]
Şərinə düşər Batı.
Görən yoxdu alt qatı –
Üstüm alta las yatdı.

[1] Qərb

BIR GECƏLIK MÖHLƏT

*Şair:*
Ölüm, get,sabaha qədər,
Nə var ki, sabah gələrsən.
Görməli çoxlu işim var,
Görülməz, namərd olarsan.

*Ölüm:*
Altmış il səllimi gəzdin.
Gecəlik möhlət istədin.
Yola, izə hey qığ düzdün
Çırtma vurdun, bəxt pislədin.

**OLMASIN**

Yol gedən, yoluna sağlıq –
Xoş ovqat, halına sağlıq
Gül əkən, gülünə sağlıq –
Vədəsiz xəzan olmasın.

Başında tufan qoparar,
Can çəkər, canın ürpərər –
Haqq yolun haqqa aparar,
Tərsinə yozan olmasın.

Günaha batdığın yerdə,
Savaba qatdığın yerdə,
Vüsala çatdığın yerdə,
Gorunu qazan olmasın.

Bu xata əlindən ötdü,
Söz oldu, dilindən ötdü,
Ya baxta, ölümdən ötdü –
Yazıldı, pozan olmasın.

OLDU

İrişkən üzündən həya qaçandan,
Gəzərgi gözlərin yorulmaz oldu.
Çox ucuz, çox kəsə yollara düşdün,
Bulanıq istəklər durulmaz oldu.

Ümid piyaləsini çaldın daşlara,
Sükutun mehrini saldın daşlara,
Sözsüz nəğmə kimi doldun daşlara –
Avazın, ahəngin sorulmaz oldu.

Qarmısan, buzmusan – dondurub kəsdin,
Səmum yeli kimi yandırıb kəsdin,
Bilmədin nə imiş məramın, qəsdin –
Sevənin, qatilin darılmaz oldu.

## NƏ GÜNAHI

Urvalığı yel apardı,
Xəmir sıvıx, əl apardı,
Yaydı, yapdı, kül apardı –
Küt gedənin nə günahı.

Boynu sınmış çiçəyə bax,
Ləkə düşmüş ləçəyə bax,
Yarı çılpaq göyçəyə bax –
Lüt güdənin nə günahı.

Çoban yatdı, yaylım tezdi,
Arxac açıq, sürü təzdi –
Yalquzaq canavar sezdi –
Ət güdənin nə günahı.

Elat əhli həddi aşdı,
Qoruqçular haya qaçdı,
Göy zəmiyə naxır düşdü –
Ot güdənin nə günahı.

Yalan, yaman sürəkləndi,
Alqış göyə dirəkləndi,
Bivec rəhbər ürəkləndi –
Mədh güdənin nə günahı.

* * *

Qulaq kəsildiyim
süni şəlaləsində
        parkın –
Suların
bir ahəngli
monoton səsində
Mehri-ülfətdən
yaranmış
gah doğma,
gah qərib
nəfəsində
bir neçə saatlıq
tapıram
rahatlığımı, dincliyimi –
Tükənməyə doğru
yol almış
ahıllığımda
itirmək istəmədiyim
dəliqanlı
      gəncliyimi.

## ÇIXDI

Hökm oldu uçar quşa,
Quş qondu keçəl başa,
Keçəl düşdü təlaşa –

Taxta çarıqlı çıxdı.

Yaman xiffət çəkdilər,
Axır, tədbir tökdülər;
Başına tük əkdilər,
Saçı süraylı çıxdı.

Çoxdan aza dartdılar,
Qışdan yaza dartdılar,
Yayda buza dartdılar,
Başı sarıqlı çıxdı.

Keçəl evli eynidi,
Oğlu, qızı böyüdü,
Hər yetənə təyidi –
Zatı qırıqlı çıxdı.

## QƏDƏR, QISMƏT DÜZ EYLƏR

Bürcün deyən yan keçdi,
Ulduzun göydə uçdu –
Çatırıb Ayı qucdu –
Ay da sənə naz eylər.

Ağlına gəldi hardan
Sivişdin, çıxdın dardan
Günahın gizli yardan –
Yarın bilsə, söz eylər.

Məzlum-məzlum ağladın,
Yalan basıb bağladın,
Yar qəlbini dağladın –
Dostun gülüb göz eylər.

Yalan demək vərdişin
Yerli, yersiz gərdişin
Yıxsa səni bu işin –
Qədər, qismət düz eylər.

## QAN ÇILƏNƏR

Məni lığdan, lildən qoru,
Qor qarışıq küldən qoru,
Dəliqanlı əldən qoru –
Peşkəşinə qan çilənər.

Candan bezən canı üzər,
Yola, izə zülum düzər,
«Vurölüm»lər qana gəzər –
Hər işinə qan çilənər.

Buqələmun dona həris,
Yan çəkənlər yana həris,
Qanağladan qana həris –
Gərdişinə qan çilənər.

SƏNƏ

Dəli dərviş, nə gəzirsən,
Pasibanmı çöllər sənə?!
Tapmısanmı umduğunu,
Yetiribmi illər sənə?!

Bağlanıb əhli-ürfana,
Sinə gərdin hər tufana…
Heyran olub gül səfana
Qısıb mehrin güllər sənə?!

Müşkül haqqa gedən yollar,
Ağır zəhmət güdən yollar,
Canın, gözün, didən yollar
Göz yaşından göllər sənə?!

İtirmisən yar-yoldaşı,
Götürdünmü zülmət daşı?!
Başın altda əhləd daşı,
Layla deyər dillər sənə.

Bu səhralar gülüstanmı! –
Şamamalı tər bostanmı,
Ustadından, ya dostdanmı,
Həsəd çəkir ellər sənə?

MAYAN TURŞDU, ZATIN QIRIQ

Haqq itirən, qədir bilməz,
Qaşqabaqlı, üzü gülməz,
Davakarım sülhə gəlməz,
Şəkkə düşən, şəkk nökəri,
Yalqızlığın tək nökəri.

Yaşayırsan kor həvəslə,
Xoşdan uzaq, zor həvəslə,
Öz canını sən ha bəslə,
Umu-küsün artıq-artıq,
Savab heybən  yırtıq- yırtıq.

Əl yumulu, dilin kəkə –
Nifrin deyə, zəhlə tökə,
Davranışın əkə-bikə,
Xoşlamadın gör-götürü,
Kiritmədin bir yetimi.

Başa düşən daşmısanmı,
Şərə uçan quşmusanmı,
Qıcqırmısan, daşmısanmı?-
Mayan turşdu, zatın qırıq,
Qatanqazsan, qatın qırıq.

ÇATMAZ

Yat, bala, yuxun gələr –
Gecələr yoxun gələr,

Uzağın, yaxın gələr –
Yetiyə əlin çatmaz.

Bu yuxu yaman şirin,
Röyalı zaman şirin,
Sapıtma güman şirin –
Ötəyə əlin çatmaz.

Yaşadın, dilin bağlı,
Qədərə belin bağlı,
Ov qaçır, qolun bağlı,
Tətiyə əlin çatmaz.

## BILƏR

Sanma əməl gedər zaya,
Tut balığı, at dəryaya,
Baxma itən haqqı-saya –
Balıq bilməz, Xalıq bilər.

Su paklıqdır – qüslə fərzdir
Etirafdır, haqqa ərzdir.
Bir ayindir – bir görkəzdir –
Bulaq bilməz, Xalıq bilər.

Haqq yolunu doğru tutsan,
Yol düzənə gedib çatsan,
Nur dirəyə üzü sürtsən –
Qılıq bilməz, Xalıq bilər.

İlk görüşdən yadın – sevgi,
İlk təmasdan odun – sevgi –
Qadın ana, qadın sevgi,
Talaq bilməz, Xalıq bilər.

## VƏRDIŞLI DONOSÇU

Bir şey çıxmaz ki
bu gülüşün içindən???
Sarsılmaz ki
iqtidar
dəlilərin suçundan???

## ÇIXA

Bu gecə aylı ola,
Sovqatlı, paylı ola, –
Büsatlı, toylu ola,
Gərdəkdən gəlin çıxa.

Dodaq, yanaq boyalı,
Göydə gəzə xəyalı.
Hamı deyə həyalı –
Yaşmaqdan dili çıxa.

Telləri yan daraya,
Ömrə, günə yaraya,

Dubayda iş araya,
Hər şeydən əli çıxa.

## YIXILANIN DE, KIMI VAR!?

Hər ağacın öz  kölgəsi
Hər meyvənin bir  tamı var…
Hər düz yolun dar döngəsi,
Hər istəyin öz kamı var.

Qaçan duymaz sürünəni, –
Öz içinə bürünəni.
Bütöv bilmə görünəni –
Kəsiri var, həm tamı var

Ortalıqda olana bax,
Əl uzadan, qalana bax,
Boş qablara, dolana bax –
Hamının payı, hamı var.

Nəfsin səni daşdan atar,
Ayaq durar, başdan atar,
Bəd ilişər, xoşdan atar –
Yıxılanın de, kimi var!?

## DÜNYA DÜZƏLMIR

Gecə nəğmə oxuma,
Haram qatma yuxuma.
Cavab axtar ahıma!
– Ahla dünya düzəlmir.

Haqqa tapın düzünən,
Gəl oynama gözünən,
Yalan, gerçək sözünən –
Gahla dünya düzəlmir.

Göstərmə güc nökərə,
Güvənmə ac nökərə,
Axtarma tac nökərə –
Şahla dünya düzəlmir.

## MƏN ÖZÜMƏ YADMIYAM

Şamana, ovsuna bax,
Suyuna, tasına bax.
Söz kəsən «sus»una bax
Mən özümə yadmıyam!?

Suda içim göynədi,
Qüslüm, suçum göynədi,
Yoxda heçim göynədi –
Mən özümə yadmıyam!?

Nəfsimə od tökmüşəm,
Yanıb, ağrı çəkmişəm,
Öz dibimə çökmüşəm –
Mən özümə yadmıyam!?

## KEÇƏRI

Min bir ah çək, dərd azalmaz,
Mürgüsü ahdan keçəri.
Tək bir çiçəklə yaz olmaz,
Hər şirin gahdan keçəri.

Yol üstündə durana bax,
Boynunu kəc burana bax,
Məni məndən sorana bax,
Cavab nagahdan keçəri.

Əyilibdi bar budağı,
Sındıracaq yar budağı,
Neştər götür, yar bu dağı –
Hər günü «bah»dan keçəri.

## SƏNI

O dünyanın nə dərdi var –
Nə satqını, nə mərdi var.
Nə oğrusu, nə «gördü» var –
Çaşdırmasın sözüm səni.

Gorda insan girsiz olar,
Xoş əməlsiz – fərsiz olar,
Yiyəsiz, yersiz olar –
Gərək tapım özüm səni.

Şah da, qul da bir üzdədi, –
Nə tacdadı, nə sözdədi,
Qərəz bilməz qərəzdədi –
Tut gətirsin izim səni.

## AĞLAYIM

Ölsəm, məni qışda basdır,
Çapıb daşı, daşda basdır,
Bir az yarı huşda basdır,
Dərdimi özüm  ağlayım.

Həvəsim başımda qalsın,
Nəfəsim döşümdə qalsın
Ölümüm huşumda qalsın,
Diriyə yozum, ağlayım.

Boğsa səni acı qəhər,
Yolux məni axşam, səhər…
Ağrıma bir az, bir təhər
İçimdə dözüm, ağlayım.

Ağlayım boşalmaq üçün,
Sərtlikdən yumşalmaq üçün,
Tanrıya xoş olmaq üçün
Göylərdə gəzim, ağlayım.

## QARA QUL

Mürgü olub kirpiyindən asıldım,
Qoynundakı gül mehrinə qısıldım,
Ərən idim, ovsununda basıldım –
Yaz adımı dastanına: «Qara qul».

Köhlən atım nal salıbdı gədikdə,
Yollar daşlı, axsaq yabım yedəkdə.
Qara baxtım ayıq durub güdükdə –
Hara qaçsın, hara getsin, hara, qul.

Haqqın yolu həm uzaqdı, həm yaxın,
Uveysi var, Yunusu var – bir baxın
Mürşidlərin pişvazına siz çıxın –
Dönməyəcək, çəkilsə də dara qul.

Qalmaya kaş gödək ömrüm yarıda,
Tanrı özü nəzər sala, yarıda.
Mehrə çəkə bədhövsələ yarı da,
Yoxsa gedər çox nigaran gora qul.

* * *

Yağış yağır, ruhum çimir,
Günahlarım qüslə durub.
Gözdən uçub mürgü, çimir,
Əzablara qala qurub.

Yağış yağır, təmizlənir
Səma,torpaq – ruhum kimi.
Yağış yağır, əzizlənir
Fikrim, zikrim- serim kimi.

## MEHRİM ILƏ ÜLFƏTIN YOX

Vardım sənin bostanına,
Qarpızı kal, yemişi talx.
Nə qoruq var, nə qoruqçu,
Girdabından giryanla qalx.

Qürur şəhdin  talan oldu,
Damaqlarda qalan oldu,
Bundan sonra olan oldu –
İtən ismət, heyrətə bax.

Dadılası tam da yoxdu,
İştahlarda kam da yoxdu,
Yıxılmamış dam da yoxdu –
Sən özünü yüz oda yax.

Cövründə doğmalıq gördüm,
Sehrində ağalıq gördüm,
Qəhrində yağmalıq gördüm –
Mehrim ilə ülfətin yox…

## QIRDIRMAYIN GÜLÜ MƏNƏ

Bağa girdim meh üstündə,
Gülə sindim şeh üstündə
Heyrətlərim «pəh» üstündə –
Dərdirməyin gülü mənə.

Elə bilib var örtüyü,
Yaddan çıxıb tor örtüyü,
Gül ləçəyi – yar örtüyü,
Sərdirməyin gülü mənə.

Bahar ötüb, ömrü bitib,
Yay sovuşub, xəzan yetib,
Budaqlanıb, nizam itib-
Qırdırmayın gülü mənə.

## GƏLDI

Əngəl açdın özünə,
Yad oldun öz izinə,
Sığındın düz sözünə –
Səbrin əliboş gəldi.

Suçunu böyütdülər,
Mindilər, səyirtdilər,
Çaldılar, ney etdilər –
Özünə də xoş gəldi.

Saydılar quşa səni,
Basdılar daşa səni,
Çəkdilər başa səni,
İblisə qaqaş gəldi.

## OLAR

Sən qul oldun acgöz nəfsə,
Haqqı yozdun müdam tərsə…
Səndə zərrə insaf görsə,
İblis dönüb mömin olar.

Xəbərin yox kimliyindən,
Çiyliyindən, kəmliyindən,
Harınlığın cəmliyindən
Dişi qanlı dəmin olar.

Acgöz insan – boz canavar,
Gödən yırtar, tamah qovar,
Gözdən qapar, didə ovar –
Heyrət boğan qəmin olar.

Qırx dilin var, qırx da üzün,
Nəfsin acdı, doymaz gözün,

Yox, utansın oğlun, qızın,
Tanıyan kəs əmin olar.

### YORĞUN ÇIXDIQ DÜMDÜZ YOLA

Yollar yollara qovuşdu –
Gah enişdi, gah yoxuşdu,
Hər xata, bəla sovuşdu,
Yorğun çıxdıq dümdüz yola.

Yollar bizi necə yordu,
Saldı yaman gücə, yordu,
Yordu, amma bica yordu –
Yorğun çıxdıq dümdüz yola.

Nələr itdi yol boyunca,
Nələr çəkdik iz qoyunca,
Minə dözdük, yüz sayınca,
Yorğun çıxdıq dümdüz yola,

Düz də barı bir düz ola,
İz saxlaya, bir iz ola,
Hər nə olsa, bariz ola –
Deyək, baxdıq dümdüz yola.

### GENDI BU GOR, QOY MƏNI

Gendi bu gor, qoy məni,
Qurda-quşa qıy məni.
Neyniyəsən tay məni –
Yarıdanın çoxalar.

Qoyma qəbrim açılsın,
Qürbət ömrüm puç olsun,
Ağlayana suç olsun –
Gorda evim yıxılar.

Altımda ləl daşım yox,
Tac soraqlı quşum yox,
Kötük üstə başım yox,
Nəyə yansın paxıllar.

Yandırmısan, yaxmısan,
Neçə evlər yıxmısan,
Sudan quru çıxmısan –
Yaş adına baxırlar.

### ÜMIDLƏRƏ BƏLƏNIRƏM

Qızıl dolu sandıq üstə
Oturmuşam, dilənirəm…
Heç nəyim yox, ümid istə,
Ümidlərə bələnirəm.

Yolum dimdik, çətin, yoxuş,
Qarşı yalım aşılarmı?!
Nabələdəm, kordan soruş,
Mənə uğur tuş olarmı???

Bir gün səni görmərəmsə,
Sinəm üstə ocaq yanar.
Gözlə səfa sürmərəmsə,
Qolum düşər, qucaq yanar.

## CAN IÇINDƏ

Halın necə keçir gecə,
Yanmaq bica, olur necə!!!
Sənsən öncə, ulu, yücə –
Sənə uydum dan içində,
Haqqı duydum can içində.

Eşqim səndə etdi binə,
Saflıq verdi dərdin mənə,
Sənsən zikrim – dönə-dönə,
Sənə uydum dan içində,
Haqqı duydum can içində.

Yaranmısan hürrü Xuda,
Aşkar, gizli – sirri Xuda,
Mən səndəyəm, sən yuxuda,
Sənə uydum dan içində,
Haqqı duydum can içində.

## ÇIXAR

Balıqdırmı qıcov çayda?
Ələ gəlməz – girov çayda,
Ha əlləşib, ha qov çayda,
Çox hürkəkdi, əldən çıxar.

Şirin dadar acı tamı,
Həsəd çəkər, umar hamı.
Abad eylər uçqun damı,
Gəlhagəlli-«gəl»dən çıxar.

Kim ki görür, məmnun qalır,
Bağrı yanır, qanla dolur,
Yerişi də canlar alır,
Bir sonadır, göldən çıxar.

Can çəkəndi, saxlar səni,
Fərari tək yoxlar səni.
Dar ayaqda haxlar səni,
Gözdən girər, dildən çıxar.

Haqq yaradıb qan ocağı,
Zülmət qovan dan ocağı,
Şərəf, şöhrət, şan ocağı
Göy qüdrəti - seldən çıxar.

## OLACAQ

Tində duran, yolun hanı?
Haqqa sığın, düz yol tanı,
Çək ardınca el-obanı,
Tanrı sənə yar olacaq.

Xeyrə olsun hər bir yapın,
Acıq qalsın tövbə qapın,
Haqqı düşün, haqqa tapın –
Ruzi haqdan var olacaq.

Qeybət edib, yalan demə,
Həsəd çəkib, filan demə,
Olmamışa olan, demə –
Əzab evi dar olacaq.

Qan yatırdıb, qan sovuşdur,
Nə ara vur, nə qarışdır,
Küsənləri sən barışdır
Günahkara ar olacaq.

## HƏR YAN MƏHBƏS, YIYƏLI

Gecə gördüm uçuram,
Qanadlarım yorulmuş.
Geniş meydan açıram –
Lələklərim qırılmış.

Səma tutqun, Ay da yox,
Yerdən uzaq, taqətsiz…
Bir ulduz da göydə yox.
Ümid itib hacətsiz…

Hey uçuram, son gücə,
Yer də yoxdu qonmağa.
Ölüm gəlmir heç vecə –
Xoş gün də yox anmağa.

Xiffət deyil Yer mənə –
Hər yan məhbəs – yiyəli…
Səmaları ver mənə,
Yolu ağ – haqq qayəli.

## YOXDAN GƏLIB, YOXA GEDƏN!

Yoxdan gəlib, yoxa gedən,
Ağlamısan gələndə də,
Ağlayırsan gedəndə də.
Elə bil ki gəlməmisən,
Elə bil ki ölməmisən…

Danışırsan qəhər boğur,
Üz-gözündən zəhər yağır.
Düşünürsən fağır-fağır:
Körpə olub gələn yazıq,
Vaxtı çatıb ölən yazıq…

…Qara çuxan duran vaxtı
Hara getdin, uğur çıxdı,
Bəyənmədin qızıl baxtı,
Şahlıq umdun, fəqət işdə,
Gileyləndin hər gedişdə…

Yoxdan gəlib, yoxa gedən,
Ağlamısan gələndə də
Ağlayırsan gedəndə də.
Elə bil ki gəlməmisən,
Elə bil ki ölməmisən…

## ÖYRƏNCƏLI

Mənə gülmə, gül özünə,
Ayıl, bala, gəl özünə.
Tüpürərlər gül üzünə,
Yoxsa üzün öyrəncəli?!

Hardan gəldin, harda durdun,
Məkan seçib, yuva qürdün,
Sərçəni gözündən «vurdun»
Yava gözün öyrəncəli.

Kimdi yalan dərdə qalan,
Aldanışdı mərdə qalan.
Yüz də and iç, oda qalan
Oğlun, qızın öyrəncəli.

## BU BULAQ EŞQƏ BƏNZƏR

Bu bulaq eşqim kimi,
Axar, axar, tükənməz.
Qış isti, yayda soyuq
Axar, axar, tükənməz.

Üstündə çal-çağırı,
Bir tutar şah, fağırı,
Haqqa mustaq uğuru
Axar, axar, tükənməz.

Safdı, ləkə götürməz,
Dosta yara ötürməz,
Üz qarası gətirməz,
Axar, axar, tükənməz.

Nəğməsi xoşdan keçər,
Dinləyən başdan keçər,
Damcısı daşdan keçər,
Axar, axar, tükənməz.

ÖMÜRDƏN GILEY

Zamana bax, vaxta bax,
Üzü qara baxta bax,
Yaşayıram baxtabaxt –
Tale üzə gülərmi?

Bir ləl idim, daşa, quma qarışdım,
Ələdilər, çıxdaş edib atdılar.
Mərdi yıxan taleyimlə barışdım,
Məni aciz, tək, birəlli tutdular.

Səhv düşübdü böyük, kiçik yerləri,
Hünərinə xələl gəlib nər kəsin.
Öz gözündə seçən yoxdu tirləri,
Qıl görürlər gözlərində hər kəsin.

Oğru, saxta halallıqdan dərs deyir,
Sırtıq, sürtük keçmişinə baxmadan.
Yaxşı bilir, əməlinə tərs deyir,
Daşdan keçən vərdişindən çıxmadan.

Qeyrət atıb, kürsü tutub fırlanır,
Yağlı dili yavanlığa göndərir.
Buqələmun don dəyişir, hərlənir,
Rəngdən rəngə çevik görkəm döndərir.

Hərisləşər, harınlaşar, çatlayar,
Öz içində boğulanlar çox olub.
Paxıllıqdan, hikkəsindən partlayar,
Haramlıqdan doğulanlar çox olub.

Yazma dedim, qorx sabahın şərindən,
Dovşan qovub, arabaynan tuturlar.
Qurtarmamış nadanların birindən,
Başqasının zibilinə batırlar.

QİSMƏTİMƏ QAİL OLDUM

Qərib quşam, Sənə qondum,
Sənmi oldun ilkin andım –
Korun-korun oda yandım,
Zail oldum, sail oldum...

Külli idim, tək-tək itdim,
Zərrə-zərrə səbrə yetdim –
Nəğmə oldum, dildə ötdüm –
Öz sehrimə mail oldum...

Min illərlə ritmik düşən
Damcı oldum, qata deşən.
Xırman bilib, saldım heşən –
Qismətimə qail oldum

Oxu məni sıcaq-sıcaq –
Ehtiramım qucaq-qucaq...

Qəlbimdə alışsın ocaq –
Məqsədimə nail oldum...

## ARAMIZDA XƏNCƏR – İSMƏTİN YÜKÜ

"Sən məni bir dəfə başa düşmədin"

Sənə bağlı tellər qırılan deyil,
Tatıma çəksə də, qismətin yükü.
Çəkdiyim ağrılar sorulan deyil,
Bir gor əzabıdır həsrətin yükü.

Dərdimi deməyə quyu tapmıram,
Quyuya düşürəm, suyu tapmıram,
Səndə itirdiyim payı taqmıram –
Yağmurlu zülmətdir nismətin yükü...

Adım dolaşmaqda dərbədər eldə,
Yarımçıq dastanam ağızda, dildə,
Məndən həyalandı utancaq gül də --
Aramızda xəncər – ismətin yükü...

Dayansan dünyanın o başında sən,
Çovğunlu ömrümün sərt qışında sən,
Yanında görərsən bu yaşında sən –
Ərşada qanaddır rüsxətin yükü...

## MƏNƏ TAB GƏTİR

"Sən məni bir dəfə başa düşmədin"

Dünyanın görünməz, aciz adamı,
Biyaban üzgünü, vecsiz adamı,
Utancaq, sadəlövh, gücsüz adamı –
Mənə qanad verən bircə söz tetir,
Mənə dözüm gətir, mənə tab gətir.

Dərdi çəkmək asan, qanan yanında,
İçindən üzülüb, sınam yanında,
Gizlicə göynəyib – danan yanında,
Yüz günah batili bir savab yetir,
Mənə dözüm gətir, mənə tab gətir.

Çağırdım, fəryadım sənə yetmədi
Uyuyub, dincəlib, qərar tutmadı,
Xəyalın gözümdən uçub getmədi –
"Sarıtel"üstündə bir mizrab götür,
Mənə dözüm gətir, mənə tab gətir.

Dünyanın görünməz, şirin adamı,
Üzdən dayaz olan, dərin adamı,
Yanımsız, qayğısız, sərin adamı –
Bir az istək gətir, bir az od götür,
Mənə dözüm gətir, mənə tab gətir...

## SÜBH DUASI

Zülmət çöküb, dan ağarır,
Üfüqdə al don ağarır,
Şəfəqlərdə qan ağarır
Vaxtdır, oxu sübh[1] duası –
Hər ürəkdən şər qovası.

Haqq qapısı açıq andı
Zülmət boğan bir divandı:
Ayırd edər tərs – avandı,
Vaxtdır, oxu sübh duası –
Hər ürəkdən şər qovası.

## SUÇUM

Dərviş olub, gəzən mənəm,
Çərxi rasta düzən mənəm,
Haqdan səda üzən mənəm,
Haqq sədamı aldı suçum.

Kimsə duymaz, kimsə bilməz,
Bəyan olmaz, dilə gəlməz, –
Qaşqabaqlı, üzü gülməz,
Əzəl gündən laldı suçum.

Qəlbə güvə, yanan qordur,
Ölümsüzdü – işi zordur.
Qulağı kar, gözü kordur –
Yetişməyib, kaldı suçum.

Məna içdim damla-damla,
İşim yoxdu hər adamla,
Cəngə girdim dağ qadamla,
Qalxanımı saldı suçum.

Savabları bir-bir udur,
Dilim gödək – bais odur,
Hopub cana, zəhər dadır,
Öz balamdı, baldı suçum.

Mənlə gəzər bağrıbadaş,
Ortağımdı – doğma qardaş.
Hökmü – Xuda, sirli sirdaş,
Qiyamətə qaldı suçum.

---

[1] Sübh surəsi
[Mədinədə nazil olmuşdur, beş ayədir]
Bismillahirrəhmanirrəhim!
(Ya Peyğəmbər!) De ki: «Pənah aparıram sübhün Rəbbinə!
2Yaratdıqlarının (insanların,canilərin, vəhşi heyvanların) şərindən;
3Zülmətə bürünməkdə olan gecənin (və ya batan ayın,
ziyası sönən ulduzların) şərindən;
4(Ovsun oxuyub) düyünlərə üfürən (yaxud cadu edib
iplərə düyün vuran) qadınların şərindən;
5Və bir də paxılın şərindən»

Hər yerdə dedim sözümü,
Qorxum yox, qırpam gözümü.
Neynim, təkcə, tək özümü,
Öz gözümdən saldı suçum.

## YOLLAR MƏNI HARA ÇƏKIR!?

Yollar məni hara çəkir!?
Ulduzların seyrindəyəm.
Mələklərin möhnətində,
İnsanların mehrindəyəm.

Hər çoxda azı sevmişəm,
Hər sözdə duzu sevmişəm,
Hər cəngdə buzu sevmişəm –
Soyuq qanlar təhrindəyəm.

Bu dünyanın gərdişindən,
Cana doydum kür işindən.
İdrakımın vərdişindən
«Olum-Ölüm» şəhrindəyəm.

## BƏY OĞLANAM

Həsrətinlə gəzən mənəm,
Möhnətinə dözən mənəm,
Gəlincik tək bəzənmənəm –
Bir az şulum, bəy oğlanam.

Sözü bütöv, dönməz, qaim[1],
Hünərinə bağlı daim.
Yolu açıq, məqsəd qayım[2], –
Hər aqilə tay oğlanam.

Fərq eləməz axşam, səhər,
Boğmaz məni aciz qəhər,
Rəftarım bir az, bir təhər –
Dəliqanlı, xay oğlanam.

Dost, qohuma qeyrət çəkən,
Xəyanətə ciyər sökən,
Yığdığını vurub tökən, –
Hərdən belə zay oğlanam.

Həsrətinlə gəzən mənəm,
Möhnətinə dözən mənəm,
Gəlincik tək bəzənmənəm –
Bir az şulum, bəy oğlanam.

## ARTDI

Küyə düşdüm, haya girdim,
Oynamağa toya girdim, –
Quslüm üçün suya girdim,

[1] Sabit, davamlı, möhkəm.
[2] Uca, ağır, tutarlı.

Su dayandı, suçum artdı.

Əldə bayraq gəzdirdilər,
Qoyun kimi düzdürdülər,
Bu dünyadan bezdirdilər –
Yır-yığışım, köçüm artdı.

Sərvət üçün duruşdular,
Düşmən kimi vuruşdular,
Hansı haqlı? Soruşdular,
Çiyin çəkdim, heçim artdı.

Zəmim vağam, yarı qaldı,
Bildiricinə darı qaldı,
Millət öldü, varı qaldı,
Kor-koranə seçim artdı.

### BIR BƏRI GƏL, GENDƏ DURAN

Bir bəri gəl, gendə duran,
Xəlvət baxan, tində duran…
Candan keçib, öndə duran
Meydanına baş qoyubdu.

Dil uzundu, hünər gödək,
Nə vermişik, xeyir güdək,
Yerli, yersiz höcət edək –
Nə var: himə daş qoyubdu.

Verdiyini geri istər,
Olar-olmaz yeri, istər.
Ölmüşünü diri istər –
Qabağına «quş» qoyubdu.

### ŞAXTA MƏNƏ NEYLƏYƏCƏK

Soraq salıb ulduzlara,
Mehri-ülfətə varmışam…
Aylı gecə – nur dənizi,
Sirli ilğıma girmişəm.

Ümid uzaq, ölüm yaxın,
Ağır möhnət axın-axın –
Pişvazıma gizli çıxın,
Xəlvətə könül vermişə

Acı tama şirin dedim,
Həsrətində görün dedim.
Fikrin çaş-baş, dərin dedim,
Heç bilmirəm, nə görmüşəm.

Məqsəd nədi söyləyəcək,
Soyuğunda əyləyəcək?
Şaxta mənə neyləyəcək,

Xəyalına bürünmüşəm.

## AMALINA SÜRÜYƏCƏK

Abır, həya yox olan gün,
Həris tamah çoxalan gün,
İman, ixlas laxlanan gün,
Mühit, əxlaq çürüyəcək.

Yalançı meydan yaxacaq,
Doğruçu susub baxacaq.
Kürsüyə nadan çıxacaq,
Haqqın səsi kiriyəcək.

Damlacıq görünsə dərya,
Gerçəyə hökm olsa röya,
Məhəbbət bilinsə riya –
Nuru zülmət bürüyəcək.

Yandır azadlıq məşəli –
Asi – Spartak təşnəli.
Əlində haqqın xoş əli
Amalına sürüyəcək.

## GƏLMIŞƏM

Bu dünyanın o başından
Soraq aldım ləl qaşından.
Göz qamaşdı qumaşından,
Qanadlandım, quş gəlmişəm.

Səni gördüm, heyrət aldı,
Xam köhlənə ovsun oldu –
Nitqim bağlı, dilim laldı,
Heykəlləşdim, daş gəlmişəm.

Cövri-cəfan – zövqü-səfam,
Qəhrin ağır – müti qafam.
Virdin sınaq – baqi vəfam,
Meydanına xoş gəlmişəm.

Mehri-ülfət səndə nədi!
Duymayan kəs kal bəndədi,
Duyan ölmüş şərməndədi[1] –
Ar səddinə tuş gəlmişəm.

---

[1] Günahkar, xəcalətli.

## DIL PƏHLƏVANINA BAX

Yalanı düzündən böyük,
Tamahı özündən böyük,
Sükutu sözündən böyük
Dil pəhləvanına bax.

Bayramdı, toydu, büsatdı,
Cırcırama, həşəratdı,
Tanrısı təlxək yaratdı –
Dil pəhləvanına bax.

Qızlar heyrandı boyuna,
Az qalıbdı bəy toyuna,
Oxşayır meymun soyuna –
Dil pəhləvanına bax.

## EYLƏDIN

Süzdüm ruhumu camına, birbaşa nuş eylədin,
İlac olacaq dərdinə bu nuşu xoş eylədin.

Qalmadı canımın şəhdi, gərək ola kimsəyə,
Oldum biganə özümə, bağrımı daş eylədin.

Oynadın, gülüm, nazımca, bağlayıb xumarına,
Qatlaşıb min bir əzaba, cəhdini boş eylədin.

Qovuşub ruhuna, göydən yerə acıq verirəm
Gərçi sən bu cövlanımı yersiz, çaşbaş eylədin.

Rəhməti-əladan uzaq, məni bir rüsva sandın,
Bu rüsvalığı paxıla gör necə tuş eylədin.

Salmadı nəzərdən bir dəm,mövlam özü sevindi,
Umdum ki, Ərşad olasan, ey vah, kaş eylədin.

## QƏDƏRIM ALLAH ƏLINDƏ



*Ol! – Olmağa halım yox!*
*Öl! – Ölməyə olum yox!*
*Qal! – Qalmağa ölüm yox! –*
*Adım, sanım itəcək...*

AĞ YOLUNAN

*İmanıynan Kəbə ziyarətinə gedənlərə*

Zülmət ağa bükülməyib,
Dan qızarıb sökülməyib,
Ulduz axıb tökülməyib –
Yolçu gedir ağ yolunan.

Qəlbindən şeytan qovası,
Dilində xilas duası,
Başında cənnət havası –
Yolçu gedir ağ yolunan.

Şeytan qalxıb son hikkəyə,
Şəkli inamı bəkləyə.
Yolçu qovuşdu Məkkəyə –
Təvaf edir ağ yolunan.

Məkkədə ağ yol qurtarır,
Göylərini zülmət sarır,
Öndə başqa amac durur:
Əcəl gələ – öl-qalınan…

## GƏZDIR, GÖRÜM SON MƏKANI

Gizli qəsdə dolan oldu –
Məni məndən alan oldu.
Daha gecdi, olan oldu,
Hara tutsa haqq sükanı.

Söz mülkündə izim qalıb,
Deyilməmiş sözüm qalıb,
Gözəllikdə gözüm qalıb, –
Olsa belə gül tikannı.

Bəd nəfsimdən üzülmüşəm,
Günahlardan süzülmüşəm,
Mən özümdən əzəlmişəm –
Unutmuşam yol – ərkanı.

Gül dilində dindir məni,
Al nurunda çimdir məni,
Qanadına mindir məni
Gəzdir, görüm son məkanı.

## QƏDƏRIM ALLAH ƏLINDƏ

Üzübdü yorğun canımı,
Bezdirib sorğun canımı,
Alacaq ağrın canımı –
Qədərim Allah əlində.

Dərd üstünə dərd gətirdin,
Hər gün sabaha ötürdün,
Özünü məndə bitirdin –
Qədərim Allah əlində.

Saldın məni qovğalara,
Atdın azğın dalğalara,
Gülünc etdin lovğalara –
Qədərim Allah əlində.

Dərdim sənə tanışdımı?
Barı kimsə danışdımı? –
Dilləşdinmi, anışdınmı –
Qədərim Allah əlində.

Canımı dişimə tutdum,
Yükümü çiynimdən atdım.
İlanla başbaşa yatdım –
Qədərim Allah əlində.

## KIM

Üz tutdum qismət yazana,
Tuş oldum dərviş, ozana,
Qalmadı minnət yozana,
Acıdı kim, inandı kim?

Şərə nökər nadan, paxıl,
Üzü sırtıq, qəlbi paxır,
Girəvədə qara yaxır –
Üzüldü kim, qınandı kim?

İlahi rüsxət yetirdi,
Taleyim uğur gətirdi.
Kim umdu, örnək götürdü –
Qazandı kim,  sınandı kim?

## «ƏNƏLHƏQQ» DEMƏDI KI!

Ruhu dara çəkildi,
Ağzından od töküldü,
Dostlar bir-bir əkildi –
«Ənəlhəqq» demədi ki??!

Haqsıza yazıq dedi,
Cövhəri pozuq dedi,
Haqq deyən azıq dedi –
«Ənəlhəqq» demədi ki??!

Köhlənə minənə bax,
Köhləndən enənə bax,
Daşqalaq – dünənə bax –
«Ənəlhəqq» demədi ki??!

Ağrıdı acı-acı,
Nəzər salıb gözucu
Duymadı qardaş, bacı –
«Ənəlhəqq» demədi ki??!

Hər sözü küfrə döndü,
Bütə, kafirə döndü –
Eybli kifirə döndü,
«Ənəlhəqq» demədi ki??!

Haqq dedi, haqqa baxdı,
Kiməsə iynə taxdı,
Dərisi lübürd çıxdı,
«Ənəlhəqq» demədi ki??!

Ac yatdı, tox oyandı,
Şah gördü, şax dayandı –
Al qanına boyandı,
«Ənəlhəqq» demədi ki??!

## NƏ QƏDƏR

Yumulu əl gördülər,
İçində ləl bildilər
Açdılar, kül gördülər –
Qoymağa baş nə qədər.

Əyriyə düz dedilər,
Astara üz dedilər,
Qumaşa bez dedilər –
Kor gözə qaş  nə qədər.

Qopanlar yapışdılar,
İtənlər tapışdılar,
Çiçəklər öpüşdülər,
Böhtana tuş nə qədər!

Savaba quyu qazdı,
Dedilər suyu azdı,
Namərdlər şərə yozdu,
Salmağa daş nə qədər.

## TÖRƏNINI USTAD QURSUN

Təbim haqdan göz istədi,
Gördüyünə söz istədi,
Dörd məqamda iz istədi –
Törənini ustad qursun.

Qəlbim açıq, nur içində
Hünərin var, dur içində,
Meydan, ərkan qur içində –
Törənini ustad qursun.

Ömür gülüm qışda bitib,
Sərt zirvədə, daşda bitib,
Yar-yarımçıq huşda bitib –
Törənini ustad qursun.

Quş deyiləm, qanadım var,
Mənzil uzaq – inadım var,
İnsəm-cinsəm, Bir ANDım var
Törənini ustad qursun.

İxlasımda şilkət yoxdu,
Təkbirimdə zəkat yoxdu,
Nağılsızam, həkət yoxdu –
Törənini ustad qursun.

Qan çanağı – qanlı gözüm,
Qan içində güllü yazım,
Qatlanıbdı qeyrət dizim –
Kim istəyir: nə ad versin
Ödülünü ustad versin.

## ULAYIR KORYAPALAQ

*Arxamca danışıb, mənə qara yaxmaq istəyənlərə.*

Geniş meydan açıram,
Ruhum qanad – uçuram
İşıq olub saçıram –
Ulayır koryapalaq.

Ürəklərə girirəm,
Zülmətləri görürəm,
Nurlu ümid verirəm –
Ulayır koryapalaq.

Bu dünyanın sonumu, –
Qəhr edimmi canımı,
Hanı simsar yanımı? –
Ulayır koryapalaq.

Haldan-hala düşəndi,
Paxıllıqda bişəndi,
Mürdəşir, goreşəndi –
Ulayır koryapalaq.

Almıram heç vecimə,
Bax tezimə, gecimə –
Bələd olar gücümə,
Ulayır koryapalaq.

## GƏRƏK

*Yunis İmrəyə*

Ağ zülmətin içiynən
Ulduzların köçüynən,
Məlikməmməd qoçuynan
Yolçu yollarda gərək.

Çıraq tuta əlində,
Zülmətlərin elində,
Haqqa zikri dilində,
Yolçu yollarda gərək…

Doğru, dürüst söyləyə,
Cəhaləti əyləyə,
Bələdçilik eyləyə –
Yolçu yollarda gərək…

İşıq alıb qəlbindən,
Yıxa şəri dibindən,
Qaça siğə, kəbindən
Yolçu yollarda gərək…

Gələn olsun dalınca,
Abid, mömin olunca.
Haqdan rüsxət alınca,
Yolçu yollarda gərək…

## MÜBARƏKDIR

On bir ayın sultanına –
Girdik nəfsin giryanına –
Bərəkətin bostanına,
İftarımız mübarəkdi.

İnsanlığa sayğımızdı,
Qarşılıqlı qayğımızdı,
Allah xofu duyğumuzdu –
İftarımız mübarəkdi.

Çox yeyərsən, haram olar,
Az yeyərsən, nəfsin qalar,
Heç yeməzsən, rəngin solar –
İftarımız mübarəkdi.

Düz niyyət tut, haqqa sığın,
Turi-Sina arxan, dağın,
Mələklər olsun qonağın –
İftarımız mübarəkdi.

## BILƏM

Zühur oldun yoxumda sən,
Butalandın yuxumda sən,
Meydan açdın çoxumda sən,
Azımda qoruya biləm.

Zərif, incə, gül-ləçəksən,
Gül dərdini güllə çək sən,
Tez açılmış bir çiçəksən,
Yazımda qoruya biləm.

Götür məni, götür yara,
Ötür məni, yetir yara,
Sayəm olsun çətir yara –
Dözümdə qoruya biləm.

Ruhum səndə, zikrim haqda,
Vəslin məndə, şükrüm haqda,
Virim-virdim, fikrim haqda –
Əzmimdə qoruya biləm.

## EŞQ ADAMI HAQQA VARAR

*Yunis İmrəvarı.*

Eşq adamı haqqa varar,
Hər zərrədə ümman görər,
Yerdən göyə iman sərər –
Ayağından asılmaz ki![1]

[1] Musa peyğəmbər zamanında
gündüzlər özünə Tanrı deyib, gecələr
ayağından asılaraq Allaha yalvaran Firon.

Haqdan gələn xof olan nə,
Saxta, yalan laf olan nə?
Büllur bilər saf olan nə,
Yüz əyara qısılmaz ki!

Ruhun – ziya, bədən – torpaq,
Fəhmin – idrak, edən torpaq,
Həyat – oyun, udan – torpaq,
Hər uduzan basılmaz ki!

QƏRIB INSAN

Qərib insan qəlbən sınıq –
Şah oğlu, şah qızı ola.
Yol çəkər, gözləri donuq –
Qarlı qışı, yazı ola.

Kimsəsiz, yiyəsiz olar,
Qürbət eldə qərib insan.
Doğmasız, öyəsiz olar –
Özünü tək görüb insan.

Hünərlidir, təpərlidir,
Hər bir insan doğma eldə.
Hər bəladan çəpərlidir –
Hər mərhələ, hər təməldə.

***

Mənsur[1] olub söyülən də
Daşqalaqla döyülən də
Sərpa soyub[2], soyulan[3] da
Keçdi tarix süzgəcindən
Aralandı düz gəcindən.

Yalaqlarda yal olan da
Naşı olan, kal olan da
Hikkəsinə qul olan da
Keçdi tarix süzgəcindən,
Aralandı düz gəcindən.

Səbrin camı tam dolanda,
Sin şinə[4] varid olanda,
Mürşid[5] olub, kam alan da
Keçdi tarix süzgəcindən,
Aralandı düz gəcindən.

ÖMRÜM DAŞDA BITƏCƏK

---

[1] Mənsur Həllac
[2] Nəsiminin diri-diri soyulmasına fitva verən zahid
[3] Nəsimi
[4] Soltan Səlim Şam şəhərinə girəndə
[5] Şam şəhərində bir münafiq, nəfsinə qul azan çəkəndə, Allahu
Əkbər çağıranda bir nəfər mürşid onun pul üçün, nəfsi üçün etdiyini
Bilib, deyir. "Sənin çağırdığın Allah (əstəxfurullah) mənim ayağının altındadır."
Bunu eşidən ruhanilər onu öldürüb həmin yerdə dəfn etməyi hökm edir.
Mürşidin ölümündən sonra aşkarlanır. Sin-Soltan Səlim, Şin-Şam şəhəri belə də olur.

ÖMRÜM DAŞDA BİTƏCƏK

Ol! – Olmağa halım yox!
Öl! – Ölməyə olum yox!
Qal! – Qalmağa ölüm yox! –
Adım-sanım itəcək…

Qəlb nuru gözdən keçər,
Bərq vurar, üzdən keçər
Söz olar, sözdən keçər
Söz də haqqa yetəcək.

Xilqət eşqi qıyıbdı,
Zaman məkrə uyubdu,
Yurdsuz həyat ayıbdı –
Qürur harda ötəcək.

Çəkir məni qəm dara,
Güman yox əhli – kara
Qürbət hara, mən hara –
Ömrüm daşda bitəcək.

VƏSIYYƏT

Mənim firavan,
Şirin-şəkər balalarım,
dünya gəldi-gedərdi,
mən də elə.
Bir gün
ayrılacağam sizdən
ağlaya-ağlaya, gülə-gülə.
Naşükürlük edib,
çox da üzülməyin,
Saç yolub, üz cırıb,
dönüb göz yaşına.
          süzülməyin.
Kənardan var
göz qoyan –
Adına dost deyək,
Ya düşman.
Saxlayın
          təmkini, dözümü,
Soyuq dar məzarda
sizdən razılıq mehriynən
isidərəm özümü.
Mənsiz yaşamaq
xoş olmasa da,
çətin də olmayacaq –
Çörəksiz,
Qonaq-qarasız
   qalmayıb
ata-babadan yapılma
doğma ocaq.

Fəqət
Sizdən
bir  umacağım var:
qoruyun adımı –
Təkcə tərcümeyi-hal
yazanda,
şəxsi anket dolduranda
yox,
Ən çox, ən başlıcası
adımı övladlarınızdan biri
gəzdirəndə də,
Nəsil şəcərəsini
nəvənizə,
nəticənizə,
kötücənizə
çözdürəndə də…
Bircə umacağım var
Sizlərdən:
qoruyun adımı –
qoruyarsınız
qeyrətimi –
torpağa,
doğma yurda,
zəhmətə,
olan məhəbbətimi,
sevgimi,
odumu…
Qoruyun
babanız atasının,
atanız babanızın
adını qoruyan kimi,
Pak, təmiz, ləkəsiz –
İpəkqurdu barama
Sarıyan kimi.
Ad kölgəsinə qısılmayın,
Dəstəvuz edib dilinizdə
ata-baba adını
ad bayrağından asılmayın.
Xeyirxah əməliniz,
xoş rəftarınızla
rəhmətə layiq
səslənsin adım
ağızda, dildə.
Məmnunluqla yad edilsin
qədirbilən,
qürbətə səpələnmiş,
haçansa toplaşası
haylı-hayçıllı
doğma Dəmirçilər adlı
bir eldə.

## GÜNDƏLIKDƏN SƏHIFƏLƏR

*(Nadirin gündəliyindən)*

Ora mənə
belə doğma,
əziz Vətən
heç olardımı, ata!
Belə şirin,
Belə əbədi
Heç qalardımı, ata! –
Sən olmasaydın…
Sənə daha çox
Yaxınlaşıram,
Səndən uzaqlaşdıqca, ata!
Xəyalən
öpüb
əllərindən
Səninlə  qucaqlaşdıqca, ata!
Nə mən vardım,
nə
gündən-günə
gözlərimdə
gözəlləşən,
şirinləşən,
əzəlləşən
bu dünya,
Sən olmasaydın…
Niyə duydum,
Niyə sevdim
Səni mən?!
Nəyə uydum,
Nəyi qıydım,
Niyə tapdım
Məni mən?!

## KORLAR QAÇDI, GOR QAÇMADI

*Şəhid oğlum Nadirə*

Bu dağa – qaşa çıxdıq,
Dırmaşdıq, qoşa çıxdıq, –
Hünərli, birbaşa çıxdıq,
Zirvə bizə yaraşmadı.

Dost bağına çəkdik çəpər,
Xəyanətə olduq sipər.
Qızışdırdı lovğa təpər,
Dəbbəlikdən kar aşmadı.

Dağ da dağa arxa gərək,

Təklənməkdən qorxa gərək,
Hamı birdən qalxa gərək –
Küsənimiz barışmadı.

Goşduq, itdi ağıl, tədbir, –
Düz məramlı təsdiq, təqdir.
Məğlub olduq tək-tək, bir-bir
Korlar qaçdı, gor[1] qaçmadı.

Mala, pula həris olan,
Paxıllıqda səlis olan,
Fəlakətə bais olan
İçi irin qırışmaldı.

SALEH ÜÇÜN ELEGIYA

Görünməmiş,
umulmamış,
heyrətli
bir sıçrayışla,
yaraları
hələ qaysaq tutmamış
neçə-neçə ürəkləri
təzədən yaraladın…
Yaşamaq hünərini,
Yaşatmaq qeyrətini,
Öz üzərində
qələbə çalmaq təpərini
verib
vəsvəsə mələyinə,
çox uzaq,
çox yaxın
bayrağına dönmüş
bir ölüm
qaraladın –
Öz gözündə
öldürdün
övliyalıq səadətini.
Belə gördük
körpə fidanlarına
qansız sədaqətini.
Dırmaşıb çıxdın –
ayaq qoyub
iki binəva körpənin
çiyinlərinə –
Ucalmaq istədin
fədakarlıq
zirvəsinə,
qahmar çıxıb
kiminsə haqqına.
Demədin,
necə tablaşıb,
necə apararlar
körpələr

[1] Şəhid oğlum Nadirə işarədir. Bütün ordunun rayondan çıxdığını görə-görə yenə özünü ölümə verdi. Tək ölümə getdiyini «görmədi».

bu yükü
əzablı
ömür yollarında
sığınıb
Allahın
güvəncinə
zarıya-zarıya,
hıqqına-hıqqına…

II

Haramlığın
vərəmli çamurluğunda
inləyən
bu iyrənc cəmiyyətdə –
yenilmiş, çınmış halımızda
salıb bizi müəmmanın
ilan dişli zülmətinə –
bu nə şeytanı vəsvəsə???
Körpə fidan balalar çiyninə
ayaq qoyub
ucalmaq fədakarlığı –
bu ölüm –
bu iblis vəhyi nə idi??? –
Oldun valeh!
Qəlbi çirkin
doğmaların içində
təmizliyin acizliyi,
acizliyin şəhidi,
Saleh!!!

## VƏSIYYƏT

*Qızım Səltənətə*

Qurşağını
bərk bağla,
qızım,
belinin…
…Həddindən ziyadə
Çox gözlədin
doğmaların umduğu
Tanrı payını –
narkoz altında,
bıçaq zoruna
qazandığın
iki körpənə
vurğun,
bir az da sərt
anaydın.
Bu gün
həm də
ata oldun
cavan yaşında…
Apaydın
ata qüruruna,
ata qayğısına,
ata borcuna,
ata güvəncinə
çata oldun –

Dondu
gənclik arzuları başında…
Qoy
bundan sonrakı
ömrünə
fərəh verəsi –
Fazilin, Ətifənin
ağ günlər görəsi
həyatı
həmişəlik
tərəddüdsüz, büdrəməz
ata-baba qeyrətin
qara rəngə boyanmış
al qırmızı yaylığına
matəm rəmzi bürünsün
Fəqət
ürəyi dağlanmış
atanın
«Ərşad» adı
hara getsən,
harda olsan
arxanca
həm ata,
həm ana
həyatın
yenilməz
analıq şəstində
cavan çağından
ağbirçək
görünsün.

FAZIL…
ƏTIFƏ…

*Fazil:*

– Baba, ay baba!
– Can, bala!
– Baba, atam hardadı?..
– Göydədi, bala –
ulduzların yanında!
Sərbəst
buraxıb səni:
görmək istəyir
necə ağıllı,
necə qoçaq,
necə igid
böyüyərsən.
*Ətifə:*
– Baba, ay baba,
– Can, bala!
– Atam hardadı?

– Yerin təkində.
Göylərin
Yerə
qəhri tutanda, –
Torpaq
cadar-cadar
sınanda
Sənin
gül rişələrin
susuz yananda
gözlərindən
su verib
suvaracaq
yanan rişələrini
Sən
daha gözəl
ətirlənəsən,
daha gözəl
güllənəsən,
daha şirin
eyiyəsən.

## DÖRDLÜKLƏR

### DUYĞU TƏRANƏLƏRI

Səndə məni axtaran yox,
Qızıl baxta taxt quran yox,
Fövtə verdim ömrü, günü
Təzdən[1] yazıb, vaxt quran yox.

İtib getdi ölçüm, çəkim,
Sardı məni ahıl bürküm.
Məni duyub bilənlərə
Örnək olar ömür görküm.

Haqqı tapdım, özümdədi,
Tox tamahlı azımdadı.
Şükür, Tanrı – Şükranlığım
Oğlumdadı, qızımdadı.

Olmayanı istəmə, gəl!
Verməyəni pisləmə, gəl!
Səni görən, bilən çoxdu –
Çox özünü süsləmə, gəl!

Əsirgədin kalanından,
Əl tutmadın olanından.

[1] Təzədən

Hər yetənə yalan dedin,
Yarımadın yalanından.

Xain, paxıl, bic adamsan,
Can incidən bir qadamsan.
Daşa basıb daş atdığım,
Lənətlənmiş son nidamsan.

Göydən yerə enərsənmi,
Mehrə uyub sinərsənmi.
Mən kül oldum, sən alışsan,
Yanar dağa dönərsənmi?

Gen açılmış yaxana bax,
Köynək tarım, sıxana bax,
Sinə meydan, göz heyrətdə, –
Pişvazıma çıxana bax.

Tutub kəsən bənd-bərəni,
Dağ yolunu, gen dərəni,
Çalıb-çapıb, aparan kəs
Peşman olub göndərərmi?

Yıxdın məni, döymə barı,
Döysən belə, söymə barı.
Qalib, məğlub olmaz eşqdə,
Xəyanəti öymə barı…

Getdim, yəqin, son yolumdu,
Ya ölümdü, ya qalımdı.
Ömrə möhlət – Allah işi –
Bəs namərdlik nə olumdu?!!

Qoydun məni sapanda sən,
Atdın, uyub həpəndə sən.
Yaram dərin, məlhəm olub
Bağla görüm tapanda sən…

Eyni gəldik, qonşu olduq.
Böyüdükcə mehir saldıq.
Sardı bizi gic təkəbbür,
Sevə-sevə yalqız qaldıq.

Suçum böyük, keçilmədi,
Zəmim vağam, biçilmədi.
Elçiləri qəza aldı –
Şirin çayım içilmədi.

Qəmim gəldi ləpə-ləpə,
Batdı qəlbə qəlpə-qəlpə,
Xəyanətin aşkar oldu,
Lənətlədim öpə-öpə.

Su sənəyi suda sındı –
Əməlində oğru yandı.
Pis yollara düşən kəsi
Xeyri yoxdu, yüz də qandı…

Daş ağırdır, düşən yerdə,
Zərbi kərən deşən yerdə.
Azadlığa can atmayan,
Sürünməkmi peşən yerdə???

Qardaş arxa, at muraddı,
Torpaq – çörək, su – həyatdı.
Ali məqam – məqsəd, məram –
Ömrə, günə qol-qanaddı.

Göydə gəzmə, yer oğlusan,
Örnək bilmə hər oğlu sən.
Gücün çatan işdən yapış.
Qoy desinlər ər oğlusan.

Yaxşılara qəsd yetirmə,
Həsəd çəkib, köks ötürmə –
Hamı deyər bədnəzərdir,
Lənətlənmiş ad götürmə…

Hər ilindən gün – seçil sən,
Haqqa layiq – tən seçil sən,
Ürəklərə paylan, yer al,
Tunc heykələ dön – seçil sən.

Yaşa ömrü öz adınla, –
Halal, təmiz, düz adınla.
Xəcil olub, xiffət etmə,
Alnı açıq gəz, adınla.

Ovsunladın gəlişimi,
Oğurladın gülüşümü.
Ağlayıb, islatdın, gülüm,
Tutdu məni gül üşümü.

Sevgi bulaq, iç deyir, iç
Günah deyil, bu, suçdu, suç.
Dünya iblis, qoynu açıq,
Gülər üzlə keç deyir, keç.

Saldın məni öz yoluna,
Haqqa gedən düz yoluna.
Virdim Allah, Allah demək –
Bağlanmışam söz yoluna.

Qəlyanıma tütün tökdüm,
Alışdırdım, xorna çəkdim.
Qumar pula toxum aldım,
Cücərmədi hər nə əkdim…

Qara saça dən salmısan,
Sən ağardıb, sən salmısan.
Nə yaxşı ki, alıb məni
Bu dünyadan gen salmısan…

Dilin varmı «mən» deməyə,
Gəl mehrimə sin deməyə,
Dünya malı gəldi-gedər, –
Məni ona tən-deməyə…

Təbərrüksən, təzə gəlin,
Xoş gəlmisən bizə, gəlin!
Gəlişinlə «huşyar» oldun,
Zibil çıxdı dizə, gəlin!

Xuşgəbarsan, götürdülər.
Toyla bizə gətirdilər.
Uçurtdular şahlıq quşu,
Səni taca yetirdilər.

Ətirlisən, qoxlamışam,
Tutiya tək saxlamışam,
Gizlətmişəm gözüm üstə,
Gündə yüz yol yoxlamışam.

Güllər təzə, lap tər imiş.
Dərib yara göndər imiş.
Xara uydu, vağam oldu,
Baxıb dözən nətər imiş?!

Qar üstündə çiçəyə bax,
Qan çilənmiş ləçəyə bax.
Fərə səkib, tara düşüb,
Qəhqəh çəkən beçəyə bax.

Yarıtmadı qara baxtı –
Tülək tərlan sara baxdı.
Açılmadı sirli yaxa,
Kərəm yandı, yara baxdı.

Bu dünyanın dörd üzü var,
Fəqət minbir dərd üzü var.
Doxsan doqquz pay namərdin,
Bircəsində mərd izi var.

Göydə vurdun, yerdə baxdın,

Sudan hər vaxt quru çıxdın.
Soyuq, bumbuz əməlinlə,
Bilənləri oda yaxdın.

Fərasətin düşüb dilə,
At oynadır bəxtin hələ,

Dəm aşağı, dəm yuxarı
Olan dünya qurar tələ.

Sirrin qaldı daş altında,
Günahların baş altında,
Ağlın göydür, ağ saçınla
Pərdələndin yaş altında.

Qismət camı dolar bir gün,
Fürsət verən alar bir gün
Qürrələnmə gəlhagəldən,
Taxtı-tacdan salar bir gün.

Çökər, uçar şah sarayın,
Batar səsin, hay-harayın.
Daş çükuta, hüznə dönər,
Təntənəli, gur sürəyin.

Sil gözünü, bax özünə,
Gör özünü düz-düzünə.
Əvəzlənib əl kiriynən,
Ağıl adlı bir xəzinə.

Al sözümün şəhdini sən,
Tanrı tutan əhdini sən,
Röyaların çin olacaq,
Cana gətir cəhdini sən.

Dil, dolaşıb çaşdı demə,
Öz həddini aşdı demə.
Yaz çovğunu çalağanın –
Hər çovğuna qışdı demə.

Yurd həsrəti əzdi bizi.
Qıl körpüyə düzdü bizi.
Yurdum talan, qaçqın mağmın,
Çadırlarda gəzdi bizi.

Dolaşmışıq, açmaq olmur, –
Qədər, qismət – qaçmaq olmur.
Tanrı bizi quş yaradıb,
Qanad sınıq, uçmaq olmur.

Neçə çəkək bu illəti,

Çöküb günün ağ zülməti.
Gedir qurdla qiyamətə,
Zəlil edib kor milləti.

Əzizim o tayınan,
Sel gəlir xataynan,
Sovuş, ölümdən keçək,
Qovuşaq butayınan.

Bağlıdır, kilidə bax
Çaxnaşan buluda bax.
Göy üzü doğram-doğram,
Şimşəkdə mövluda bax.

Adımı dildən alın,
Yaxamı əldən alın.
Qanına qəltan olan,
Bülbülü güldən alın.

Yolum yoxuş – təngidim,
Qalxammadım, ləngidim,
Yorğun düşdüm,ləhlədim,
Səni gördüm, səngidim.

Durub baxma gendə sən,
Kölgədə sən, tində sən.
Nə vaxtdandı bilmirsən
Qorunursan məndə sən.

İncidirsən, cığalsan,
Qorxulu bir nağılsan.
Oğlanların içindən,
Nənəm seçən oğulsan.

Aldanarsan vara sən,
Tez düşərsən tora sən.
Güvənc yerin mənəmsə,
Çəkmə məni dara sən.

Açma sirri, faş ollam,
Gizli sevər, xoş ollam.
Ehtiyatlan, ürkərəm,
Uçub gedən quş ollam…

Bu kilidi kim açdı,
Başım sözə qarışdı.
Sevənlər yuva qurdu,
Mənimki nə naxışdı…

Yenə gəldi bazar günü,
Ayrılığın üzər günü.

Yar yadına salmır, neynim,
Öz  canından bezərgini.

Yarım gendən süzür, neynim,
Həsrət məni üzür, neynim…
Boylanıram, boy almıram,
Kara gəlmir nəzir, neynim…

Qorxmadın sən imanından,
Haqqın haqlı divanından…

Bilə-bilə böhtan dedin,
Utanmadın gümanından.

Təhrif edib həqiqəti,
Qoparırsan qiyaməti,
Tez çıxırsan sudan quru,
Basıb boynuma minnəti.

## ÇÖL YUXUSU TUTDU MƏNI



*Süzüldüm, qəlbinə girdim,*
*Gülümsər meylini gördüm,*
*Ruhumu izinə sərdim*
*Yola yaraşıq qalmışam…*

## QQDSİYYƏTİN CAZİBƏSİ

Açıldın önümdə bir kitab kimi,
Son cümlə, son sözə oxunmaq üçün.
Saldırğan məramın apaydın, cəmi
Əlçatmaz nöqtənə toxunmaq üçün.

Əyləndim, şelləndim ətəklərində,
Dırmaşdım, zirvəndən mən sənə baxdım.
Gəzdim, bal görmədim pətəklərində,
Şəhvətin cəngindən salamat çıxdım.

Üyüdə bilmədin ağnağazını,
Ac canavar kimi ac qaldın yaman.
Tıxandı, söz tutdu gen boğazını,
Qoynundan heç nəsiz çıxdığım zaman.

Nə bilmişdin məni, kim saydın axı,
Dalınca olsam da yollar yorğunu.

Beləcə düşəcək qarmağa çoxu,
Beləcə qurarsan murdar qurğunu.

## GÜNAHIMI SÖZ ƏLLƏRIN?

Daşda bitən zor gülə bax,
Qışda açan qar gülə bax,
Sənə bənzər, yar, gülə bax –
Çiçəklərin çiçəyidir,
Göyçəklərin göyçəyidir.

Ləçəkləri pardaq-pardaq,
Şəhla gözlər çıraq-çıraq,
Gözəlliyi soraq-soraq,
Yayılıbdı eldən-elə,
Nəğmə kimi dildən-dilə.

Dilə tutdum əl dilində –
Qara zülfün tel dilində,
Gileyləndim gül dilində,
Sinəsində yara gördüm.
Çəkilmişdi dara, gördüm.

Hər sözündən qada yağdı,
Elə bil ki yada yağdı,
Qarğaşalı, bədə yağdı,
Dili odlu, əli sərin,
Günahımı söz əllərin???

## YENƏ GƏLDIN

Yenə gəldin, gülüm, yenə gizlicə,
Bir başqa gecəydi, gülüm, bu gecə.
Duyğulara bürünmüşdün, xoş incə –
Adi günlər qayğısına biganə.

Balıq kimi çabaladın əlimdə,
Yorğun düşüb mürgülədin qolumda…
Sevgili yar qadasını alımda
Mənmi oldum sevənlərdə yeganə.

Daş deyil ki, ürək dözə, tablana,
Səcdə edə, üzün sürtə qiblənə.
Hökm olunub, bağlanıbdı qəlb sənə
Tanrı özü dərdi verib çəkənə.

Mən gedərəm, tənha qalıb yanarsan,
Bir gün gələr, günahını qanarsan,
Havalanıb öz içindən sınarsan
Çarə olmaz göz yaşını tökənə.

## DOĞMALAŞAN YADA BAX

Yanğıya bax, oda bax,
Doğmalaşan yada bax,
Eşqə üzgün ada bax –
Addan, yaşdan keçibdi.

Qaymaqdı, baldı, nədi?
Göz sümürdü, dil yedi –
Nə fanidi, nə gidi –
Əzəl başdan[1] keçibdi?

Bu sevgiyə şərik yox,
Doymaq, bezmək – perik yox.
Açılmağa hörük yox –
Gözdən, qaşdan keçibdi.

Yarım özü yapıbdı,
Varlığıma hopubdu –
Həvəsimdən qopubdu,
Həvəs, xoşdan keçibdi.

## QALIBDI

Bir vaxtlar vüsalın qismət olmadı,
Güdənlər çox oldu, rüsxət olmadı.
Girəvə düşəndə fürsət olmadı –
Fürsət yolağası açıq qalıbdı.

Səllimi gəzdirdin məni bağında,
Sürtülüb süzülmüş, üzgün çağında.
Qara gözlərinin bəslə yağında –
Qismət yolağası açıq qalıbdı.

Tənhalıq əzabı ərşə dirənib,
Vay düşüb ömrümə, həşrə dirənib,
Dastan, kitab olub – nəşrə dirənib,

[1] Adəmlə Həvvadan

Həsrət yolağası açıq qalıbdı.

## DƏYMƏZ

Ağlama, namərdə ürcah olan qız,
Bu dünya gözünün yaşına dəyməz.
Dolusu məkrli – haram tuluğu,
Halalı yarımçıq – boşuna dəyməz.

Dəlisi göz dağı – haqqa yaxındı,
Ölüsü söz dağı – axın-axındı,
Qartalı qəfəsdə – ələbaxandı, –
Tək qanad, boz sərçə quşuna dəyməz.

Qoşulub bizlər də fanidir desək,
Torpağa qan içən canidir desək,
Yüz il ömür sürüb, anidir desək,
Yük düzəldən pərsəng daşına dəyməz.

Fateh ol, firon ol – getdin, qurtardı,
Dillərdə nəğmə ol – ötdün, qurtardı,
Nağıl ol, dastan ol – bitdin, qurtardı. –
Bir anlıq həzzinə, xoşuna dəyməz.

Bu dünya məhşərin qazanc yeridi,
Yetimin, qəribin güvənc yeridi,
Haqqa tapınanın sevinc yeridi –
Haqqı görməyənin  çaşına dəyməz.

## EYLƏDIN

Yuxumu ərşə çəkib,
Dilimi lal eylədin.
Hopdurub canıma sən
Dərdini bal eylədin.

Cıqqa oldum başında,
Növrəs şahlıq yaşında,
Eşqin şəhdi huşunda
Hüsnü calal eylədin.

Hardasa, rastlığınnan
Şeytanla dostluğunnan,
Ovsunla məstliyinnən
Ecaz məlal eylədin.

Çəkdiyimə  yadmısan,
Əlacıma admısan,
Uçmağa qanadmısan,
Özgə xəyal eylədin???

## İLMƏ-ILMƏ SÖKÜLÜBMÜ?

«Üzümə bax, üzün varsa»,
Üzün suyu tökülübmü?
Gözümə bax, sözün varsa,
Sözün şəhdi çəkilibmi?

Daş deyilsən, dillənsənə,
Sürüşsənə, hellənsənə,
Yamac boyu güllənsənə –
Yerin, Göyün əkilibmi?

Nə yazmışdın, nə oxudun,
Öz dünyanda sən yoxuydun…

Sevdalı ömür toxudun,
İlmə-ilmə sökülübmü?..

## NƏ OVSUNSAN, NƏ HEYRƏTSƏN!

Gözlərindən ləl axıtma,
Bulaq ayna – sındırarsan,
Tökmə suya qaynar yaşı,
İçən kəsi yandırarsan.

Buz bulaqda bax özünə,
Yu əlini çırp üzünə,
Abi-həyat – yax gözünə,
Neçə naşı qandırarsan.

Haqq çağırıb, haqqa yetsən,
Lal dillənər, bir səy etsən
Nə ovsunsan, nə heyrətsən,
Görən kəsi dondurarsan!

## QÜRURUMDAN SALSA DA

Mən ki arı deyiləm,
Hər çiçəyə əyiləm.
Bənövşəyə mailəm –
Ömrü gödək olsa da.

Hər çiçəyin öz ətri,
Hər duyğunun söz ətri,
İlk görüşün iz ətri –
Qalmasa da, qalsa da…

Sevgisiz lap heç nəyəm,
Sevgi üçün təşnəyəm.
Gözləri gur çeşməyəm,
Öz qəlbimə dolsa da…

Haqqa çatan nalə – mən,
Zülmət qəlbə şölə – mən,
Şaham, eşqə kölə – mən,
Qürurumdan salsa da.

## İBLISƏ TAPINMIŞ QADIN

Yolçusan, yola bələdsən,
Özündən şəkli ölətsən,
İmanı kəmsən, qələtsən,
İblisə tapınmış qadın!

Daşqalaq olmalı bəndə,
Hiylə, fitnə nəymiş səndə!?

Mələk donlu, durub gendə,
İblisə tapınmış qadın!

Dil tökər şəkər yalanı,
Yuvadan çıxar ilanı,
Tərsinə söylər olanı –
İblisə tapınmış qadın!

Namus qaldı ötən gündə,
Abır, həya itən gündə –
Şərəfsizlik yetən gündə,
İblisə tapınmış qadın!!!

## BELƏ

Məndən sənə gedən cığır
Tapdaq-tapdaq, yağır-yağır.
Bir səs elə, barı çağır,
Meylin yada olsa, belə.

Görsənirsən əl içində,
Yerin, yurdun gül içində,
Ovut məni «gəl» içində
Möhlət kasan dolsa, belə.

Hər saralan xəzəl deyil,
Hər süslənən gözəl deyil,
Hər uzanan düz əl deyil,
Varlığını çalsa, belə.

Əsli kimi canan olmaz,
Kərəm kimi yanan olmaz,
Hər sevən Şeyx Sənan olmaz,
Boynuna xaç salsa, belə.

## TORUNA GIRƏRMIYƏM

Qəddimə zor düşübdü,
Canıma qor düşübdü,
Yadıma yar düşübdü –
Toruna girərmiyəm?

Bəduğur hava oldu,
Bostanım sava oldu,
Rəftarım dava oldu,
Vəslini görərmiyəm?

Şərikli bağ salmışıq,
Qoşa bağban olmuşuq,
Bara həsrət qalmışıq –
Nübarı dəyərmiyəm?

Bu dünyadan köçmüşəm,
Başqa ömür seçmişəm,
Təzə eşqə düşmüşəm –
Yox qəlbi verərmiyəm?

## MÜBARƏK

Ağ çiçəyim! Dağ tacısan,
Əlim çatmaz – göz acısan,
Şirin damaq, xoş acısan –
Dadım, tamım tək –
mübarək!

Öndə pusan bir əcəlsən,
Öldürsən, ömrə xəcilsən,
Yaşatsan, fövri macalsan –
Kəmim, tamım tək –
mübarək!

Həvəslisən sındırmağa,
Çilikləyib qondarmağa,
Çox müştaqsan yandırmağa, –
Piltəm, şamım tək –
mübarək!

Qəlbin daşdı, hissi yoxdu –
Öpdüm daşı, suyu çıxdı.
Yanağını oda yaxdı –
Vəslim, kamım tək –
mübarək!

Son sözümdü – son nəzərim,
Sönüm, qəlbində közərim.
Olsa bir övlad – bənzərim! –
Təkim, cəmim tək – mübarək!

## ÜRCAH OLDUM SƏN ZALIMA

Nə deyəcək, tapacaqsan,
Yüz sorğuma, sualıma?
Nə uydurub yapacaqsan,
Boynubükük məlalıma?

Nə çox məndən rüsxət uman,
Əli göydə, qismət uman,
Ümid edib fürsət uman,
Heyran qalıb cəlalıma.

Sozalıram gündən-günə,
Seyr edirsən gendən-genə,
İnsaf elə bir az yenə,
Döngə olma düz yoluma.

Əl üzüm mən səndən necə,
Xoş zikrimsən gündüz, gecə.
Yadlığından çox-çox yücə –
Ürcah oldum sən zalıma.

Bilməm necə oğlanmışam,
Gülə-gülə dağlanmışam,
Uyğunlaşıb bağlanmışam
Mehri uzaq bəlalıma.

BILMƏZ

Diləyin qonaq meydanı,
Gərəyin qınaq meydanı,
Ürəyin sınaq meydanı –
Hər uman kəs girə bilməz.

Yetkin, yetiksən, birsən,
Müəmmalı bir sirsən.
Dəryada inci, dürsən –
Sərrafın görə bilməz.

Sevgin kinlə çulğaşıq,
Dərdin dərdlə calaşıq,
Saçın qıvrım, dolaşıq –
Bir kimsə hörə bilməz.

Təzə, tərsən – incəsən
Hər çiçəkdən öncəsən
Şah bağında qönçəsən –
Bağbanın dərə bilməz.

NEYNIRIK

Gizli sevgi ürəyinə damdımı,
Baxışların vüsalından kamdımı?
Etirafın dadar-doymaz tamdımı?

Dada çatmaz harayları neynirik.

Gözlərinin səmasından öpürəm,
Əllərinin təmasından öpürəm,
Sevgimizin komasından öpürəm, –
Soyuq, bumbuz sarayları neynirik.

ÖZÜM OLDUM

Qız, xəyalın suda sındı,
Su bulandı, su da sındı,
Ün kəsildi, səda sındı –
Lal da, kar da özüm oldum.

Çilik-çilik – səs içimdə,
Hüznüm, yasım süst içində
Kim bilər ki, bəs içimdə –
Qal da, kor da özüm oldum???

Fağır eşqim cücərəsi, –
Boyun sevib becərəsi,
Gec də olsa, gec görəsi –
Bal da, bar da özüm oldum.

GÖZLƏRIMƏ HEYRƏT ÇÖKÜB

Dilə tutdum – qabar-qabar,
Gülə tutdum – topar-topar.
Gül mehrini əlim tapar –
Tellərinə sığal büküb.

Kimdi kimə bələd olan,
Dəcəl, şuluq vələd olan.
Aramızda qələt olan
Bu cızığı cığal çəkib.

Nəfəsində həvəs oldum,
Ürəyindən ün, səs aldım
Gül yaxanda qəfəs buldum –
Sol əl qurub, sağ əl söküb.

Dar köynəyin sırıq-sırıq,
Yaxan açıq, düymən qırıq,
Narın yetik, sinən qoruq –
Gözlərimə heyrət çöküb.

GƏLSIN

İstəyimi etdim bəyan,
Sevgim sənə oldu əyan

Etmə özgə o yan, bu yan,
Vur, yolunda ölən gəlsin.

Mərdanə ol, seçim səndə,
Haqq butası – içim səndə,
Bir tabutluq köçüm səndə –
Aparmağa gələn gəlsin.

Nə gedirsən, nə gəlirsən,
Mən dəliyəm, sən gülürsən,
Çəkdiyimi nə bilirsən,
Kefində ol, bilən gəlsin.

Gözüm yaşı damcı-damcı –
Qəlbə yükdü – qamçı-qamçı
Mehrimə sin, ol yanımcıl,
Dərdi mənlə bölən gəlsin.

### ÇILƏYIR

Göy mehrindən Aynan gəlib
Nur varisi – soynan gəlib,
Haqq butası – paynan gəlib –
Təşnə gözlər nur çiləyir.

Əl uzatdım, əlim yetmir,
İzharına dilim yetmir,
Dərk etməyə elmim yetmir –
Açılmazdır, sirr çiləyir.

Hansı Düha anasıdır?
Hansı qəlbdə yanasıdır?
Bilmir hara qonasıdır –
Məkansızdır, hürr çiləyir.

Tanrı seçib, tək yaradıb,
Məryəm kimi pak yaradıb,
Tamahkara şəkk yaradıb –
İnci, mərcan, dürr çiləyir.

## HƏVVADAN ADƏN DOYANA KİMİ

Tut əlimdən,
gedək
xoş ovqat içində –
Ölümə
qönçə dodaqların
busə təmasını
duyana kimi.
Sıx əlimi.
Bu təmasla
Zülmətin
Dibsiz dərinliyinə
enək,
Zaman axınında
Cənnət oxşamasa ruhumuzu,
Təzə sevgilərlə
Təzədən cücərək
boyana kimi –
Yaşayaq

Həvvadan Adəm
doyana kimi.

## GÖRÜM TƏZƏDƏN SƏNI

Boz ayın
boz havasında
həvəsə gəlib,
Aldanıb,
yaz havasında
özünü bilib
tez açılan çiçək…
Axşamın
sazağında
əsim-əsim əsib,
tir-tir titrəyib.
titrəməkdən
yorulan çiçək…
Dolaşıq xəyallarla
bulanıb,
ağlayıb-ağlayıb
yaz başına dolanıb
göz yaşında
durulan çiçək! –
Üşütmə məni,
Yaşa,
Görüm təzədən səni…

* * *

Qaçma, gülüm, qaçma məndən,
Kölgəm səni buraxmaz ki!
Boynum zülfün dolağında,
Sıcaq qollar darıxmaz ki!

Əlin əlimdə gizlənib,
Nəbzin ovcumda səyriyir.
Sevgin gözündə süslənib,
Dəcəl qürurun əriyir.

Hürkək əliyə dönürsən,
Boylanırsan, boyun çatmır.
Pıçıltıyla süst dinirsən,
Titrək dilin sözə yatmır…

…Gecə, gündüz aramım yox,
Axtarıram səndə məni.
Özgə həvəs, məramım yox,
İtirmişəm məndə məni.

## ARZUM

Gözündə qəlbinin naləsi – yanğı,

Üzündə gözünün caləsi – yanğı,
Suyunda şirinlik haləsi – yanğı,
Yanğılar içində donacaq arzum.

Dünyanı qaldırıb saldın üstümə,
Necə də yanımsız durdun qəsdimə,
Boğuldum oturaq, xoşhal tüstümə,
Acizlik suçunda  yanacaq arzum.

Təmkinsiz, qərarsız – səbri itənəm,
Çox ucuz, urvatsız – qədri itənəm,
Ölsəm, unudulan – qəbri itənəm,
Qalsam, səni qatil sanacaq arzum.

**SUAL**

Açıb tökdün zülfünü,
Pərdə çəkdin hüsnünə.
İçi çirkin olanın
Camalı nə, hüsnü nə?

İSMƏTIMDI

Sənlə keçən ömür gözəl –
Yuxu, mürgü, çimir gözəl.
Pıçıltı, səs-səmir gözəl –
Rüsxətimdi, rüsxətimdi.

Ömür şirin – doymamışam,
Tamarzılıq qoymamışam.
Haramlığa uymamışam –
Qismətimdi, qismətimdi.

Saflıq, paklıq – cövhərimdi,
Sadəliyim – gövhərimdi,
Abrım, həyam – məhvərimdi, –
İsmətimdi, ismətimdi.

GƏLIR

*(Yunis İmrəvari)*

Vücudum şəhəri sirli –
Arzularım dürlü-dürlü,
Gümanlarım tutqun, kirli,
Günəşi içməyim gəlir.

Canımda var ötkəm maraq,
Alım hər gün haqdan soraq.
Cana yaxın, candan iraq –
Dünyadan köçməyim gəlir.

İlac bilib içdim qəmi,
Toparlandı dərdin kəmi.
Həsrət hələ gömgöy zəmi,
Yetiksiz biçməyim gəlir.

Ayaq çaşbaş, qanad tülək,
Gəl, gəl deyir məsud mələk,
Tüğyan edir həvəs, dilək,
Od alıb saçmağım gəlir.

Yalan dünya şirin, məzə,
Mələk donlu hiylə düzə.
Yaxam keçib dilbilməzə –
Özümdən qaçmağım gəlir.

Haqq önündə nökər, ağa –
Sirdir keçər kim qabağa.
Qoşulub kor yapalağa,
Zülmətdə uçmağım gəlir.

Sınmış sanma sən Ərşadı,
Baxma dərdim ta ərşədi,
Kəmərimi kim qurşadı,
Qurbanam, açmağım gəlir.

GIZLI AĞRI ÇƏKƏ-ÇƏKƏ

Əzəl günlər hey deyişdik
Höcətləşdik, gah əyişdik,
Gah yovuşduq, gah dəyişdik, –
Nazlı ağrı çəkə-çəkə.

Göz qoydular hər gərdişə,
Biz qapıldıq kor vərdişə,
Yaman düşdük dilə-dişə –
Sözlü ağrı çəkə-çəkə.

Yalanlarla qıcıqlandıq,
Yersiz sözə acıqlandıq.
İçimizdə ocaqlandıq –
Közlü ağrı çəkə-çəkə.

Fikir, diqqət verən oldu,
Xəlvət yerdə görən oldu.
İncəliyə girən oldu –
Həzli ağrı çəkə-çəkə.

Böhtan haqqa calanmadı,
Paklıq, ismət talanmadı,

Saf nəğməmiz bulanmadı –
Gizli ağrı çəkə-çəkə.

## BƏSIMDI

Hər qayğıma qalan kəs,
Hər qadamı alan kəs,
Mənə qurban olan kəs,
Dolansa gen, bəsimdi.

Ovudub, tutub dilə,
Gedirəm, yoldan elə,
Əylənim bir az hələ –
Bir nəfəs, ün bəsimdi.

Yad et məni gülünən,
Ağla, gülüm, dilinən,
Heç demirəm ilinən –
Hər il bir gün bəsimdi.

## GÜL YUXUSU TUTDU MƏNI

Bağa girdim meh üstündə,
Gülə sindim şeh üstündə,
Heyrətləndim «pəh» üstündə –
Gül yuxusu tutdu məni.

Bahar ötdü, bülbül susdu,
Yaşıllığı Günəş qarsdı,
Hər tərəfi pöhrə basdı –
Çöl yuxusu tutdu məni.

Elə bildim, var köynəyin,
Yaddan çıxdı dar köynəyin,
Əyin çılpaq, tor-köynəyin –
Tül yuxusu tutdu məni.

## QOCALMAZ KI!

Qədərimiz qoşadırmı,
Gorumuz baş-başadırmı,
Bizi sevgi yaşadırmı?! –
Sevən ürək qocalmaz ki!

Uman yerdən istə, canım,
Yarıtmazı pislə, canım,
Sevgi olan kəsdə, canım,
Arzu, dilək qocalmaz ki!

Əldə çıraq məni axtar,
Ağ zülmətli ünü axtar
Yaz qəhərli günü axtar –

Solar çiçək, qocalmaz ki!

Yazdım, gedə ünvan tapa,
Həsrət odu sovan tapa
Məndən məni qovan tapa –
Çərxi-fələk qocalmaz ki!

### CAN EVINI SÖKMƏRƏM KI!

Şah bilib cənginə girdim,
Lal baxışa könül verdim –
Gözlərindən sevgi dərdim,
Peşmançılıq  çəkmərəm ki!

Hər nə çəkdim, gizli çəkdim,
Dilim ucu, sözlü çəkdim
Çəkdim, dirigözlü çəkdim –
Sirri yola tökmərəm ki!

Üzdə gülüş, gözdə kədər,
İz salmadı qəlbə hədər,

Nə göstərər bir gün qədər? –
Can evini sökmərəm ki!?

### QARIMISAN QIZ YAŞINDA

Dilində yadlaşdı adım,
Baxdım yazıq, matdım-matdım,
Yaxınlaşdım addım-addım,
Sən dünyanın o başında.

Əllərin açdı yaxamı,
Sinəmi tutdun oxamı?
Qanlı köynəyim sovxamı? –
İslatmısan göz yaşında.

Qucdun qəbrimi obaşdan,
Pıçıldadın: Dur! – yavaşdan
Giley gəldi sinə daşdan,
Qarımısan qız yaşında.

### GÜLƏR

Hərcayı dilində qarğış yeridi,
Xoş əməl payında alqış yeridi,
Bəzən xarabalıq – bayquş yeridi,
Bəzən ruhumda mələklər gülər.

Dolanıb başına adsız illərin, –
Doğmasız, ögeysiz, yadsız illərin,
Duyumsuz, ləzzətsiz, dadsız illərin –
Yaşamaq eşqinə diləklər gülər.

Bal dadır acısı sevgi bağının,
Nəğmədir sükutu gənclik çağının,
Məhşər əzabı var həsrət dağının,
Büdrəsə, əyilsə, fələklər gülər.

Qapılar özünə, bixəbər gəzər,
Özündə özündən dərbədər gəzər,
Bir anlıq ovqata mükəddər gəzər –
Saçını dağıdar küləklər, gülər.

## YALAN OLSUN

Qöncə gülsən – dərmədim ki!
Gül səfanı sürmədim ki!
Qapın açıq – girmədim ki!
Rəva, rüsxət yalan olsun!

Sən dilini şirin etdin,
Eşq odunu sərin etdin,

Həzzin, nuşun yerin etdin –
Ucuz qismət yalan olsun.

Halal sevgi dilə gəlmir,
Baxmaq həzzi ələ gəlmir,
Küsən sona gölə gəlmir,
Nakam həsrət yalan olsun.

İlim-ilim itərəm mən,
Son mənzilə yetərəm mən,
Sufilərdən betərəm mən,
Eyşi-işrət yalan olsun.

## NECƏ DÖVRAN, NECƏ DƏMDI

Xuşgəbarı çini-çini,
«Daşa» basıb çox elçini,
Xoş qaməti, boy-biçimi
Tanrı verib, qılıq kəmdi.

Camalından heyrət yağar,
Gözlərindən vüslət yağar,
Dinsə, nifrin, hiddət yağar –
İfçin «dəli», cini cəmdi.

Dildən pərgar, çaşmağı yox,
Üzdə həya, yaşmağı yox,
Sözdən ötüb, qaçmağı yox,
Nə dözülməz bir sitəmdi.

Gözəl bilib, sevib seçdim,

Yolunda canımdan keçdim –
Allah, nə baladı, düşdüm,
Necə dövran, necə dəmdi.

### ÇAĞIR MƏNI

Çağır məni gecə yarı,
Yuxun gözdən qaçmamış ha.
Gecə keçmiş olsa belə,
Sübh gözünü açmamış ha.

Oyanmasam, məni çağır,
Sakit, asta, fağır-fağır,
Silkələ sən ağır-ağır
Anadillər uçmamış ha.

Oyat məni Ay batmamış,
Dan üfüqə əl qatmamış,
Ağ zülmətə ün çatmamış –
Sübh namazı keçməmiş ha.

Yatan ölməz, yetdi xəstə,
Kəs yanını dizin üstə,
Halallıq al, borcu istə,
Bu dünyadan köçməmiş ha…

### DÜŞDÜK

*Bir gün səni görmürəmsə,*
*Sinəm üstə ocaq yanar.*
*Göz səfası sürmürəmsə,*
*Qollar düşər, qucaq yanar…*

Üz qoymadım üzün üstə,
Baş qoymadım dizin üstə,
Yer almadım gözün üstə –
Nahaq yerdən dilə düşdük.

Uralanmış bostan olduq,
Şər, böhtana dastan olduq,
Candan keçən dostdan olduq –
Cadu-piti, felə düşdük.

Nə oldusa, səndən oldu,
Qoşa gəzən gündən oldu,
Günah şərik – tənnən oldu,
Payız vaxtı selə düşdük.

Qoruq-qaytaq gözlədinmi,
El deyəni gizlədinmi,
İçin-için sızladınmı??? –

Belə gəldik, belə düşdük.

### ÜMIDIM QALIBDI HAQQ DIVANINA

Bir saxta gülüşün altın çəkirəm,
Canımdan can alıb, candan keçirəm,
Sailə dönürəm, şandan keçirəm
Ümidim qalıbdı haqq divanına.

Çarmıxa çəkilsəm, xoşum gələrdi,
Torpağa əkilsəm, xışım gələrdi.
Başıma qalsaydı, başım gələrdi,
Ürəyim günahkar – yax divanına.

Çox da qürrələnmə, əsirin oldum,
Xəyanətə dözdüm, kəsirin oldum,
Abrıma büründüm, həsirin oldum,
Sərildim yoluna – yox divanına.

### HƏM XOŞ OLUB, HƏM AYIB

Arzu kamla tapışdı,
Dodaq ələ yapışdı…
Necə isti öpüşdü –
Bu qisməti kim qıyıb,
Həm xoş olub, həm ayıb.

Öpüş nədi, ayıb nə?
Öpdün, oldu hayıf nə?
Məkrə yozmaq sayıb nə? –
Bu qisməti kim qıyıb,
Həm xoş olub, həm ayıb.

Haqq qanadı – kölgəsən,
Başım üstə, bəlkə, sən.
Dünyam yanar ləngisən,
Bu qisməti kim qıyıb, –
Gec anlayıb, gec duyub!

Telin sığal möhtacı,
Kimdən gələr əlacı?
Umarsan acı-acı,
Bu möhnəti kim qıyıb,
Dərdə salıb, dərd oyub.

### RUHUM KÖYNƏK OLAMAZ KI!

Gecə tənha, yorğan, döşək
İlbiz olub yalamaz ki?
Görüm, ruhum qucsun səni,
Ruhum köynək olamaz ki!

Uzun payız gecəsində
Həmdəm olduq neçəsində…
Kama çatdıq bircəsində,
Röya gerçək qalamaz ki!

Nə ummuşdun, nə götürdün,
Nə tapmışdın, nə itirdin?
Çox apardın, az gətirdin,
Heybən yırtıq, dolamaz ki!

### ÖZÜNDƏN KÜS

Qollarını aç, gəlirəm,
Sirri Xudadı, bilirəm.
Açmasan, vallah, ölürəm –
Ölməz olsam, özündən küs!

Yolum yoxuş – daş, tikanlı,
Ayaq yalın, baş dumanlı,
Mənzil yaxın, xoş gümanlı –
Gəlməz olsam, özündən küs!

Xoş meh olum, hərdən əsim,
Qoy çəkilsin duman, sisim,

Təlaşına qurban kəsim –
Kəsməz olsam, özündən küs!

Büründüyün alov nədi,
Hopub cana, əynindədi –
Cangüdəndi – eynindədi,
Bilməz olsam, özündən küs!

### SƏNSƏN

Sən gəlirsən, mən gedirəm,
Məkan gəzib, vaxt güdürəm,
Heç bilmirəm, nə edirəm –
Gün də sənsən, an da sənsən.

Oğrun-oğrun cığal baxdın,
Zalım-zalım oda yaxdın,
Kirpiyini qəlbə taxdın,
Tikan də sən, can da sənsən.

İndi niyə? Bir vaxt sordun,
Sükutunla büsat qurdun,
Üzdün məni, yaman yordun –
Əzəl də sən, son da sənsən.

Axı nəyə gecikmişəm, –
Gec səpmişəm, gec əkmişəm?
Dibsiz ürəyə çökmüşəm

Kankan da sən, kan da sənsən.

Bir yanğımı soyutmadın,
Bir bədxahı bayıltmadın,
Sübh açıldı, oyatmadın,
Xoruz da sən, ban da sənsən.

## SUYA GEDƏN, SUDAN GƏLƏN

Suya gedən «sürməli qız»
Cilvələnib, süslənibdi.
Süd gölündə görməli qız
Necə şirin bəslənibdi.

Bəhsə düşdü, çaya girdi.
Dəcəlləşib sulaşdılar.
Göz çağırdı – haya girdi
Ovlaşdılar, «dalaşdılar»

«Sudan gələn sürməli qız»
Köynəyəcən islanıbdı.
Saç açılıb – hörməli, qız,
Anan yaman hirslənibdi.

Sənəyində su qalmayıb,
Təşnəlilər yolda içib –
Oğlanlardı, söz salmayıb,
Elə bilib baldı, içib…

## QISMƏTIMƏ QAIL OLDUM

Qərib quşam, sənə qondum,
Sənmi oldun ilkin andım –
Korun-korun oda yandım,
Zail oldum, sail oldum.

Külli idim, tək-tək itdim,
Zərrə-zərrə cəbrə yetdim.
Nəğmə oldum, dildə ötdüm –
Öz sehrimə mail oldum.

Min  illərlə ritmik düşən
Damcı oldum – qaya deşən
Xırman oldum, saldın heşən,
Qismətimə qail oldum.

## İNDI  NIYƏ

***(Sənə)***

*Gəlmisən, canım sənə qurban ola, indi niyə?*

*M.Şəhriyar.*

İndi niyə? On il öncə,
Qismət oldum bir sevincə.
Bildim səni tər bir qönçə –
Pardaxlandın, par-par yandın.

Neçə ildir, mehrə çatıb,
Gecəni gündüzə qatıb,
Sənlə olub, səndə itib,
Tapılmışam, – indi andın???

Kirpiyindən  asılmışam,
«Döz» oduna qısılmışam,
Qalib, məğlub – nasılmışam –
Necə duydun, necə sandın.

Yatanda da oyaq oldum,
Möhnətinə dayaq oldum,
On il əvvəl, bayaq oldum –
Bilə-bilə niyə dandın?

Baxa-baxa hey yanıram,
Gözlərindən boylanıram,
Deməsən də, mən qanıram –
Quşa döndün, huşa qondun.

İndi niyə? Suçlu zaman…
Bir az inam, bir az güman,
Vüsalındır dərdə dərman –
Mənəm Kəbən, mənəm andın…

ƏRŞAD DEMƏZ QOCALMISAN

Yar-yatımlı işvən, ədan,
Cana nazla sızır qadan,
Verdim nida, gəlsin sədan –
Susa-susa bac almısan.

Səndən gələn sevgi payı,
Eşq əzabı – xoş bal ayı.
Lütfün boyu – dərin quyu –
Salladıqca ucalmısan.

Hər nə varsa, bildirirsən,
Göz yaşında güldürürsən,
Dirildirsən, öldürürsən –
Ölmüşündən güc almısan.

Boyunda yaraşıq gördüm,
Gözündə barışıq gördüm,
Dilində gur işıq gördüm –
Ərşad deməz qocalmısan.

QARTAL GÖRDÜM DAŞ QƏFƏSDƏ



**Qubadlı rayonu. Dondarlı kəndi**

Ey dili qafil, dedim:
Vətənsiz, səfil, dedim,
Özümə qəfil dedim–
Üşüdüm, ört üstümü...



**DÜHA MÖHTƏŞƏMLİYİ**

*Keçmiş SSRİ məkanında, alimlər arasında*
*xüsusi çəkisi olan, respublikamızda*
*müasir demoqrafiya elmi məktəbinin*
*banisi, iqtisad elmləri doktoru, professor*
*Mədət Mustafa oğlu Allahverdiyevin*
*əziz xatirəsinə.*

I

Bir ovuc
torpaq götürdüm
dürüst tanımadığım
qəbrindən babamın…
Deyildir hədər,
Gör nələr göstərdi
tale, qədər!..
Nə fərqi,
El-obam –
Doğma Dəmirçilər torpağı
müqəddəsdir mənə
babam Hacı Bədəlin

şəhid məzarı q

II

Əzbərimdi
gözəllik önündə
səksənməz,
İlahi heyrətlə dayanan
Səttar[1],Lətif adı.
Dahilik rəmzi
Xudu Məmmədov soyadı –
Hamıya bəlli
qəlbində
bütöv, azad
Vətən dərdi.
Açılmadı
qol-qanadı,
olmadı xoşbəxt
düz-əməlli.
Dostların xası,
bir də
gözəlliyə təşnə
Mustafa oğlu Mədət dünyası!..

III

Alim tanıyıram –
çeşid-çeşid titullu,
planet sanballı,
ömrü bütün
fırtına,
təlatüm,
qeylü-qallı,
təzadlı…
Həyat axınına –
müdhiş dalğalara,
Coşqun dağ selinə
sinə gərib
tərpənməz dayanan,
qosqoca, sal qaya kimi –
Bizim Dəmirçilərdə*
hansısa
Planetdən gəlmiş
"Qəyə dibində"**
Düz-düzəngahın

----------------------

*Mədət müəllimin doğma kəndi
**Yer adıdı

ortasında duran
zirvəsi gəldiyi məkana
dirənən saydığım
nəhəng
meteor «Qaya» kimi –
Yerə pərçimlənmiş

[1] Səttar Bəhlulzadə
Lətif Kərimov

yarıdan çox,
bilinməz himi…
Alim tanıyıram –
insanlığı
Tanrı ölçüsü,
Rəsul Allah ülgüsü,
məxsusı elmin
Anteyi* –
torpağa batmış
dizinə qədər
zamanın siqlətindən,
İdrakına qanad
Dəmirçilər sevgisi,
Elmə
ecazkar xidmətindən
yaranmış
ömür qayəsi –
ucalmaq həvəsi…
Alim tanıyıram –

-----------------

Qədim yunan əsatirində
Göyü çiynində saxlayan.

təfəkkür qüdrəti,
büllur saflığıyla
müdrik,
vüqarlı,
Yalan və riyadan
uzaqlığıyla
rahat,
Ziddiyyətlərlə dolu dünyadan
narahat,
Məişət xırdalıqlarıyla
əsəbi,
Çılğın uşaq sadəlövhlüyü,
Dədəm Qorqud təmkiniylə
duracaq
həmişə önümdə
əzəmətli –
yad planetdən gəlmiş
«Qaya» kimi –
əsrarlı,
möhtəşəm, yaraşıqlı…
Yaşayacaq
düha hünəriylə
haqqına
ölməz bir Həqiqət –
Minlərlə
müdriklər içində
seçilən,
tanınan,
İlahi etiqadla təsdiqlənən –
işıqlı,
qibtə ediləcək
erudisiyasıyla qranitləşib,

sevən ürəklərdə
əbədi heykəlləşən
Mustafa oğlu Mədət!!!

## MƏNI

*Məşhur türkoloq-alim, filologiya elmləri doktoru, professor Kamil Vəli Nərimanoğluna*

Qələm tutdum zülmət çapam,
Boz ömrümə bir ad yapam,
Gor qazıram, nəsə tapam –
Ad etsinlər gorda məni.

Tale, qismət səydən gəlmir,
Çağırtıdan, "heyy"dən gəlmir,
Lovğalıqdan, küydən gəlmir –
Qovub tutdu kor da məni.

Doğmam perik, yadım hanı,
İblisləşən odum hanı,
İtib batan adım hanı –
Kim qoşubdu Qurda məni.

Ula Qurdum, gəz yanımda,
Çöməl, qatla diz yanımda,
Üzüm qara öz yanımda –
Suya çəksən harda məni.

Bu Qurd məni hara çəkdi,
Can istədim, gora çəkdi,
Qiyamətdə dara çəkdi,
Gəlib tapdı burda məni.

## BILMIR

*Muğam ifaçılığı sənətinin Tanrı möcüzəsi Alim Qasımova*

Nə axtarır, nə itirib,
Nədamətli söz[1] ötürüb?!
Hara gedir baş götürüb –
Harda durar, hələ bilmir.

Yanıb-sönən heyrət nədi,
Səbrə yatan hiddət nədi,
Şükranlıqda möhnət nədi?! –
Həzdən qəmi silə bilmir.

Göy xırmana, heşana bax,
Vəl cütləyib qoşana bax,

---

[1] Alimi klassik muğam ifaçılığından kənara çıxmaqda suçlayanlar indi peşmançılıq çəkirlər.

Nur dağında çaşana bax –
Gedib çatmır, gələ bilmir.

Bir məkansız varlıqdadı,
Bir zamansız darlıqdadı,
Ruhu yaman korluqdadı,
Nə halətdi, bilə bilmir.

Əridikcə neydə, səsdə –
Nalə gəzən gen qəfəsdə,
Haqq məqamda, son nəfəsdə
Ölmək istər, ölə bilmir.

## KAMAN ÖVLIYASI

*Habil Kamana*

Kaman piltə, yanan Habil,
Niyə yanır, qanan Habil,
Şöləsində donan Habil –
Ölməz, ölsə, zaman yanar.

Gülə sinmiş mehri gör sən.
Titrək teldə sehri gör sən,
Ürək yaxan qəhri gör sən –
Ürək dözər, aman yanar.

Üzər qəmlər dənizində,
Tufan qopar bənizində,
Gəzər giryan, ün izində,
Ümid itər, güman yanar.

Nalə çəkər, sim çağırar.
İdrak edən qəm çağırar,

Vəhydi, ündü – kim çağırar? –
Cadu, ovsun – şaman yanar.

Barmaq doğan heyrətə bax, –
Qəm püskürən halətə bax,
Qan süzülən zülmətə bax –
Bu zülmətdə iman yanar.

## BÜRCÜNDƏ MƏMMƏD ARAZ

Gah sözdən yıxılmışam,
Gah sözlə yaxılmışam,
Gah sözə qısılmışam –
Təsəlli tapıb bir az.

Söz var, dağa qaldırar,
Söz var, dağdan saldırar,
Söz var, haqqa aldırar –
Söz də var ki, yaramaz.

Sözlə qoşa durmuşam,
Sözlə yollar yormuşam.

Sözdən qala qurmuşam –
Bürcündə Məmməd Araz.

## DÜNYADI

*Böyük Məmməd Araza*

Əlini dünyadan mərd üzüb, gedir,
Sınıq ürəkləri dərd üzüb, gedir,
Tanrıya bağlını vird üzüb, gedir –
Arsızlar, yolsuzlar sökən dünyadı.

Düzləri düzdədi – yolu dolanbac,
Sağı uçurumdu, solu dolanbac,
Acları tox gəzir, toxlarısa ac, –
Əyriyə, harama çəkən dünyadı.

Sabahı hamilə böhtana, şərə,
Hamı bulanıbdı çamura, kirə,
Mədhiyyə oxunur hiyləyə, məkrə –
Doğrunu başından əkən dünyadı.

Sərçə dimdiyində qartalın payı,
İllacı kəsilib, gedibdi hayı,
Yadından çıxıbdı səması, qıyı –
Zirvəsi qəfəsə çökən dünyadı.

Ulağı dəvəni alıb yedəyə,
Şairi möhtacdı xırsız gədəyə,
Halalı haramxor tutub hədəyə –
Yüz hərzə, yüz hədyan tökən dünyadı.

## BORCLU QALDIQ BIR SƏNƏ

*Xalq şairi Məmməd Araza.*

Bir ucdan dolan dünya,
Yarımçıq qalan dünya,
Hər üzünə olan dünya –
Avandın nə, tərsin nə?!

Yordum, atım tərlədi,
Düşdüm, çulsuz çərlədi,
Namərd fələk hərlədi
Öz çərxini tərsinə.

Gordan gələn haymısan,
Namərdlərə taymısan,
Kimə nəyi qıymısan? –
Özün qarı, tər sinə.

Çox üz vermə nadana,
Sırtıqlaşa, dadana –
Qada gələ qadana,
Ürəyinə dərd sinə.

Şamamasan dəyməmiş,
Gunəşdən don geyməmiş,
Əlinə əl dəyməməiş –
Bir özünü görsənə.

Çox gözələ yar oldum,
Səni görən kor oldum…
Kimsə dadmaz bar oldum,
İlk nübaram, dərsənə.

Qarlı dağsan, kaş aşam,
Ta zirvənə dırmaşam,
Al qanıma bulaşam –
Aşkarlana, görsənə.

Nura qənşər durmuşam,
Zülmətimi yarmışam,
Çatıb sənə varmışam –
Qəlbim açıq, girsənə.

Məmməd Araz, tuş olduq,
Harınlara nuş olduq,
Yersiz coşdüq, boşaldıq
Borclu qaldıq bir sənə.

## DÜNYA BELƏ DÜNYADI

*Böyük Məmməd Araza*

Ömür gödək gümandan,
Saman baha zamandan[1],
Ölüm ucuz amandan –
Dünya hələ dünyadı.

Ağla, üzə güləndə,
Tərsi avand biləndə,
Gəlhagəli gələndə –
Öndə tələ dünyadı.

Gör bir, əqrəbi nasıl,
İştə ilana qısıl…
Yüz də zəkandan asıl –
Ağıla şələ dünyadı…

…Haqqa xain canidi,
Gözəl şortu – fanidi,
Yaman şirin – anidi,
Dünya belə dünyadı.

## QARTAL GÖRDÜM DAŞ QƏFƏSDƏ

*Gözəl insan, dağ vüqarlı Abbas müəllimə*

[1] «Saxla samanı, gələr zamanı» kəlamına istinadır.

Qartal gördüm daş qəfəsdə,
Xəyalında zirvə gəzir.
Yanğı çəkir gur həvəsdə,
Tumasdağda dövrə gəzir.

Qanadları yığılıbdı,
Ləlləkləri üzgün inlər.
Xanimanı dağılıbdı,
Daş qəfəsdə əzgin inlər.

Yaddan çıxıb gen səması,
Mehri düşüb daş qəfəsə...
Məftillənib "mən" səması,
Zorlanıbdı zor həvəsə*

## ŞAİR ÇƏKDİ

Şair dostum İbrahim İlyaslıya

Göy çaxnaşdı, şər girişdi,
Yer gərnəşdi, dağ sürüşdü,
Çiçək üstə qar irişdi –
Bar-bəhərə afat çökdü,
Külli dərdi şair çəkdi.

Qan töküldü kin çatmamış,
Yandı zəmi dən tutmamış
Zülmət çökdü gün batmamış,
Batan Ay da şərdi[1], şəkdi
Külli dərdi şair çəkdi.

Gül üşüdü, qəlbi yandı,
Söz bişidi, hissi dondu,
Ümidinə kölgə qondu,
Cücərməzi bir də əkdi –
Külli dərdi şair çəkdi.

Qibtə etdi uçan quşa,
Heykəl insan – məğrur daşa –
Azadlığı bir tamaşa
Gözlərindən qan yaş tökdü
Hürr dərdini şair çəkdi.

Haqq deyən dil qantarğalı,
Yox dəlisi, bir dağalı[2]
Hamı qul – nökər, ağalı,
Asi düşən bircə, təkdi,
Hürr dərdini şair çəkdi.

MƏRDIMAZAR QOYMADI KI!

*Qubadlı rayonunun keçmiş İcra başçısı,*
*camaatımızın sevimlisi, fədakar insan,*
*dostum Əvəz Hüseynquliyevə.*

---

[1] Quranın 113-jü «Sübh» surəsinə bax.
[2]cığalı

Yorub, yortdu bu dünyanı,
Xoş günləri saymadı ki!
Barındırdı dörd bir yanı,
Heç özünə qıymadı ki!

Hər itərə[1] təşnə oldu,
Hər axara dəhnə oldu…
Bol çörəkli təknə oldu,
Nəfsi aclar doymadı ki!

Qurd ürəkli, qorxmaz olan,
Namərd əli sıxmaz olan,
Kimdi öndə, baxmaz olan –
Şahdı, quldu saymadı ki!

El dəlisi, bir Hatəmdi,
Haqqı sevdi, möhlət umdu,
Hara döndü, xeyrə damdı –
Mərdimazar qoymadı ki!

QALIB

*Keçmiş sevimli şagirdim, səmimi dostum*
*Mehdi Mükərrəmoğluna.*

Bir söz deşir ürəyimi,
Dilimin ucunda qalıb.
Açıb tökər diləyimi,
Huşumun küncündə qalıb.

Daşlaşıbdı, daş kimidi,
Uçurtsam, bir quş kimidi,
Qəlbə axan yaş kimidi –
Gözümün ovcunda qalıb.

Yata bilmir ipə, sapa əı
Çalışır yerini tapa,
Məlhəm ola, cana hopa –
Ağrımın acında qalıb.

Dilimdədi, beynimdədi,
Hər nə varsa, eynimdədi
Ağır yükdü, çiynimdıdi,
Heybəmdə, xurcunda qalıb.
,

Səriştəli təhsil işçisi, səmimi insan qeyrətli
və həyalı qadınə, mehriban, qayğıkeş, şərəfli
ana Şamama xanım Həsənovaya

*Əsl gülən axırıncı güləndir.*
*Rus atalar sözü.*

[1] Şəhidlərimizə

Sevincə çeviri qəzəbi, kini,
Vüqarın toyunda ortaya qoydun.
Bir zaman tapdanmış bildilər səni,
Bu adı gər gəzən ataya qoydun.

Qədrin itən günü sınmadın, dözdün,
Çətin ömür yolu sən gələn oldun.
Qələbə marşını sən onda yazdın,
Bu gün ifa edib – son gülən oldun.

## BAX BIR

Yoxmu sənin bir niyazın,
Qapında durana bax bir.
Xoflu zülmət, bəmbəyazın,
Nədəndir? Sorana bax bir.

Zər-zibayam əynin üçün,
Xoş təbəssüm – eynin üçün.
Yetim olub, qoynun üçün
Boynunu burana bax bir.

Uzaqda da, yaxında da,
Aşkarda da, yuxunda da,
Yad baxırıq çoxunda da,
Ümidi qırana bax bir.

Demə, qorxum ölümdəndi,
Həsrətdəndi – zülümdəndi,
Cana qəsdin dilimdəndi,
Can üzüb, yorana bax bir.

## ŞAIR RÜSTƏM BEHRIDIYƏ

Salam! – dedin, dar ağacı, –
Cinayətin zop ağacı,
Vəfasızın yar ağacı,
Kim düşünüb, kim tapıbdı,
Necə gözəl, xoş yapıbdı.

## YUXUDA AŞKARLIQ, AŞKARLIQDA YUXU

***Şair Rüstəm Behrudiyə.***

Yarınəfəs dolaşıram,
«Ölü canlar» ölkəsində.
Kabuslarla culğaşıram
Dar ağacı kölgəsində.

Nə dinən var, nə danışan,
Nə dinləyən, nə anışan,
Qan süzülür – bağrım şan-şan,
Kim var? Nə var? – bəlkəsində.

Yoz yuxumu, dərviş baba,
Göstər qayğı, bir iş, baba,
Bu nə gediş, gərdiş, baba,

Bir kabussan, bəlkə, sən də.

Haqqın yolundan sapınıb,
Hamı İblisə tapınıb,
İman bacası qapanıb,
Küfrün doğuş döngəsində.

Kimdi məni tərs oxuyan,
Fitnə-fəsad, nəhs toxuyan,
Üfunətli – pis qoxuyan,
Çərxin haqdan dönəsində.

## AKIF SƏMƏD DÖNMƏZ DAHA

*(Şair Akif Səmədin xatirəsinə)*

Gözəlliyə heyrətləndi, –
Əsir oldu, beyətləndi.
Qeyzə gəldi, qeyrətləndi –
Hünərini yıxıb getdi.

Kör-köçünə xoş olmadıq,
Pişvazına qoşulmadıq…
Zirvəsində qaş olmadıq –
Ətəyinə baxıb getdi.

Göydən yerə bax, nur damır,
Nur içilir xımır-xımır.
Dizdə taqət, gözdə çimir
Gördü yoxdu, çıxıb getdi.

«Sarı tel»ə sinməz daha,
Gor ovsunlu – dinməz daha –
Akif Səməd dönməz daha,
Var-yoxunu yaxıb getdi.

## GƏRƏK

*(Şair Akif Səmədin xatirəsinə)*

Sözün də astagəli var,
Ləngəri, ustagəli var,
Düşmənə, dostagəli var —
Yerində deyəni gərək,
İlməsi, düyünü gərək.

Söz var ki, dağa qaldırar,
Söz var ki, dağdan aldırar,
Atlını atdan saldırar,
Yerində deyəni gərək,
İlməsi, düyünü gərək.

Sözün hünər, təpəri var,
Ordusu var, nəfəri var,
Qalxanı var, çəpəri var,
Yerində deyəni gərək,
İlməsi, düyünü gərək.

Sözün pıtırağı, rastı var,
Hədəfi var, sərrastı var,
Min düşməni, yüz dostu var,
Yerində deyəni gərək,
İlməsi, düyünü gərək.

Sözün quyu, kahası var,
«Hoy-hoy»u var, «hoha»sı var,
Dəlisi var, dühası var,
Yerində deyəni gərək,
İlməsi, düyünü gərək.

## BU VƏTƏN MƏNIMMI?
## MƏNIMKI IMIŞ…

*Bu Vətən mənim deyil,*
*Bu Vətən mənim imiş.*
*Zirəddin Qafarlı*

Çaşbaş cəmiyyətin çaşbaş azarı,
Namusun, qeyrətin qəbir qazarı,
Lüt, üryan gəlinlər – hərrac bazarı –
Bu Vətən mənimmi?
Mənimki imiş.

Təkində, üstündə sərvətə bax sən,
Sahibi dilənçi – xidmətə bax sən,
Təriflər, alqışlar – minnətə bax sən –
Bu Vətən mənimmi?
Mənimki imiş.
Millət cana doyub acgöz harından,
Qurtara bilməyir qanlı torundan…
Ölkələr barınır bol-bol varından –
Bu Vətən mənimmi?
Mənimki imiş.

Külfətin yanında üzü qaradır –
Evdən çıxan bilmir yönü haradır,
Vurnuxur, var-gəli ora buradır –
Bu Vətən mənimmi?
Mənimki imiş.

Ərli qadınları dul bazarında,
Alimi, şairi qul bazarında,
Ərəni, igidi gül bazarında –
Bu Vətən mənimmi?
Mənimki imiş.

Dingildər barlarda oğulu, qızı,
Bilinmir gecəsi, sübhü, gündüzü,
Babalar, yaxşı ki, görmürlər bizi –
Bu Vətən mənimmi?
Mənimki imiş.

Gəl açma sinəmi, dağım görünər,
Baxar, bic-bic gülər, yağım görünər,

Nə vaxtsa Vətənli çağım görünər –
Bu Vətən mənimmi?
Mənimki imiş

## YAXINLAŞIR MƏHŞƏRIMIZ

*Laçın həsrətiynən yanıb – qovrulan*
*şair dostum Nadir Azayoğluna*

Xal-xal olub bağrım başı,
Laçın didəm, Şuşam yaşı.
Mey-məzədə nadan, naşı,
Yaxınlaşır məhşərimiz.

İgidlərim – şəsti sınıq,
Hampam arsız, vara qanıq,
Düşmən qəvi, güvənc donuq,
Pusqu çəkir qənşərimiz.

Çıxır yaddan Vətən – Torpaq
Çox urvatsız itən torpaq –
Atam, anam yatan torpaq,
Kəsilibdi həşirimiz.

Bu dünyadan doyduq, nədi?
Əyri yola uydud, nədi?
Başa külü qoyduq nədi??? –
Düşməz oldu düşərimiz.

Bulanıqlar durularmı!?
Dar ağacı qurularmı!?
Xalqın haqqı sorularmı!? –
Üzə durur təşərimiz.

## GƏRƏKDI

*Fikirlər təntiyib, ustalır bir-bir,*
*Kaş ki ömrü boyu uşaq qalaydım.*
*Ay ata, deyirəm sənsiz dünyada,*
*Kaş ki övladın yox, şerin olaydım.*
*V.Səmədoğlu*

Oğul olmaq siqlətinə girənin,
Torpaq kimi səxavəti gərəkdi.
Vurğuna xas sırf özünü görənin,
El daşıyan bərəkəti gərəkdi.

Ata borcu Allah borcu olmalı,
Beş vaxta yox, hər bir vaxta dolmalı.
Məxəz olub nəsil-nəsil qalmalı,
Düz əməlli söz-həkəti gərəkdi.

Şair qardaş, bu nə qibtə, həsəddi,
Nə şöhrətə, nə urvata pəsəddi,
Aşılmazdı, keçmək olmaz bu səddi,
Vurğunluğun öz şövkəti gərəkdi.

DÜNYA ŞÖHRƏTLI INSANIN ANASINA

Gözünün önündə günaha batan,
Nəfsinə qul olub, tamaha batan,
Firon tək ox atıb Allaha «batan»,
Gəlinin səni də günaha çəkər.

Bu dünya qalmayıb qəddara, bacım!
Qılıncı qan süzən sərdara, bacım!
Hökmündə qan gölü – quldara, bacım!
Ömrü uzun olmaz, sabaha çəkər.

Ortada dayanmaq gör nə gedişdir,
Haqq aşiqlərinə xain bir işdir.
Kərəmi yandıran Qara Keşişdir,
Sevəni qorumaq Allaha çəkər.

HAYIF

*Dilək tutmaz eloğluna*

Çölün şirin, için acı,
İçinə, çölünə, hayıf.
Savab altda suçun acı
Ulğumsuz dilinə, hayıf.

Unutmusan el, obanı,
Nə doğmasan, nə yabanı,
Söndürürsən gur sobanı –
Oduna, külünə, hayıf.

Dərdi dedim, anlamadın,
Yana çəkdin, yanlamadın,
Heç özünü danlamadın??? –
Südünə, belinə, hayıf.

Suyumuz bir, yerimiz bir,
Dərdimiz bir, sərimiz bir,
Xeyrimiz bir, şərimiz bir –
Əl «tutan» əlinə, hayıf.

Bir kökün üstə simlənən
Bir sevinən, bir qəmlənən.
Bir haraya min cəmlənən –
«Quqqu»na – Elinə, hayıf.

Yad nə bilir ki, mən kiməm,
Müəlliməm, ya həkiməm,
Mən də mənəm, səki mənəm –
Kökünə, dölünə, hayıf.

## SÜKUTA

*Ədəbiyyatımızın*
*təəssübkeşi,dilimizin*
*tədqiqatçısı, gözəl müəllim Ədalət Əsədova*

Topuq vurub, çaşma, dilim,
Mənə loğaz qoşma, dilim.
Çox həddini aşma, dilim, –
Gücün çatmır lal sükuta.

Aç yaxanı döysün külək,
Həqiqəti əysin külək,
Səni bol-bol öysün külək,
Təki vermə dil sükuta.

Coşan, daşan gur selə yad,
Buxov qıran bir elə yad,
Cəh-cəh vuran bülbülə yad –
Ömrün boyu dal sükuta.

Rənglər şahı üç rəng istə,
Dalğalansın başın üstə.
Dönüm azad, tənha büstə,
Əl qatmayım, əl sükuta.

Mələ, mənim yetim quzum,
El dərdinə çarə yozum.
Nəğmə deyim, şeir yazım,
Bağlamayım bel sükuta.

## YAĞIR

*Paxıllığı ürəyində daşlaşan «şair»ə*

Daş tökülür ağır-ağır,
Paxıl salır çığır-bağır.
Hardan bilsin xain «fağır»,
Bu daş ürəyindən yağır.

Şeytan xofu calaq-calaq,
Toplaşıbdı qalaq-qalaq.
Yükü ağır, qəlbi çolaq
Ağrı sürəyindən yağır.

Nə olubsa, bərk olubdu,
İnsanlığı tərk olubdu.
Hirsi dönüb çirk olubdu,
İrin diləyindən yağır.

Yarındıqca yaltaq-yaltaq,
Olubdu iblisə ortaq.

Xırdalanıb xırdaq-xırdaq,
Çıxdaş ələyindən yağır.

## SONDAN ƏVVƏLKI AN

*Rekviyem*

*(Uzun illər, ta tələbəlik illərindən üzü bəri,
yarım əsrə yaxın çiyin-çiyinə işləməklə,
dostluq etdiyim, maarif fədaisi Vaqif
Möhsün oğlu Kərimov üçün).*

I

Qaldır başını,
namərd tale,
Əgər üzün varsa,
bax gözlərinin içinə,
Qıl tamaşa
sönən ümidlərimin
yır-yığışına,
köçünə…
Qurulub dar ağacı,
Sabahımın boğazında
sabunlanmış,
xam kəndir həlqəsi,
Ayağımın altında
əsim-əsim əsən
üç ayaqlı kətilin
qara kölgəsi…
Həsrətlə vüsal arasında
günlərim
bir-birinə
dolaşıb qalıb,
Dilimin ucunda
qətlinə
hələ hökm oxunmamış
arzularımın
Son sözü,
Son nidası
ilişib qalıb…
Bu müdhiş olaydan
böyümüş gözlərim
dikili qalıb dan yerinə,
aydın sabahlara muştuluq –
Qızılı şəfəqlər arayır…
Nə Günəşdən bir xəbər var,
nə oyanır,
nə saçlarını darayır.

Kim olacaq
üz tuta Ulu Tanrıya
mənim əvəzimdən yalvara,

yarımçıq,
nə qədər görəsi
işlərim var hələ,
mənə yanım göstərə,
Cavidin, Pərvizin
toyuna qədər,
möhlət istəyə.
Ya aca dilimi –
ağrıdan, heyrətdən
susmuş
parım-parça dilimi,
Məndə
Tanrı dərgahına yollanmış
yalvarışlı məqam,
xitab görə,
Rəhmli, mərhəmətli Allah da
«Pompeyin son gecəsi»nə
xitam verə.

## SEVƏR XANIM

*Qubadlının qeyri-adı nəğməkar qızı Sevər xanıma*

Oxu, elimin nəğməkar qızı,
Tanrı yetirməz bu cür avazı,
Səsindən gəlir Qubadlı yazı,
Sevər xanım!

Tamam nəğməsən, nəğmə dilisən
Vətən çiçəyi, Vətən gülüsən.
İlk baharsanmı bütün ili sən,
Sevər xanım!

Səni dinləmək hər gün diləyim,
Ovsunlu nəğmən təşnəm, gərəyim,
Talanan süfrəm – duzum, çörəyim,
Sevər xanım!

Sözdə Vətənə ad olan kəslər,
Sənə biganə, yad olan kəslər.
Kor qalsın paxıl, bəd olan kəslər,
Sevər xanım!

Oxudun, susdu illər fəryadı,
Məni üşütdü nəğmənin odu.
Könlümə məlhəm səsinin dadı,

Sevər xanım!
Gözəlsən, kimin var buna şəkki, –
Olsa qərəzsiz  hər ölçü, çəki.
Əhsən Xaliqə, xəlq edib pəki,
Sevər xanım!

## A QARDAŞ

*Şair dostum Məmməd Aslana*

Təbərrükə, tutiyaya dönmüsən,
Bizə qismət haçan ola, a qardaş!
Dost bağında hansı gülə sinmirsən,
Sim – sim ola, açan ola, a qardaş.

Nə vaxtdandı, can atıram görüşə,
İstək ola, Məmməd, Ərşad görüşə.
Qurumuşam, mat qalmışam bu işə,
Kimdi kimdən keçən ola, a qardaş!

Təmənnalı dost deyilik biz axı,
Dünən, bu gün rast deyilik biz axı,
Sərxoşluqdan məst deyilik biz axı,
Kimdi bizdən içən ola, a qardaş!

Yox fürsətə, yox rüsxətə nə deyim,
Bu uğursuz kəsimətə nə deyim,
Aramızda kor həsrətə nə deyim? –
Bizdən bizə köçən ola, a qardaş!

Heç ağlıma gələrdimi bu dərdim,
Məni aciz bilərdimi bu dərdim,
Baxıb, baxıb gülərdimi bu dərdim?–
Gülü güldən seçən ola, a qardaş!

Gül suyudur, iç dərdimi, ilac yaz,
Dolaşıbdı ac düyünü, əlac yaz,
Susdursalar, möhlət istə, dil aç yaz –
Zəmim vağam, biçən ola, a qardaş!

Yaman düşdü bu yerdəcə yadıma,
Mir Məhəmməd tez çatardı dadıma,
Fərq qoymazdı qohumuna, yadına –
Ehtiyaca qaçan ola, a qardaş!

Bu dostluğa binə qoyan, daş qoyan,
Həvəslənib, məmnun olub, xoş qoyan,
Bizlə qoşa hərlənəydi, kaş qoyan –
O zirəvəyə uçan ola, a qardaş!

*Müəllimim, zəngin erudisiyalı, böyük insan*
*Arif Sirac oğlu Məmmədovun əziz xatirəsinə.*

Natiq, şair, alim idi,
O tay, bu tay–elim idi,
Şirin-şəkər dilim idi –
Arif idi Sirac oğlu.

«Araz dolana-dolana,
Axar bulana-bulana» –
Yazıb bəstəçi olana –
Sufi idi Sirac oğlu.

Heyran idik bəstəsinə,
Qəlbə yatan xoş səsinə…
Örnək idi zumrəsinə,
Tərif idi Sirac oğlu.

Boy-buxunlu, enli kürək,
Şir cüssəli, aslan bilək
Əyilənə dayaq, dirək –
Şərif idi Sirac oğlu.

CÜCƏRDI, BOY ATDI COCUQ DILƏYIN

*Keçmiş sevimli şagirdim, sayğılı dostum,*
*şair, publisist, kamil tərcüməçi, ərəbşünas*
*Zahid Baqi oğlu Şahsuvarlıya*

Həm şirin, həm dəcəl bir tifil idin,
Yıxılıb durmağın bir anlıq idi.
Nağılbaz nə cırtdan, nə də fil idin,
Hamıya sabahın qaranlıq idi.

Div yıxan xülyanla qol-qanad açıb,
Arzular dalınca ənginləşərdin.
Çılın-çılpaq gəzib, özündən qaçıb,
Kasadlıq içində zənginləşərdin.

Aldı qanadına xeyir mələyin,
Ağlına, zəkana fərasət verib.
Cücərdi, boy atdı cocuq diləyin,
Özündən özünə cəsarət verib.

## Dostum, müəllimim Asif Qasım oğlu Əfəndiyevə (Asif Ataya)

Tutduq bərk-bərk ətəyindən uşaq tək,
Çəkdi bizi türkü dərkin yoluna.
Azad fikrə carçı gördük biz onu,
Dinlədikcə heyran olduq ağlına.

Zamanına, məkanına sığmadı,

Mühit olan dumanları dağıtdı.
İdrakının məntiqində bərq vurdu,
Təmtəraqlı[1] gümanları dağıtdı…

…Cüzi çarpan nöqsanı da olardı,
Təmənnasız qüdrətini dandılar.
İsa oldu, Musa oldu, Tur oldu,
İlan olub çəliyinə sindilər.

*Əbədiyyət ili, dəh-düş ayı.*

[1] Kommunizm xülyaları

UCALIQDA YAZIQLIQ

*(Ə.Elçibəyə)*

*«İNSAN! Necə də məğrur səslənir!».*
*M.Qorki.*

Sən də
minlər, milyonlardan biriydin,
əsarət burulğanında
boğulanlar içində.
Bilirdin
mələklərdən uca yarandığını,
Özünün,
Əşrəfi olduğunu
yer üzünün.
Düşünən, duyan, İNSAN,
«Dirilərdən diriydin»…
İtib-batıb öz içində,
Öz-özünə yararsız,
Varlığında hamıya
kömək, gərək daşıyan,
Yalnız
«Bütöv vətənçün yaşayan –
Yoxlar içində tək olan,
minlər, milyonlarla
doğulanlar içində.
Hamı
xoşbəxt, firəvan
dolanırdı, gəzirdi,
Sənin duyduğun –
daş olub ürəiynə yüklənən
acı,
yandırıcı,
çəkilməz,
dözülməz yükə
hamı
çox rahat,
xoşluqla dözürdü –
Özlərindən xəbərsiz,
Öz içində çəkə-çəkə…
Yandırıb
yaxırdı səni,
üşəndirməsə də kimsəni,
insan qürumuna ləkə,
insanlarda özünə
biganəlik, laqeydlik –
Bəşər övladlarına –
məğrurluğa
ən böyük təhlükə!

26.04.01.

## AĞLAMA

*Ramiz Rövşənə*

«Bu sulara kim daş atdı?”(Ramiz Rövşən)
Bu suları kim qanatdı,
Bu sulara sözmü batdı? –
Ağlama, suyum, ağlama.

Su torpağa sinidi, hopdu,
Su torpağa yollar tapdı…
Kimsə gəldi, quyu yapdı –
Ağlama, quyum, ağlama.

Quyudan bir ilan çıxdı,
Ulduz gördü, göyə baxdı,
Göydən yerə yaşlar axdı,
Ağlama, Göyüm, ağlama.

Yaşlar axdı, arxa doldu,
Arx da şişdi, nırxa doldu,
Bu nırx mənə arxa oldu,
Ağlama, dayım, ağlama.

.

## AZADLIQDI HAQQA ƏRKİ

Görən gözlər üçündür – QARANLIQ,
Görməyənlər – dünyanı boz görür.

Bir səs gəldi – haray səsə,
Bağlı qapı arxasından…
Zəncirlənib daş qəfəsə,
Azadlığın qorxusundan…

Tale yolu çox bürküdü,
Yükü ağır, duz yüküdü.
Təkəbbürlü bir çəkidi –
Can üzülər sorğusundan…

Yoxdu- dedi, olanına,
Nəhri qoşdu dolanına,
And içdilər yalanına –
İyrənərlər doğrusundan.

Azadlıqdı haqqa ərki,
Cahan boyda ada görkü,
Qənim çıxdı nəfsi, məkri –
Bircə buğda ağrısından…

…Alınlardan tər tökülür,
Ümidlərdən şəkk çəkilir,
Ürəklərdə dan sökülür
Zülmətdən nur «oğrusunnan»…

Son

## KITABIN IÇINDƏKILƏR


Könlü haqqa bağlı adamın şerləri ....................3

*Üzü haqq dərgahına*

Həzrəti Axır Zaman peyğəmbərimiz Əla,
Ali Məhəmmədə (s.ə.s.) ithaf....................13

Mövlana Mir Həmzə Əfəndi Seyyid Nigarinin
vəfatı və vəsiyyəti....................14

Rəbbin səni bu qədərmi sevirmiş!....................16

«Ənəlhəqq»–Sən....................17

Səndən....................18

Sonsuz sevgilərimin əbədi ünvanı Mir Məhəmməd
Ağa Nurun mübarək ruhuna ismarladığım şeirlər
silsiləsindən Eylər....................20

Meydanına həsəd çəkən....................21

Bax, məni tut....................22

Unutdu....................23

Baban nurda yoğurdu....................24

Dünya....................24

Ürəyim cadar–cadar....................25

Əhlinə....................26

Gor dünyama yaraşıq....................27

Məndə....................28

Kim???....................29

Sığındım, uyudum Allah xofunda....................30

Dilənçiyəm, dərvşəm....................31

Dilinə qurban gedənin....................32

Mir Məhəmməd Ağa Nur oğlu Mir Sədi bəy Əfəndiyə

Öpüşdürər....................33

Gərək....................34

Bəlkələrdən....................35

Zikrə meydan açanımız....................36

Canım – gözüm, Seyyidi– Türk Mir Sədinin rus dilində
yazdığı şerlərin tərcüməsi

Yeri....................37

*Xaraba yurdların yoxmu sahibi*

Ocaq daşı....................49

Vaxtımı....................50

Atam!....................51

Dərdə calandıq....................52

Hələ....................53

Yandı ........................................ 54
Əli allah yaxasında ........................................ 55
Səhərim ........................................ 56
Gəlsin ........................................ 57
Zəfərə aparan nəğmə ........................................ 58
İki rədifli bir şeir ........................................ 59
Vətənin ........................................ 61
Düşər ........................................ 61
Dəmirçilər türküsü ........................................ 62
Qürbət yuxusu ........................................ 64
Olduq ........................................ 65
Bizim eldə qamış dinmir ........................................ 66
Yoxmu mənim özgə dərdim?! ........................................ 67
Görəm ........................................ 67
Allahım ........................................ 68
Qurusun ........................................ 69
Şükür olsun ulu Tanrının əzəli hökmünə! ........................................ 70
Ağlar ........................................ 72
Qal olmuşuq ........................................ 73
Yox ........................................ 74
Gəlsin ........................................ 75
Təbəssüm gərək ........................................ 76
Dərdimə ........................................ 77
Dalınca ........................................ 78

***Yol gedən, yoluna sağlıq!***

Neyləsin ........................................ 81
Səhnəyə dəli Çıxmışıq ........................................ 81
İblisə qan ağladır ........................................ 83
Sinmədik ........................................ 84
İki cahan varlığı gör ........................................ 85
Məni ........................................ 86
Siğə kəbindən bahamı?! ........................................ 87
Suluq–suluq ........................................ 87
Olarsan ........................................ 88
Sınanan kəs ........................................ 89
Giley ........................................ 90
Ayıqlıq, sayıqlıq artırmaq üçün ........................................ 91
Küsər səndən ........................................ 91
Əlindən ........................................ 92
Hanı ........................................ 93
Mərdanəlik mərdlik nədi ........................................ 94
Olar ........................................ 95
Yoxumdan etdin məni ........................................ 96
Öldüyüm tütəkdən düşüm ........................................ 97
Doğacaq ........................................ 98
Yanar dağıq yanar qalaq ........................................ 99
Hər sözü sözdən seçirəm ........................................ 99
Neynirsən ........................................ 100
Arasında ........................................ 101
Məni ........................................ 102
Yuxunu yozana danış ........................................ 103
Axtarır ........................................ 103
Atam anamdan barınır ........................................ 104
Qalım ........................................ 105

Fəlakətmi, qiyamətmi? ............................................................ 105
Demən naşükür ............................................................ 106
Qalmışıq ............................................................ 107
Dünya ............................................................ 108
Qalacaq ............................................................ 109
Tək gələrəm ............................................................ 110
Ola ............................................................ 111
Üç almadan deyirik ............................................................ 112
Dünya qazandım ............................................................ 113
Üşüdüm, ört üstümü ............................................................ 114
Gül dilində dindirmişəm ............................................................ 115
Hardadı? ............................................................ 116
Ötkün ............................................................ 117
Olsun ............................................................ 117
Gərək ............................................................ 118
Xəbərim yox ............................................................ 119
Gəncliyim yamanca düşüb yadıma ............................................................ 120
Başıma and içdilər ............................................................ 121
Çıxar ............................................................ 122
Dağdan atar ............................................................ 123
Oynar ............................................................ 124
Həyat eşqi qaçmadı ki!!! ............................................................ 124
Nəyə gəldin bilməsən ............................................................ 125
Uçurumlar dərinləşər ............................................................ 126
Hardadır ............................................................ 127
Quyu tapdım sirri deyəm ............................................................ 128
Hər sudan içməz dəlilər ............................................................ 129
Gecikdim ............................................................ 130
Saxlanır ............................................................ 130
Qalmaz, atam ............................................................ 131
Mənimdi ............................................................ 132
Gülə–gülə ............................................................ 133
Şərinə düşər batı ............................................................ 134
Bir gecəlik möhlət ............................................................ 135
Olmasın ............................................................ 135
Oldu ............................................................ 136
Nə günahı ............................................................ 137
Gəncliyimi ............................................................ 138
Çıxdı ............................................................ 139
Qədər, qismət düz eylər ............................................................ 139
Qan çilənər ............................................................ 140
Sənə ............................................................ 141
Mayan turşdu, zatın qırıq ............................................................ 142
Çatmaz ............................................................ 143
Bilər ............................................................ 143
Vərdişli donosçu ............................................................ 144
Çıxa ............................................................ 144
Yıxılanın, de, kimi var!? ............................................................ 145
Dünya düzəlmir ............................................................ 146
Mən özümə yadmıyam ............................................................ 147
Keçəri ............................................................ 147
Səni ............................................................ 148
Ağlayım ............................................................ 148
Qara qul ............................................................ 149
Yağış yağır, ruhum çimir ............................................................ 150

Mehrim ilə ülfətin yox ....... 150
Qırdırmayın gülü mənə ....... 151
Gəldi ....... 152
Olar ....... 152
Yorğun çıxdıq dümdüz yola ....... 153
Gendi bu gor qoy məni ....... 154
Ümidlərə bələnirəm ....... 155
Can içində ....... 155
Çıxar ....... 156
Olacaq ....... 157
Hər yan məhbəs, yiyəli ....... 158
Yoxdan gəlib, yoxa gedən! ....... 159
Öyrəncəli ....... 160
Bu bulaq eşqə bənzər ....... 160
Ömürdən giley ....... 161
Sübh duası ....... 163
Suçum ....... 164
Yollar məni hara çəkir!? ....... 165
Bəy oğlanam ....... 166
Artdı ....... 167
Bir bəri gəl gendə duran ....... 167
Şaxta mənə neyləyəcək ....... 168
Amalına sürüyəcək ....... 169
Gəlmişəm ....... 170
Dil pəhləvanına bax ....... 171
Eylədin ....... 172

***Qədərim Allah əlində***

Ağ yolunan ....... 175
Gəzdir, görüm son məkanı ....... 176
Qədərim Allah əlində ....... 177
Kim ....... 178
«Ənəlhəqq» demədi ki! ....... 178
Nə qədər ....... 180
Törənini ustad qursun ....... 180
Ulayır koryapalaq ....... 182
Gərək ....... 183
Mübarəkdir ....... 184
Biləm ....... 184
Haqqa varar ....... 185
Qərib insan ....... 186
Aralandı düz gəcindən ....... 187
Ömrüm daşda bitəcək ....... 188
Vəsiyyət ....... 188
Gündəlikdən səhifələr ....... 192
Korlar qaçdı, gor qaçmadı ....... 193
Saleh üçün elegiya ....... 194
Vəsiyyət ....... 197
Fazil…Ətifə ....... 199
**Dördlüklər ....... 201**
Duyğu təranələri ....... 201

***Çöl yuxusu tutdu məni***

Qüdsiyytin cazibəsi ....... 215
Günahımı söz əllərin? ....... 216

Yenə gəldin....217
Doğmalaşan yada bax....218
Qalıbdı....219
Dəyməz....219
Eylədin....220
İlmə–ilmə sökülübmü?....221
Nə ovsunsan, nə heyrətsən!....222
Qürurumdan salsa da....223
İblisə tapınmış qadın....224
Belə....225
Toruna girərmiyəm....226
Mübarək....227
Ürcah oldum sən zalıma....228
Bilməz....229
Neynirik....230
Özüm oldum....230
Gözlərimə heyrət çöküb....231
Gəlsin....232
Çiləyir....233
Həvvadan Adəm doyana kimi....234
Görüm təzədən səni....235
Qaçma, gülüm, qaçma məndən....236
Arzum....236
Sual....237
İsmətimdi....237
Gəlir....238
Gizli ağrı çəkə–çəkə....240
Bəsimdi....241
Çöl yuxusu tutdu məni....241
Qocalmaz ki!....242
Can evini sökmərəm ki!....243
Qarımısan qız yaşında....243
Gülər....244
Yalan olsun....245
Necə dövran, necə dəmdi....246
Çağır məni....246
Düşdük....247
Ümidim qalıbdı haqq divanına....248
Həm xoş olub, həm ayıb....249
Ruhum köynək olamaz ki!....250
Özündən küs....251
Sənsən....252
Suya gedən, sudan gələn....253
Qismətimə qail oldum....254
İndi niyə....254
Ərşad deməz qocalmısan....256

*Qartal gördüm daş qəfəsdə*

Düha möhtəşəmliyi....259
Məni....264
Bilmir....265
Kaman övliyası....266
Bürcündə Məmməd Araz....267
Dünyadı....268

Borclu qaldıq bir sənə ........ 269
Dünya belə dünyadı ........ 271
Qartal gördüm daş qəfəsdə ........ 272
Şair çəkdi ........ 273
Mərdimazar qoymadı ki! ........ 274
Qalıb ........ 275
Sevincə çevrilib qəzəbi, kini ........ 276
Bax bir ........ 276
Şair Rüstəm Behridiyə ........ 277
Yuxuda aşkarlıq, aşkarlıqda yuxu ........ 278
Akif Səməd dönməz daha ........ 279
Gərək ........ 280
Bu vətən mənimmi? Mənimki imiş ........ 281
Yaxınlaşır məhşərimiz ........ 283
Gərəkdi ........ 284
Dünya şöhrətli insanın anasına ........ 284
Hayıf ........ 285
Sükuta ........ 287
Yağır ........ 288
Sondan əvvəlki an ........ 289
Sevər xanım ........ 292
Qardaş ........ 293
Arif idi Sirac oğlu ........ 295
Cücərdi, boy atdı cocuq diləyin ........ 296
Asif Ataya ........ 297
Ucalıqda, yazıqlıq ........ 298
Ağlama ........ 300
Azadlıqdı haqqa ərki ........ 301

(SON)